www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 13 aprel 2017-ci il Cümə axşamı № 76 (6690) Qiymət 60 qəpik

**Xəbər**

**Bakıda istirahət mərkəzində tikili uçdu - 2 nəfər öldü, 4 nəfər yaralandı**

yazısı səh.14-də

**Gündəm**

**"Hamı anlayır ki, dollar qalxacaq"**



"Əkrəm Həsənov: "Pul qıtlığı yaşandığı üçün bəzi dövlət orqanları aylardır əmək haqqı vermirlər"

yazısı səh.3-də

**Piter terrorunda satanist izi - Ukraynadan yayılan mesajın sirri**

yazısı səh.12-də

**Trampın "üzünü döndürən" kimyəvi silah haqda bilmədiklərimiz...**

yazısı səh.5-də

**"MTN çetesi"nin məhkəməsində ilginc ifadələr; "Dedilər ki, MTN-ə kömək etməlisən"**

yazısı səh.6-da

**Azərbaycan müxalifəti Putinə inanırmı...**

yazısı səh.5-də

**ATƏT-in "tufanqabağı sakitlik" öncəsi yaydığı Qarabağ hesabatı nəyi dəyişəcək?**

yazısı səh.11-də

**Sabiq nazirdən turizmin inkişafı üçün təkliflər**

yazısı səh.4-də

**Avstriyadan Azərbaycana göndərilən 170 000 avroluq dərman Ukraynada yoxa çıxıb**

yazısı səh.13-də

**Tanınmış mətbuat və ictimaiyyət nümayəndələri Türkiyədəki seçkilərə "evet" deyir**

yazısı səh.4-də

**Gəncə univermağının sahibi beynəlxalq axtarışa verildi**

yazısı səh.14-də

**Ölmüş eşşəkləri kolbasa edib satanlar tutuldu**

yazısı səh.13-də

## Qərbdən ölkəmizə "yaşıl işıq" planı

# AVROPA BİRLİYİ AZƏRBAYCANA VİZA REJİMİNİ LƏĞV EDİR - SENSASİON GƏLİŞMƏ

İddialar var ki, AB-nin miqrasiya və qaçqınlarla məşğul olan qurumları məhz Azərbaycan kimi ölkələrdən olan axını yönləndirmək, daha dəqiqi, nəzarət etmək, miqrasiya qərarı verənlərdən isə səmərəli işçi qüvvəsi kimi istifadə etmək üçün viza rejimi şərtlərini xeyli yumşaltmaq niyyətindədir




yazısı səh.9-da

## Azərbaycan İsraildən yeni silahlar alacaq - İrəvana pis müjdə

İşğalçı ölkə və erməni lobbisinin səylərinə rəğmən, Bakı nə yəhudi dövləti, nə də digər ölkələrlə hərbi anlaşmaları dayandırmayacaq; "Stratfor" Patruşevin Bakı səfərindəki əsas məqsəddən yazdı...

yazısı səh.8-də



**Rəsul Quliyevlə Cəmil Həsənlinin davası yenidən qızışdı; ""Professor" ömrü boyu saxtakarlıqla məşğul olub"**

yazısı səh.7-də



*Elçin Mirzəbəyli:*

**"Rusiyanın iddiaları böyüdükcə xarici siyasəti cılızlaşır"**

yazısı səh.9-da



Samir Kazımov

**ABŞ-da həbs edilən azərbaycanlı başına gələnləri "Yeni Müsavat"a danışdı**

yazısı səh.10-da

**13 aprel 2017**

YENİ MÜSAVAT
N 76 (6690) 13 aprel 2017

Association for Civil Society Development in Azerbaijan
Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası

# AVCİYA Turizm və Menecment Universitetində növbəti debat keçirdi

**Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) "Azərbaycan gəncliyi gələcəyimiz naminə: Baxış bucağı" adlı layihəsinin icrasına başlayıb.**

Musavat.com xəbər verir ki, layihə bütövlükdə 2017-ci ili əhatə edəcək. İl ərzində tədris semestri nəzərə alınmaqla müxtəlif universitetlərdə debatlar təşkil olunacaq. Bu tədris semestrində 4 debatın keçirilməsi nəzərdə tutulub. Növbəti debat 12 aprel 2017-ci il tarixində Azərbaycan Azərbaycan Turizm və Menecment Universitetində keçirilib.

ATMU-nun akt zalında keçirilən debatda layihənin koordinatoru İradə Yaqubova layihə barədə məlumat verib. O, bu layihənin tələbələr üçün mühüm rola malik olduğunu qeyd edib.

Moderator Orxan Cabbarov layihə çərçivəsində budəfəki debatın mövzusunun "Azərbaycanın dünyamiqyaslı rəqabət qabiliyyətli turizm ölkəsinə çevrilməsi üçün nə etmək olar?" olduğunu diqqətə çatdırıb. O, mövzu ilə bağlı tələbələrin bu sahədə fikir mübadiləsi aparacağını deyib.

Daha sonra debata start verilib və tələbələr Azərbaycanda turizmin inkişaf etdirilməsində problemin harada, infrastrukturda və ya xidmət sahəsində olub-olmamasına münasibət bildiriblər.

İnfrastrukturda problem olduğunu qeyd edən tərəf hesab edir ki, turizm obyektləri tikilərkən müştərilərin tələbləri nəzərə alınmır. Eyni zamanda menecerlər tərəfindən düzgün seçim edilmədiyi diqqətə çatdırılıb.

Problemin xidmət sahəsində olduğunu müdafiə edən tərəf bildirib ki, başqa ölkələrdən fərqli olaraq, turistlər istədiyi kimi xidmət ala bilmirlər. Bu məsələdə infrastrukturla bağlı hər hansı problemin olmadığı vurğulanıb. Əgər yaxşı xidmət olarsa, turist üçün qaldığı hotelin və başqa obyektin heç bir önəm daşımadığı diqqətə çatdırılıb.

ATMU-nun debat klubunun üzvləri və digər tələbələr arasında mövzu ilə bağlı geniş müzakirə aparılıb.

Sonda tələbələrin debatdakı müzakirələri ekspertlər- ATMU-nun Xidmət mühəndisliyi fakültəsinin dekanı, Təlim Mərkəzinin müdiri Lətif Kəngərlinski, Turizm və qonaqpərvərlik fakültəsinin dekanı Rəhman Səfərov, İnsan Hüquqları XXI əsr - Azərbaycan Fondunun sədri Şahin Camalov tərəfindən qiymətləndirilib.

# Ali və orta ixtisas məktəblərinə sənəd qəbulu başa çatdı



**Aprelin 11-də ali təhsil müəssisələrinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə 2017-2018-ci tədris ili üçün ərizə qəbulu başa çatdı. Məlumat üçün bildirək ki, 2017-2018-ci tədris ilində I-IV ixtisas qrupları üzrə ərizə verən abituriyentlər istəklərindən asılı olaraq iki dəfə imtahanda iştirak edə biləcəklər. Bu il imtahanda iştirak etmək üçün elektron ərizəsini təsdiq etmiş abituriyentlərin sayı aşağıdakı kimidir.**

I qrup üzrə 27490 nəfər, (o cümlədən yaz imtahanında iştirak edəcək 25603 nəfər), II qrup üzrə 19641 nəfər, (o cümlədən yaz imtahanında iştirak edəcək 18676 nəfər),

III qrup üzrə 17916 nəfər, (o cümlədən yaz imtahanında iştirak edəcək 16752 nəfər), IV qrup üzrə 4922 nəfər, (o cümlədən yaz imtahanında iştirak edəcək 4621 nəfər), V ixtisas qrupu üzrə 34153 nəfər imtahanda iştirak etmək üçün elektron ərizəsini təsdiq edib. Tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrində təhsilini davam etdirmək istəyənlərin sayı isə 36076 nəfərdir.

**Təhsil eksperti Kamran Əsədov bu il əvvəlki illərlə müqayisədə I-IV qruplar üzrə ali məktəblərə qəbul olmaq istəyənlərin sayında kəskin azalma müşahidə edildiyini bildirdi:** "2017-ci il üçün 69969 nəfər elektron ərizəsini təsdiq edib ki, onların da heç də hamısı imtahanda iştirak etməyəcək. Qeyd edim ki, ali məktəblərə qəbul planı yeri I-IV ixtisas qrupları üzrə 40 minə yaxındır. Bu il həmin qruplar üzrə imtahanda iştirak edənlərin sayı isə 69969 nəfərdir. İmtahanda iştirak edənlərin heç də hamısı keçid balını toplamır. Məsələn, 2015, 2016 və hətta ondan əvvəlki illərdə imtahanlarda iştirak edənlərin 60 faizə yaxını keçid balını toplaya bilməmişdi. Bu il də eyni göstəricinin təkrarlanacağı danılmazdır. Belə halda böyük sayda plan yeri boş qalacaq ki, bu da universitetlərin maliyyələşməsinə ciddi təsir göstərəcək. İlk növbədə qeyd edim ki, I - IV qruplar üzrə 69969 nəfər (o cümlədən yaz imtahanında iştirak edəcək 65652 nəfər) elektron ərizəsini təsdiq edib. Bunların hər biri 40 manat məbləğ ödəmiş olur (Cari ilin məzunları üçün bu məbləği dövlət büdcəsi ödəyir). Deməli, I-IV qruplar üzrə DİM 5424840 manat gəlir əldə edib. V ixtisas qrupu üzrə 34153 nəfər abituriyent elektron ərizəsini təsdiq edib ki, bunun üçün hər abituriyent 40 manat xidmət haqqı ödəyib. Deməli, DİM V ixtisas qrupu üzrə 1366120 manat gəlir əldə edib. Tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin ixtisaslarını seçmiş və elektron ərizəsini təsdiq etmiş abituriyentlərin sayı isə 36076 nəfərdir ki, onların da hər biri bu mərhələdə keçirilən test imtahanında iştirak etmək üçün 20 manat ödəyiblər. Deməli, DİM kolleclərə keçiriləcək imtahandan 721520 manat (36076x20) gəlir əldə edəcək. Ümumilikdə DİM 11 apreldə başa çatan sənəd qəbulundan 7512480 manat gəlir əldə edib. Amma bu xalis qazanc deyil. Çünki DİM imtahan prosesini təşkil etmək üçün xərclər çəkir ki, bu xərclər də onların daxili sirləridir".

❑ **Günel MANAFLI**



# "Mənə qarşı sui-qəsd planı da var"

## Əli İnsanov məhkəmədə ilginc bəyanatlar verdi

**Aprelin 12-də Qaradağ Rayon Məhkəməsində Əli İnsanovun cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.**

Musavat.com xəbər verir ki, prosesdə dövlət ittihamçısı ittiham aktını elan edib. İttihama görə, Ə.İnsanov cəza çəkdiyi müəssisədə psixotrop maddələr əldə edərək saxlayıb, aparılan yoxlama zamanı həmin vasitələr aşkar edilib. Bununla bağlı protokol tərtib edilən zaman Ə.İnsanov protokol yazan Penitensiar Xidmətin əməkdaşı, mayor Anar Məmmədova hücum edib, protokolu alaraq cırıb. İttihama görə, Ə.İnsanov mayorun poqonunu cırıb və itələyərək başını qapıya çırpıb. A.Məmmədov yıxılaraq başından xəsarət alıb. A.Məmmədov buna görə 35 gün xəstəxanada müalicə alıb.

**İttihama münasibət bildirən Ə.İnsanov özünü təqsirli bilməyib:** "Qondarma ittihamdır. Mən bunu gözləyirdim. Dedilər ki, dərmanlar tapılıb, başa düşdüm ki, tapşırıq var".

**Əli İnsanov nə olursa-olsun, sınmayacağını deyib:** "Mən sınmayacam, əyilməyəcəm. Bunu hamı bilsin. Mənə qarşı sui-qəsd planı da var. Mənə çatdırıblar. Amma bilsinlər ki, Əli İnsanov ölümdən qorxmur, mübarizə aparmaq üçün yaşayır".

Daha sonra iclasda zərərçəkmiş Anar Məmmədov ifadə verib. O, ittiham aktında yazılanları təsdiq edib. İclasda hal şahidi olan məhkumlar - Rövşən Salahov, Şünasib Əliyev, şahid, keçmiş məhkum Anar Təhməzov, Penitensiar Xidmətin əməkdaşı Füzuli İsmayılov da ifadə verərək ittiham aktında yazılanları təsdiq ediblər.

Növbəti məhkəmə prosesi aprelin 19-da davam edəcək.

Ə.İnsanov 2005-ci ilin oktyabr ayında həbs olunub. 11 illik cəzasının başa çatmasına 2 ay qalmış ona yenidən cinayət işi başlanıb.

❑ **İlkin MURADOV**

# Tramp: "Mən Obama kimi etməyəcəyəm..."

**"Şimali Koreyaya qarşı tədbirlər davam etdiriləcək". Axar.az xəbər verir ki, bunu ABŞ prezidenti Donald Tramp "Foks Biznes" televiziyasına müsahibəsi zamanı deyib. O, Şimali Koreyaya qarşı əhəmiyyətli tədbirlər görməklə bölgədəki müttəfiqlərini qoruyacaqlarını bildirib:**

"Şimali Koreyanın nüvə proqramıyla əlaqədar tədbirlərimiz davam edəcək. Bölgəyə çox güclü bir donanma göndərmişik. Hərbi əməliyyatlar üçün gücümüz yetərincədir. Mən Obama kimi əvvəlcədən məlumat vermirəm. O, Mosul əməliyyatı haqda əvvəlcədən məlumat vermişdi. Bu da əks tərəfin hazırlıqlı olmağına səbəb olmuşdu. Mən isə belə etməyəcəm".

Qeyd edək ki, ABŞ Şimali Koreyaya qarşı təzyiqləri gücləndirib. Vaşinqton artıq Cənubi Koreyaya "Karl Vinson" təyyaradaşıyan gəmisini də göndərib. ABŞ rəsmiləri Şimali Koreya probleminin hərbi yolla həll edilməsinin istisna edilmədiyini bildiriblər.

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərində də abunə qəbul olunur.

# "Sovetski"də "Hacı Cavad" məscidinin söküntüsü dayandırılıb" - icra başçısı

**"Sovetski"dəki "Hacı Cavad" məscidinin söküntüsü dayandırılıb". APA-nın məlumatına görə, bunu Bakının "Sovetski" adlanan ərazisində "Hacı Cavad" məscidinin söküntüsü ilə bağlı məsələyə münasibət bildirən Yasamal Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mehdiyev bildirib.**




İ. Mehdiyevin sözlərinə görə, icma üzvlərinə məsləhət görülüb ki, ölkə rəhbərliyinə müraciət etsinlər: "Məscidin sökülməsi müvəqqəti dayandırıldı. Bakı Şəhər İcra Hakimiyyəti yeni məscidin tikintisi üçün yer ayırmalıdır. Bunun üçün icma üzvləri Qafqaz Müsəlmanları İdarəsi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə müraciət etməlidirlər. Bu məscid tarixi abidə kimi siyahıda yoxdur. Məscid kimi də icması qeydiyyata alınmayıb. Sadəcə, burada insanlar gəlib ibadət edirlər".

**İ. Mehdiyev qeyd edib ki, Bakı şəhərinin Baş Planına uyğun olaraq, hazırda "Sovetski" adlanan ərazidə abadlıq-quruculuq işləri aparılır, yol infrastrukturu yenilənir:** "Bu bina da plana düşüb, sökülməlidir. Rəhbərlik də tapşırdı ki, binanın söküntüsünü hələlik dayandıraq, yeni məscidin tikilməsi üçün yer müəyyənləşdirilsin, sonra söküntü aparılsın. Onu da qeyd edim ki, belə binalar rayon icra hakimiyyətinin tabeliyində deyil. Bir məscid kimi mövcud olmadığı üçün Dövlət Komitəsinə, tarixi bina olmadığı üçün də Mədəniyyət və Turizm Nazirliyinə hər hansı aidiyyəti yoxdur. Məsləhət gördüm ki, dövlət məscidin tikintisinin dayandırılmasını tapşırıbsa, icma üzvləri də aidiyyəti qurumlara müraciət etsinlər. Onlar da bununla razılaşdılar".

Qeyd edək ki, aprelin 12-də Bakının "Sovetski" adlanan ərazisində "Hacı Cavad" məscidinin söküntüsü bir qrup şəxs tərəfindən narazılıqla qarşılanmışdı, dindarlar məscidin ətrafına yığışaraq etiraz aksiyası keçirmişdilər.

**"Yeni Müsavat"ın "Bizim qonaq" rubrikasında bu dəfə müsahibimiz bank sektoru üzrə mütəxəssis, iqtisadçı ekspert və hüquqşünas Əkrəm Həsənovdur. Onun ölkənin iqtisadi durumu, bank sektorunun problemləri, manat-dollar münasibətləri və sair haqqında fikir və mülahizələrini öyrənməyə çalışdıq.**



**"Hesablama Palatasının aşkarladığı faktlardan sonra həmin dövlət məmurları cinayət məsuliyyətinə cəlb olunmalıdır"**

# "Hamı anlayır ki, dollar qalxacaq"

## Əkrəm Həsənov: "Pul qıtlığı yaşandığı üçün bəzi dövlət orqanları aylardır əmək haqqı vermirlər"

***- Əkrəm bəy, bugünlərdə yubiley yaşınızı qeyd etdiniz, 40 yaşınız tamam oldu. Öncə bu münasibətlə sizi təbrik edirik.***

- Çox sağ olun, təşəkkür edirəm.

***- Mətbuatda son illərdə sıx görünməyə başlasanız da, ancaq uzun illərdir bank sektorunda çalışırsınız. İş təcrübəniz haqqında bizə məlumat verərdiniz.***

- 2001-ci ildən 2011-ci ilə qədər, 10 ildən çox bir müddət ərzində bank sistemində çalışmışam. Mərkəzi Bankda, daha sonra "Bank of Baku"da işləmişəm. "Bank VTB Azərbaycan"da da çalışmışam. 2011-ci ildən indiyə kimi müstəqil hüquqşünas kimi fəaliyyət göstərirəm. 2014-cü ilin sentyabrından Vəkillər Kollegiyasının üzvüyəm.

***- Əhalini ən çox dollar-manat münasibətləri narahat edir. Hazırda manatın sabitliyi sadə insanları sevindirir, ancaq iqtisadçılar narahatdır. Bu dəfə hökumət manatı necə saxlayır? Yenə də valyuta ehtiyatlarını xərcləyirmi, yoxsa başqa iqtisadi alətlərdən istifadə edir?***

- Hökumət manatın saxlanılması üçün heç bir vəsait sərf etmir. Hətta son aylarda hökumətin valyuta ehtiyatları artıb. Sadəcə, başa düşmək lazımdır ki, dollar alış-verişində ikinci valyuta da var və o manatdır. Dollar manat qarşılığında alınıb-satılır. Milli valyutanın həcmi də son iki ildə Mərkəzi Bank tərəfindən iki dəfədən çox azaldılıb. Son vaxtlarda daha çox qıtlıq yaradılıb. Ölkədə heç nə dəyişməyib, əmtəə, xidmət və sairin səviyyəsi eynidir, ancaq milli valyutamız azalıb. İstənilən əmtəənin sayı azalanda, qiyməti qalxmalıdır. Milli valyuta azaldığı üçün dollar ucuzlaşır. Son vaxtlar görürük ki, Mərkəzi Bank depozit auksionları keçirir. Yəni banklarda olan vəsaitləri də əmanətə cəlb edir, banklara 14 faizlik gəlir verir. Banklar o pulu kredit şəklində sahibkarlara və vətəndaşlara vermirlər, çünki devalvasiyadan və böhrandan qorxurlar. Yəni Mərkəzi Bankın buraxdığı vəsaitlərin, azalan vəsaitlərin də xeyli hissəsi elə Mərkəzi Bankdadır. Əhalidə pul az olduğu üçün dollar alanların sayı azalıb. Digər bir məsələ isə odur ki, son illərdə dollar ehtiyatı toplayanlara hansısa məhsulu almaq üçün manat lazım olur və o dolları dəyişməlidir. Onlar dollar satanda da Mərkəzi Bank qazanır. Elə Mərkəzi Bank bunu ona görə edib ki, əhalidən dolları ucuz alsın. Mərkəzi Bank ilin əvvəlində dolları hamıya baha satdı ki, sonradan ucuz şəkildə geriyə alsın. Amma bu çox davam edə bilməz. Çünki iqtisadiyyata pul lazımdır. Xeyli planlar var, islahatlar aparılmalıdır. Hətta bunlar olmasa belə, iqtisadiyyatın normal şəkildə fəaliyyətinə pul lazımdır. İndi bəzi dövlət orqanları var ki, aylardır əmək haqqı vermirlər. Çünki pul yoxdur. Bu dəqiqə ödəniş sistemi iflic olub. Sahibkarlar və digər şəxslər indi bir-birinə borclarını ödəmirlər. Çünki hamının ehtiyatı dollarladır, hamı da anlayır ki, dollar qalxacaq. Vaxt udmağa çalışırlar ki, dolları indiki məzənnə ilə deyil, bahalaşdıqdan sonra dəyişsinlər.

**"Vergilərin artırılması indiki halda vətəndaşlar üçün nə qədər ağır olsa belə, son nəticədə demokratiyaya aparacaq"**

***- Dollar nə qədər müddətdən sonra qalxa bilər?***

- Ən gec payızda qalxacaq. Ancaq mən bunun daha tez baş verəcəyini gözləyirəm. Əslində biz ötən il indiki əməliyyatın mini variantını gördük. Ötən ilin mart ayının ortalarında dolların məzənnəsi 1.65 idi, halbuki ilin əvvəlində 1.55 ilə başlamışdı. Martın sonundan başlayaraq mayın əvvəlinə qədər, təxminən iki ay yarım müddət ərzində dollar ucuzlaşdı. Ancaq iyun ayının sonundan yenidən dollar bahalaşmağa başladı.

***- Əkrəm bəy, əvvəllər banklarda dolların alış-satış qiymətlərindəki fərq hər 100 dollara görə, 30-50 qəpik arasında dəyişirdi, indi isə bu fərq 7-8 manatdır. Bunun səbəbi nədir?***

- Bazar iqtisadiyyatıdır və banklar mümkün qədər çox gəlir əldə etməyə çalışırlar. İlin əvvəlində daha çox gəlir əldə etməyə meylli idilər. Onlar buna başlayan kimi qara bazar fəallaşdı. Banklar əgər bu fərqi 20 qəpiyə qaldırırlarsa, qara bazar bunu 10 qəpiyə endirir və istənilən halda banklardan daha çox qazanırdı. Əgər banklar vətəndaşlara dolları baha satırdısa, sonra xeyli ucuz alırdısa, qara bazar daha ucuz alıb, daha baha satmaqla xeyli vəsait qazandılar. Bunu görən banklar da fərqi azaltdılar. Ümid edirlər ki, cüzi fərqə görə camaat qara bazara getməyəcək. Çünki qara bazarın öz təhlükələri də var, orada sizə verilən əsginazlar saxta ola bilər, aldadılma halları ola bilər. Bankların normalda əsas qazanc yeri cəlb etdiyi əmanətlərin faiz dərəcəsi ilə sonradan verdiyi kreditlərin faiz dərəcəsi arasındakı fərqdir. Bu gün də banklar əsasən kredit vermirlər. Çünki bəzi vətəndaşlar manatla krediti alıb dollara çevirərək müəyyən müddətdən sonra satmaqla gəlir əldə etməyə çalışırlar. Hətta bankların da borcunu qaytarmırlar. Hətta borc faizləri yığılsa belə, vətəndaşın dolların məzənnəsindən qazandığı vəsaitin müqabilində bu elə də böyük rəqəm olmur. Banklar bundan qorxurlar. Bunun günahkarı da Mərkəzi Bankdır. Əgər manat bazar dəyərində olsaydı, belə oyunlar getməzdi. İkinci bir məsələ də odur ki, banklar sahibkarlara da kredit verməyə qorxur. Çünki sahibkarlar əsasən əvvəlki kreditlərini bağlamaq üçün kredit götürməyə çalışırlar. Çünki hazırda ölkədə iqtisadi aktivlik azalıb. Bankların ənənəvi gəliri azaldığı üçün dolların alış-satış məzənnəsi arasındakı fərqdən, komission haqlarını artırmaqdan qazanc əldə etməyə çalışırlar.

**"Bankların ənənəvi gəliri azaldığı üçün dolların alış-satış məzənnəsi arasındakı fərqdən, komission haqlarını artırmaqdan qazanc əldə etməyə çalışırlar"**

***- Sizcə, son iki ayda dolların dəyərdən düşməsi müqabilində qiymətlər niyə ucuzlaşmır?***



**"Mərkəzi Bank bunu ona görə edir ki, baha satdığı dolları əhalidən ucuz alsın"**

- Pul sistemi etimad və gözləntilər əsasında qurulub. 1970-ci illərin ortalarına kimi dünyada qızıl standartına bağlı bir sistem idi, yəni banka və ya Mərkəzi Banka pul verib əvəzində qızıl almaq mümkün idi. Ancaq 70-ci illərdən bu qayda dəyişdi və hazırda dünyanın heç bir ölkəsində pulun təminatı yoxdur, siz Mərkəzi Banka 100 manatı verib qızıl ala bilməzsiniz, əvəzində 10 ədəd 10 manatlıq əsginaz ala bilərsiniz. Yəni əsginazı yalnız əsginaza dəyişə bilərsiniz. Hazırda milli valyutamıza etimad azalıb. Qiymətlərin enməməsinin səbəbi də odur ki, indiki vəziyyətdə heç kim manatın hazırkı məzənnəsinə etibar etmir. Nə vaxta qədər ki, manatın həqiqi dəyərini bazar müəyyən etməyəcək, sahibkarlar da manata inanmayacaq. Sahibkarlar gözləyirlər ki, dollar nə vaxtsa qalxacaq. İndi sahibkarların yetərincə iqtisadi savadı var və onlarla bu cür oyunlar oynamaq olmaz.

***- Əkrəm bəy, xalqın iqtisadi durumu məlumdur... Bəs hökumətin iqtisadi durumu necədir? Hökumət bahalaşmadan qazanır, dolların baha olmasından qazanır, neft gəlirləri ilə indi manat ekvivalentində daha çox iş görə bilir...***

- Ümumilikdə, ölkədə iqtisadi durum yaxşı deyil, bunun üçün də ilk növbədə hökumətin iqtisadi durumu yaxşı deyil. Bəzi dövlət orqanları var ki, aylardır əməkhaqlarını vermirlər. İstənilən hökumət çalışır ki, dövlət büdcəsinə daha çox pul daxil olsun. Hökumət hazırda daha çox gəlir əldə etməyə çalışır. Vergiləri artırıblar və bundan sonra da böyük ehtimalla artıracaqlar. Neft gəlirləri azaldığı üçün çalışacaqlar ki, həmin azalmanı vergi yolu ilə kompensasiya etsinlər. Diqqət edirsinizsə, hökumət bunu birbaşa vergilərlə etmir, daha çox dolayı vergiləri artırır. Azərbaycanda son 10 ildə nə fiziki şəxslərin gəlir vergisi, nə hüquqi şəxslərin mənfəət vergisi artmır. Fiziki şəxslərdə 14, hüquqi şəxslərdə 20 faizdir. Vətəndaş bu vergini çox verəndə, dövlətdən daha çox şey tələb edir. Vətəndaş deyir ki, sənə ayda bu qədər pul verirəm, mənim hüquqlarımı qorumalısan. Ancaq dolayı vergilər verəndə, məsələn, ƏDV ödəyəndə vətəndaş bunu hiss etmir. O gedib bazarda nə isə məhsul alır və alanda ƏDV-ni sizdən tuturlar. Ancaq siz o zaman həmin puldan müəyyən hissəsinin dövlətə getdiyini hiss etmirsiniz və dövlətdən hər hansı tələbiniz olmur. Azərbaycanda 2017-ci ilin dövlət büdcəsində ƏDV-dən daxilolmalar, ümumi vergi daxilolmalarının 45 faizini təşkil etməlidir. Demək olar ki, yarısını... Bizdə heç vaxt belə olmamışdı, bu rəqəm maksimum 35 olub və hər zaman hüquqi şəxslərin mənfəət vergisindən az olub. Aparıcı ölkələrin çoxunda isə hər zaman birbaşa vergilər üstünlük təşkil edir. Hökuməti daha çox əhali saxlayır. Bizdə sistemi elə qurublar ki, əhali vergi ödəsə də dövləti saxlayan qüvvənin özü olduğunu hiss eləmir. Qərb ölkələrində isə əhali bunu hiss edir. Bizim dövlət rəsmiləri tez-tez deyirlər ki, Avropa ölkələrində gəlir vergisi daha çoxdur. Bəli, o vergilər birbaşa vergilərdir və vətəndaş onu dövlətə verdiyi üçün əvəzində öz hüquqlarını tələb edir. Vətəndaş maaşının 30 faizini dövlətə verdiyini hiss edir, bizdə isə verir, ancaq hiss etmir. O ölkələrdə ki, birbaşa vergilər azlıq təşkil edir, həmin iqtisadiyyat liberal iqtisadiyyat hesab edilmir. Orada vətəndaşla dövlət arasındakı o əlaqə hiss olunmur.

***- Bizdə uzun illər nə hökumətdə, nə də vətəndaşlarda vergi məsələsinə ciddi yanaşma olmadı. Sanki son illər bu məsələyə diqqət artıb...***

- Son 15 ildə hökumətin əsas gəliri neftdən idi, ona görə də dövlətin neftə ehtiyacı yox idi. Bəzi vergiləri qanunvericilikdə olduğu halda, əhalidən ümumiyyətlə tutmurdular. Vergi sisteminin inkişaf etməsi o deməkdir ki, dövlət məmurları vətəndaşlardan asılı vəziyyətdə olur. Qərb demokratiyası sırf vətəndaşların vergi hüquqları uğrunda mübarizədən başlayıb. Bu baxımdan, mən hesab edirəm ki, bu məsələ indiki halda vətəndaşlar üçün nə qədər ağır olsa belə, son nəticədə pis olmayacaq. Demokratiyaya aparacaq.

***- Hesablama Palatasının son vaxtlar açıqladığı ciddi yeyinti faktları mətbuatda dərc olunur. Ancaq nə hüquq-mühafizə orqanları, nə də digər qurumlar bunun üzərinə getmir, ən azı biz bunu görmürük. Bu faktlar əsasında antikorrupsiya həbsləri başlaya bilərmi, sizcə?***

- Əvvəl-axır mütləq bu həbslər başlayacaq. Azərbaycan iqtisadiyyatının hazırkı vəziyyəti əsasən məmurların etdiyi oğurluqlarla bağlıdır. Bunlara qarşı iş başlamalıdır. Əvvəllər Hesablama Palatası yoxlamalar aparanda, heç bu barədə ictimaiyyətə məlumat verilmirdi. Son vaxtlar isə verilir. Bunun özü artıq müsbət bir haldır və həmin məmurlara xəbərdarlıqdır. Bu hesabatlar əsasında bir baza formalaşır. Bundan sonrakı addım artıq həbslərdir, cinayət məsuliyyətinə cəlb etməkdir. Onları məsuliyyətə cəlb etməsələr də, hansısa tədbirlər görürlər. Sadəcə, bizə bu haqda məlumat vermirlər. Amma qanun nöqteyi-nəzərindən baxsaq, bu məsələlər Baş Prokurorluq yanında Antikorrupsiya İdarəsinin işidir. Onlar bununla məşğul olmalıdırlar. Bu faktlar varsa, həmin dövlət məmurları cinayət məsuliyyətinə cəlb olunmalıdırlar. Mənə belə gəlir ki, bu həbsləri biz çox gözləməyəcəyik, az qalıb...

❑ **Nərgiz LİFTİYEVA**
**Fotolar: Əli RAISINDİR**

YENİ MÜSAVAT
N 76 (6690) 13 aprel 2017

**Türkiyədə konstitusiya dəyişikliyi ilə əlaqədar keçiriləcək 16 aprel referendumuna sayılı günlər qalır. Ölkəmizdə də referendumla bağlı proseslər böyük maraq və diqqətlə izlənilməkdədir. Maraqlıdır, Azərbaycanın tanınmış mətbuat və ictimaiyyət nümayəndələri Türkiyədə keçiriləcək referendumda iştirak etsəydilər, “evet”, yoxsa “hayr” deyərdilər?**

# Tanınmış mətbuat və ictimaiyyət nümayəndələri “evet” deyir

## Azərbaycanın media və ictimaiyyət mənsubları Türkiyədə prezidentli idarəçiliyin tərəfdarıdır...

**“Azərbaycan” qəzetinin baş redaktoru, deputat Bəxtiyar Sadıqov “evet” tərəfdarı olduğunu bildirdi:** “Türkiyə bizim böyük dostumuz və qardaşımızdır. Türkiyə inkişaf etməklə, daim müasirləşən bir dövlətdir. Onun bugünkü rəhbərliyi uzun müddətdir ki, təkbaşına ölkəyə rəhbərlik edir. Çoxdan türk xalqı da, biz də gözləyirdik ki, vahid bir partiya Türkiyə dövlətini uğurla inkişaf etdirsin. Eyni zamanda Türkiyəni gözü götürməyən, hər an ona gizli ya da aşkar şəkildə maneələr yaradan, onu parçalamağa, zəiflətməyə çalışan qüvvələr çoxdur. Ancaq buna baxmayaraq, Türkiyə bizim ürəyimiz istəyən istiqamətdə inkişaf edir. Hesab edirəm ki, referendumda xalq "evet" desə, bu, Türkiyənin daha da qüdrətlənməsinə, möhkəmlənməsinə, inkişafına dəstək olacaq. İnanıram ki, 16 apreldə hamı “evet” deyəcək və beləliklə, biz Türkiyənin yeni inkişafının şahidi olacağıq".

**“Yeni Müsavat” qəzetinin baş redaktorunun birinci müavini Azər Ayxan da “evet”dən yana olduğunu vurğuladı:** “Hazırda Türkiyə Cümhuriyyətində çox ciddi proseslər gedir. Kənar güclər orda Ərdoğan rejimini dəyişmək üçün bəzi cəhdlərə baş vurdu. 2013-cü ilin dekabrında anti-korrupsiya hərəkatı adıyla başladılan proses məhz Ərdoğanın güclü lider qabiliyyəti ilə dəf edildi. Bu proses nisbətən yumşaq dəyişikliyi nəzərdə tuturdu. 17 dekabr 2013 hadisələri 2014-ün martın 30-da keçiriləcək bələdiyyə seçimlərində AKP-nin səs qaybının çox olmasına hesablanmışdı həm də. Hakim partiyanın, onun liderlərinin imicini zədələyib, xalqın səsindən məhrum etmək, bununla da hakim partiyanın iqtidara nəzarət paketinin bir qismini ələ keçirmək planları mövcud idi. Lakin bu cəhd alınmadı. Türkiyə seçicisi bu olanlara rəğmən, 30 mart (2014) bələdiyyə seçkilərində Ərdoğanın partiyasına səs verdi, AKP qazandı. Bunun ardından Türkiyədə iqtidarı dəyişməyin daha radikal üsuluna baş vuruldu. 2016-cı ilin 15 iyul gecəsi hərbi qiyam cəhdi oldu. Əgər bu qiyam baş tutsaydı, bəlkə də Türkiyə üçün daha pis nəticələrə gətirəcəkdi. Hərbi çevrilişdən sonra heç bir ölkə, cəmiyyət xoşbəxt olmayıb. Bu baxımdan, ötən ilin yayında Türkiyə məhz Ərdoğanın və Türkiyə xalqının sayəsində faciənin kəndarından döndü. Mənim fikrimcə, hazırda qardaş ölkədə "demokratiyamı, Türkiyəmi" dilemması yaşanır. Mən “evet”dən yanayam. Çünki Ərdoğanın güclənməsi indiki anda Türkiyənin ayaqda qalması deməkdi. Əksinə, Ərdoğan getsə, Türkiyəni 77 yerə bölmək istəyən hegemon qüvvələr bu planlarını maneəsiz həyata keçirə biləcəklər. Mən orda monarxiyanın, diktaturanın qurulacağına inanmıram. Ərdoğan istəsə də, bunu bacarmaz. Çünki Türkiyə cəmiyyətindəki vəziyyət buna imkan verməz. Türk xalqı imperiyalar qurub, cümhuriyyət yaradıb. Onun gücü böyükdür. Sadəcə, Türkiyənin bu həssas və təlatümlü dövrdə dövlət kimi qala bilməsi lazımdır. Sonrakı illərdə hər şey öz yoluna düşəcək. Qardaş ölkənin çevrəsində, yaxınlığındakı qonşu dövlətlərdə baş verənlər çox təhlükəlidir. Türkiyəni Yaxın Şərqdə baş verən dəhşətli oyunlardan qorumaq üçün Ərdoğan kimi güclü bir liderə ehtiyac var. Demokratik proseslər 10-15 il ləngisə, qorxusu yoxdur, amma Türkiyə Cümhuriyyətinin parçalanması, bölünməsi geriyədönməz hal ala bilər. Bu aqibətdən yayınmaq lazım".


Azər Ayxan


Bəxtiyar Sadıqov


Elxan Şahinoğlu

**Avropa.info saytının rəhbəri Ruslan Bəşirli də heç şübhə etmədən “evet” dediyini bildirdi:** “Heç şübhə etmədən "evet" deyərdim. Bunun səbəbləri çoxdur. Bəziləri Türkiyədəki referendumda "evet" demənin qardaş ölkədə avtoritar rejim qurulması ilə nəticələnəcəyini hesab edirlər. Mən düşünürəm ki, bu düşüncə tərzi yanlışdır. Referendumdan “evet” çıxacağı təqdirdə yalnız icra hakimiyyətində idarəetmə bir şəxsin əlində cəmləşəcək. Bu vaxta kimi Türkiyədə icra hakimiyyətində ikili hakimiyyət mövcud idi və bu bir çox problemlərlə müşahidə olunurdu. Türkiyənin tarixinə nəzər yetirdikdə, hətta Mustafa Kamal Atatürklə İsmət İnönü yaxın dost olmalarına baxmayaraq, biri prezident, biri baş nazir olduqdan sonra idarəetmədə fəsadlar yaşandı. Çünki ikili hakimiyyət mövcud idi. Eyni zamanda yaxın tarixdə biz Cəlal Bayar-İsmət İnönü, Cəlal Bayar-Adnan Menderes, Əhməd Nejdət Sezər-Ecevit qarşıdurmalarına da şahid olmuşuq. Bu, ikili hakimiyyətin problemləri idi və Türkiyəni geri aparırdı. Hakimiyyət böhranları eyni zamanda iqtisadi inkişafa da mane olurdu. Lakin hakimiyyət təkcə icra hakimiyyəti ilə yekunlaşmır. Qanunverici hakimiyyət və məhkəmə hakimiyyəti də mövcuddur. Qanunverici hakimiyyətin və məhkəmə hakimiyyətinin mövqeləri yeni düzəlişlə daha da möhkəmlənəcək, Türkiyədə hakimiyyət böhranları geridə qalacaq və bu da qardaş ölkənin inkişafına səbəb olacaq".

**Politoloq Elxan Şahinoğlu isə qısa cavabla “Mən parlamentarizmin tərəfdarıyam”, - deyə bildirdi.**

**AĞ Partiyanın rəhbəri Tural Abbaslı da “evet” tərəfdarlarındandır:** “Bu məsələdə həm mənim, həm də AĞ Partiyanın mövqeyi birmənalıdır. Biz güclü Türkiyə və güclü Azərbaycan üçün "evet" tərəfdarıyıq. Yəni heç düşünmədən “evet” deyərdim".

❑ Xalidə GƏRAY

# Sabiq nazirdən turizmin inkişafı üçün təkliflər

## Fikrət Yusifov: “Hədəf yaxın bir neçə ildə Azərbaycana gələn turistlərin sayını 8-10 milyon nəfərə çatdırmaq olmalıdır”

**Statistik rəqəmlər son zamanlar ölkəmizə xaricdən turist axınının artdığını göstərir. 2016-cı ilin ilk üç ayı ilə müqayisədə bu ilin analoji dövründə ölkəmizə gələn xarici turistlərin sayında 24,9 faiz artım olub. Belə ki, 2017-ci ilin ilk üç ayı ərzində Azərbaycana 544 min xarici turist gəlib. Təkcə Novruz bayramı ərəfəsində İrandan ölkəmizə gələn turistlərin sayı 65 min nəfərə yaxın olub. 2016-cı ildə Azərbaycana gələn xarici turistlərin statistikası da ciddi irəliləyişdən xəbər verir. Ölkəmizdə reallaşan beynəlxalq mədəni tədbirlər də turizmin inkişafına müəyyən töhfələr verir.**

Lakin turizmdə ciddi irəliləyişə ölkə prezidentinin atdığı bir sıra mühüm addımlar əsas səbəbdir. Məsələn, “Asan viza” sisteminə keçid barədə prezident İlham Əliyevin verdiyi qərarın turizmin inkişafına ciddi təkan verdiyini əminliklə söyləmək olar. Üç ay ərzində “ASAN viza” xətti ilə 40 min viza verilib. Bu sistem Azərbaycana viza ilə gələnlərə şamil olunur. Səksəndən çox ölkənin vətəndaşı elektron viza alır.

Ekspertlər hesab edir ki, turizmin daha da çiçəklənməsi üçün müvafiq hökumət qurumlarının, turizm obyektlərinin də işində ciddi fəallaşmalarına ehtiyac var. Turizmin getdikcə inkişafı Azərbaycanın maliyyə imkanlarına ciddi qatqı ola bilər.

**Sabiq maliyyə naziri, iqtisadçı professor Fikrət Yusifov “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, bu gün dünya üzrə Ümumi Daxili Məhsulun strukturunda turizmin payı orta hesabla 10% səviyyəsindədir. Azərbaycanda isə bu rəqəm hələlik ümumdünya göstəricisindən aşağıdır. Qonşu Gürcüstanın ÜDM-də turizmin payı təxminən 8% ətrafındadır. ÜDM-də turizmin payını optimal bir həddə qədər artırmaq üçün bizdə bütün imkanlar mövcuddur. Hökumət də məhz bunu nəzərə alaraq son illər ərzində ölkədə turizmin inkişafını hədəfləyən bir sıra layihələrin həyata keçirilməsinə rəvac verib:** “Ölkə başçısının 2016-cı ildə turizmin inkişafı ilə bağlı imzaladığı bir neçə sərəncamla Azərbaycanda turizmin inkişafında yeni mərhələnin başlanğıcı qoyuldu. 2016-cı ildə müasir tələblərə cavab verən turizm sənayesinin formalaşdırılması və onun ölkə iqtisadiyyatındakı rolunun daha da artırılması məqsədilə Azərbaycan Respublikasının Turizm Şurası yaradıldı. Şuranın əsas vəzifələrindən biri ölkə daxilində turizm sahəsinə aid olan bütün işlərin maksimum əlaqələndirilməsini təmin etməkdən ibarətdir. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsinin qəbulu isə bu sahənin yaxın, orta və uzaq perspektivdə inkişaf konturlarını müəyyən etdi. İndi bu sahədə ən böyük hədəf yaxın bir neçə ildə Azərbaycana gələn turistlərin sayını 8-10 milyon nəfərə çatdırmaq olmalıdır”.


Fikrət Yusifov

**Sabiq nazir qeyd etdi ki, son illər Azərbaycana gələn turistlərin sayı sürətlə artır. Biz bu artım templərinə görə hazırda bütün dünyada liderlik mövqeyinə çıxa bilmişik. Bu çox yaxşı haldır. Lakin unutmayaq ki, Azərbaycana turist axınının bu şəkildə çoxalmasında regionda baş verən hadisələrin də rolu var:** “Son illər ənənəvi turizm ölkələrində yaranmış qeyri-sabit və təhlükəli vəziyyət səbəbindən bir çox turistlər istirahət üçün məhz ictimai-siyasi sabitliyin mövcud olduğu Azərbaycanı seçməyə üstünlük verirlər ki, bu da tam başa düşüləndir. İnsanlar seçim edərkən ilk növbədə təhlükəsiz şəraitdə istirahət etmək istəyirlər. Təhlükəsizlik məsələlərinin yüksək səviyyədə olması turizmin inkişafında əsas şərtlərdən biri olsa da turizmdə qazanılan uğurların kökündə düzgün qiymət siyasəti və xidmətin keyfiyyəti dayanır. Bu səbəbdən də bizim turizm sektoru bu iki məsələni öz fəaliyyətinin əsasına qoymağı bacarmalıdır”.

F.Yusifov vurğuladı ki, ölkəyə turistlərin gəliş-gedişinin daha da asanlaşdırılmasını nəzərdə tutan viza rejiminin sadələşməsi və turistlərin burada etdikləri alış-veriş məbləğindən tutulmuş əlavə dəyər vergisinin geri qaytarılması kimi addımlar da turizmin inkişafında stimullaşdırıcı bir addım kimi dəyərləndirilməlidir.

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 76 (6690) 13 aprel 2017

**Aprelin 4-də Bəşər Əsəd rejiminin Suriyanın şərqində yerləşən İdlib vilayətində terrorçulara qarşı mübarizə adı altında kimyəvi silahdan istifadə etməsi və nəticədə sıralarında uşaqlar da olan 100-ə yaxın insanın həlak olması ABŞ-ın Bəşər Əsədlə bağlı son zamanlar yumşalmağa başlayan münasibətini daha da sərtləşdirmiş oldu. Kimyəvi silah məsələsi yeni prezident Donald Trampın mövqeyini 180 dərəcə dəyişdi və indi o, Əsədi "heyvan" adlandırır və hakimiyyətdən uzaqlaşdırılıb cəzalandırılmasının vacibliyini bəyan edir.**

# Trampın "üzünü döndürən" kimyəvi silah nədir?

## Bu silahın tarixi, tətbiqi, təsirləri, Ermənistanda olub-olmaması barədə faktlar...



Bəs kimyəvi silah nədir ki, onun tətbiqi "qırmızı xətt"in keçilməsi hesab edilir?

Kimyəvi silah kütləvi qırğın silahlarından biri olub, zəhərləyici maddələrə və onları tətbiq etmək üçün istifadə olunan vasitələrə deyilir. Zəhərləyici maddələr (ZM), əhalinin əmək və qoşunların döyüş qabiliyyətinin zəifləməsinə, bəzi hallarda isə bütün canlıların məhvinə səbəb ola bilən xüsusi kimyəvi birləşmələrdən ibarətdir.

Zəhərləyici maddələr zəhərlənmiş hava ilə nəfəs aldıqda, dəri üzərinə və selikli qişaya düşdükdə, həmçinin zəhərlənmiş yeyinti məhsullarından və sudan istifadə etdikdə canlıları zəhərləyir. Kimyəvi silah təyyarə bombalarında, top mərmilərində, mayesi tökülə bilən təyyarə cihazlarında və müxtəlif tərtibatlarda, ərazini zəhərləmək üçün damcı-maye halında, insanları zəhərləmək üçün buxar və aerozol (tüstü, duman) şəklində tətbiq edilə bilər. Ərazinin və ya obyektin zəhərlənmə dərəcəsi oraya düşən ZM-in miqdarından asılıdır və ZM-in qramlarla miqdarının 1kv.m səthə nisbəti ilə ifadə olunan zəhərlənmə sıxlığı ilə müəyyən edilir.

Kimyəvi silah tətbiq olunan rayonlarda kimyəvi zəhərlənmə ocağı yaranır. Kimyəvi zəhərlənmə ocağı o əraziyə deyilir ki, kimyəvi silahın və ya güclü təsirli zəhərləyici maddələrin təsiri nəticəsində orada əhalinin, heyvanların və bitkilərin zədələnməsi baş verir. Kimyəvi zəhərlənmə ocağı iki zonaya-ZM ilə bilavasitə zəhərlənən əsas zonaya və ZM-n buxar aerozolları yayılan ikinci zonaya bölünür. ZM-in dayanıqlığı, yəni insanlara və heyvanlara göstərdiyi zədələyici təsirin müddəti, həmin ZM-in fiziki-kimyəvi xassələrindən, həmçinin ərazinin xarakterindən və havadan asılıdır. Havanın temperaturu yüksək olduqca ZM daha tez buxarlanır. Güclü külək buxarı səpələyir, yağış isə ZM-i torpaqdan, bitkilərdən və müxtəlif əşyalardan yuyub aparır. Binalarda, zirzəmilərdə, yarğanlarda və dərələrdə zəhərlənmiş hava uzun müddət qala bilər. Kimyəvi silahdan mühafizə olunmaq üçün əleyhqazdan, xüsusi paltardan və ya hermetik bağlanmış sığınacaqlardan istifadə edilir.

Kimyəvi silahların əsas xüsusiyyətləri maddi sərvətlərə zərər vurmadan canlı qüvvələri məhv etmək, geniş sahələri zəhərləmək və zədələyici təsirini uzun müddət saxlama qabiliyyəti, zəhərlənmənin ani baş verməsi və nəticələrinin ağırlığı, istehsalının nisbətən ucuz başa gəlməsi və s.

Kimyəvi silahları toksikoloji təsnifata görə isə sinir iflicedici ZM, ümumzəhərləyici maddələr, dəridə yara əmələ gətirən ZM, boğucu ZM, qıcıqlandırıcı ZM, psixokimyəvi ZM, göz yaşardıcı ZM qruplarına ayrılır.

Sinir qazları: Sinir sisteminə təsir etdikdən sonra qısa müddətdə ölümə səbəb olur. Sarin, Tabun, Soman, VX. Hitlerin təlimatı ilə 1936-1944-cı illər arasında hazırlanıb. Yaponiyada bir təriqətin Tokio metrosuna hücumunda Sarin qazından istifadə edilmişdi.Qıcıqlandırıcı və korroziyaedici qazların tətbiqindən gözlər, dəri və tənəffüs yolu toxumaları ilk zərər çəkən bölgələrdir. Öldürücü olmasa da, səhhətdə əhəmiyyətli dərəcədə problemlər yarada bilir. Boğucu qazlar tənəffüs yollarını ağır şəkildə korlayıb, ağciyər xərçənginə səbəb olur.

Qan zəhərləri öldürücüdür. Sianid, Sian-xlorid adlanan bu kimyəvi silahdan Hitlerin xüsusi qaz otaqlarında da istifadə edilib.

Kimyəvi silahlar sırasında bitkiöldürücü aerezollar da mövcuddur. Onun tətbiqi bitkiləri öldürür, ya da torpağı zəhərləyir. Vyetnamda ABŞ bu növ aerezollardan meşələrdə yarpaq örtüyünün sıradan çıxması üçün istifadə edib.

### Kimyəvi silahdan nə zamandan istifadə edilir və istifadə nə vaxtdan qadağandır?

Hələ Qədim Yunanıstanda primitiv kimyəvi silahlardan köməkçi vasitə kimi istifadə edilirdi, lakin sənaye miqyasında onu ilk dəfə Birinci Dünya müharibəsində tətbiq etməyə başlayıblar, amma məhvedici qüvvəsinə baxmayaraq kimyəvi silah aşağı səmərəlilik göstərdi. Kimyəvi və bioloji silahların, zəhərli qazların müharibələr zamanı istifadəsinə maneə yaratmaq üçün 1925-ci ildə Cenevrə protokolu imzalanıb. Bu protokol bioloji silahların müharibədə istifadəsini qadağan etməklə bərabər, araşdırılmasına, istehsalına və toplanmasına maneə törədir. Protokolu imzalayan ölkələrdən bəziləri işlərini davam etdirir, Yaponiya və ABŞ isə protokolu imzalamayıb.1972-ci ildə beynəlxalq səviyyədə bioloji və zəhərli silahların inkişaf etdirilməsini, istehsalını, saxlanılmasını, toplanmasını və başqa ölkələrə transferini qadağan edən müqavilə mətni hazırlanmışdı. 1972-ci il protokolu 143 ölkə tərəfindən imzalanmış, 18 ölkə sonradan qatılmış və 1975-ci ildə qüvvəyə minmişdi.

Lakin 1925-ci il "Cenevrə protokolu" ciddi nəticə verməyib və II Dünya müharibəsi zamanı Hitler Almaniyası və Yaponiya inadla müdafiə olunan partizanların gizləndikləri istehkamların təmizlənməsində kimyəvi silahı tətbiq ediblər. Kimyəvi silahdan daha sonrakı vaxtlarda da istifadə ediblər. Onu Vyetnam müharibəsi (1964-1973) zamanı hər iki tərəf istifadə edib. Eləcə də İran-İraq (1980-1988) müharibəsi zamanı da istifadə olunub. Səddam Hüseynin Hələbcədə kürdlərə qarşı kimyəvi silah tətbiq etməsi nəticəsində 3 min insan həyatını itirib.

13 yanvar 1993-cü ildə Parisdə 160 dövlətin iştirakı ilə "Kimyəvi silahların qadağan olunması" haqda Konvensiya imzalanıb. Konvensiya 1997-ci ildən qüvvəyə minib. Azərbaycanda isə Konvensiya 2000-ci ilin 30 martından qüvvəyə minib. Suriya Konvensiyaya 2013-cü ildə qoşulsa da, üzərinə götürdüyü öhdəliyi pozaraq, kütləvi qırğın silahını tətbiq edib.

Konvensiyaya görə, kimyəvi silah tətbiqi onun tətbiqi barədə əmr verənin və onu tətbiq edən ölkənin Beynəlxalq Haaqa Hərbi Tribunalı qarşısında cavab verməsi tələb edilir. Kimyəvi silahın tam məhvi 2017-2019-cu illərdə gözlənillir.

### Ermənistan kimyəvi silaha sahibdir?

Azərbaycan Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyi tərəfindən Tərtər rayonunun Əskipara kəndində Ermənistan Silahlı Qüvvələri tərəfindən fosfor təyinatlı silahın istifadə olunması müəyyən edilib. Bu fakt ermənilərin kimyəvi silahdan istifadə etdiyini bir daha təsdiqləyib. Ağ fosforun 0,05 qramı yetərlidir ki, insanı öldürsün. Bu kimyəvi silah insan orqanizminə daxil olan kimi tez həll olur. Mədə-bağırsaq sisteminin fəaliyyətini dərhal sıradan çıxarır, ürək sisteminin fəaliyyətinə güclü təsir edir və insanda halsızlıq, tənginəfəslik yaradır. Bu, təkcə fosfor məzmunlu bombaların tüstüsünün insanlara etdiyi təsirdir.

Kimyəvi tərkibli ağ fosforlu hərbi sursat kimyəvi silah hesab edilir və beynəlxalq konvensiyalara görə qadağan olunub. Hərbi ekspert Üzeyir Cəfərovun sözlərinə görə, işğalçı Ermənistanın başqa növ kimyəvi silah növlərinə malik olması da istisna deyil. Keçmiş SSRİ-nin kimyəvi silah istehsalında öndə gedən ölkə olduğunu xatırladan hərbi ekspert hesab edir ki, Ermənistanda SSRİ-dən qalma kimyəvi silahların olması ehtimalı yüksəkdir. Metsamor Atom Elektrik Stansiyası kimyəvi silah olmasa da, onun regiona yaratdığı və vəd etdiyi təhlükə kimyəvi silah təhlükəsindən daha ağırdır. Beynəlxalq birlik və regiona ölkələri bu məsələyə görə Ermənistanın üzərinə getməlidir.

❑ **Etibar SEYİDAĞA**



# Azərbaycan müxalifəti Putinə inanırmı...

## Müxalifət liderləri keçmişi unutmur

**Rusiyanın tanınmış teleaparıcısı Vladimir Solovyev Vesti.FM-in canlı efirində bir neçə gün öncəki Bakı səfəri və prezident İlham Əliyevlə iki saatlıq görüşündən danışarkən Rusiya ilə Azərbaycan arasında partnyorluq münasibətlərinə də toxunub: "Mən dedim ki, Rusiya Azərbaycanı heç vaxt satmaz, İlham Əliyev etiraz etdi, dedi ki, "Putin heç vaxt satmaz". Və mənim etiraz etməyə sözüm yoxdur".**

Azərbaycanın birinci şəxsi Rusiyanın birinci şəxsinə inandığını bu şəkildə ortaya qoyub. Bəs Azərbaycanın müxalifət partiyalarının birinci şəxsləri necə, onlar Vladimir Putinə, onun-Rusiyanın Azərbaycanı nə vaxtsa satacağına inanır, yoxsa inanmır?

**Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn** bildirdi ki, Rusiyanın rəhbərinin kim olmasından asılı olmayaraq, Rusiyanın dövlət maraqları, dövlət siyasəti var: "Bu maraqlara və siyasətə uyğun olaraq istənilən addımı Rusiya həmişə atıb. Bundan sonra da atacağı bəllidir. Ona görə də istənilən dövlətlə, istənilən dövlət liderləri ilə münasibətlərdə Azərbaycanın maraq və mənafelərini öndə tutub, bu maraqları maksimum qorumağa çalışmaq lazımdır".

**Ümid Partiyasının sədri İqbal Ağazadə isə dedi ki, satmaq və ya satmamaq məsələsini şəxsi sədaqət, dostluğun nə dərəcədə səmimi olub-olmaması müəyyən edir:** "İlham Əliyevlə Vladimir Putinin şəxsi dostluğunun nə dərəcədə davamlı olduğunu mən xarakterizə edə bilmərəm. İlham Əliyev-Vladimir Putin münasibətlərində nə qədər sədaqətli olduqlarını və bir-birinə qarşı mövqeyində, rəhbərlik etdikləri ölkələrə münasibətdə nə qədər sistemli, ardıcıl, sədaqətli olacaqlarını onların özləri dəqiq bilirlər. Lakin başlıca olaraq Putin yox, Rusiya prezidenti Azərbaycanı satarmı şəklində suala gəldikdə, Rusiya hər zaman Azərbaycanı öz maraqları üçün satıb, bundan sonra satacaq. Rusiya hər bir dövlətə qarşı onu öz maraqlarına tabe etdirmək üçün istənilən zaman istənilən addımı atar. Əgər tarixə fikri versək, SSRİ dönəmində bizim büdcəyə verdiklərimiz, İkinci Dünya müharibəsində Rusiyanın yanında olmağımız və rolumuz, ondan sonrakı dönəmdə iqtisadiyyata verdiyimiz pay və digər məqamları nəzərə alsaq, Rusiya bizim yanımızda olmalı idi, Ermənistanın yanında olmamalı idi. Amma fakt budur ki, Ermənistanın yanında oldu. Deməli, on illər boyu bütün etdiklərimizə rəğmən Rusiya bizi satdı. Ona görə deyirəm ki, Rusiyanın dövlət marağı tələb etdiyi vaxtda nəinki Azərbaycanı, hətta ərazisində yaşayan qeyri-rusları da sata bilər. Amma yenə deyirəm, Putinin satmağına gəlincə, bu, sədaqət məsələsidir. Buna isə mən qiymət verə bilmərəm".

**ADP sədri Sərdar Cəlaloğlu qeyd etdi ki, Solovyevin dediyindən də bəlli olur ki, İlham Əliyev Rusiyaya yox, Putinə inandığını dolayısı ilə ortaya qoyub:** "Tarixdə acı təcrübələr var ki, Rusiya öz maraqlarına görə müttəfiqlərini satıb. Həmişə belə olub. Ona görə də mən Rusiyanın Azərbaycanı heç vaxt satmayacağına inanmıram. İstər 1-ci Pyotrın, istər çar Nikolayın, istər Vladimir Leninin, istər Boris Yeltsinin vaxtında Rusiyanın Azərbaycanla bağlı siyasətində dəyişiklik olmayıb. Həmişə çalışılıb ki, Azərbaycan istismar və işğal olunsun. Pyotrun apardığı siyasəti Lenin davam etdirib, Leninin apardığı siyasəti isə indi Putin davam etdirir".

❑ **Etibar SEYİDAĞA**



# Niyə getdikcə daha çox şərqli oluruq?..

Hüseynbala SƏLİMOV

**NATO-nun tədbirlərinin qonşu Gürcüstanda keçirilməsi bizim üçün o qədər adi hal olub ki, bu və digər tədbirin anonsu veriləndə artıq bunu bir qədər etinasızlıqla qarşılayırıq.**

Amma sizləri deyə bilmirəm, şəxsən bəndəniz üçün NATO-nun baş katibinin Tiflisə səfər edəcəyi haqda xəbər, üstəlik Alyansın Parlament Assambleyasının toplantısının bu şəhərdə keçiriləcəyi haqda məlumat elə də sıradan bir olay olmadı.

Məsələ bundadır ki, NATO-nun Parlament Assambleyasının toplantıları bir qayda olaraq üzv dövlətlərdə keçirilir. Gürcüstan isə hələ üzv dövlət deyil və bu o deməkdir ki, NATO onu özünün, necə deyər, qeyri-rəsmi üzvü hesab edir...

Bunları sizə niyə deyirəm? Keçmiş sovet ölkələrinin geosiyasi oriyentasiyası məni həmişə çox düşündürüb. Vaxtaşırı Azərbaycanın bu xüsusdakı seçimini, rəsmi Bakının "balanslaşdırma siyasəti"ni, onun hərbi-siyasi bloklara qoşulmamaq strategiyasını özüm üçün bir növ təftiş edirəm.

Demirəm ki, bu illər ərzində aparılan siyasət səhv olub və nəticəsiz qalıb. Yox, müəyyən dividentlər var, hərçənd ki, bu dividentlər böyük hesabla hakimiyyətin aktivinə yazılır. Olsun. Əgər hakimiyyət öz maraqları ilə milli təhlükəsizlik siyasət arasında bir uzlaşma yarda bilirsə, bunu da normal qəbul etmək olar.

Üstəlik, belə bir detala da diqqət yetirmək olar ki, Gürcüstan faktiki olaraq Abxaziyanı və Cənubi Osetiyanı itirib. Bu separatçı rejimlər artıq Rusiyaya birləşmək haqda referendum keçirmək barədə düşünür və vəziyyət heç də ürəkaçan deyil. Amma biz də Qarabağı qaytarmamışıq və bilmək olmur ki, "balanslaşdırma siyasəti"ndən kim daha çox fayda götürür - Azərbaycan, yoxsa onun hakimiyyəti?

Bir məsələ də məni çox düşündürür. Əgər bilsəydim ki, bizim hakimiyyəti Qərbə qarşı soyuq münasibət bəsləməyə yalnız Rusiyanın mümkün təhdidləri vadar edir, daha az narahatlıq keçirərdim.

Amma gözəl bilirəm ki, belə deyildir. Ön planda hakimiyyətin öz maraqları və bir də ölkəni öz bildikləri kimi idarə etmək istəyidir. Qərb daim Azərbaycan hakimiyyətindən müəyyən iqtisadi və siyasi islahatlar tələb edir. Hakimiyyətimiz isə bundan xoşlanmır. Qərbə qarşı soyuq və bir az da kinli münasibətin səbəbi budur. Ən əsas da odur ki, getdikcə bu soyuqluq və kin artır. Biz despotik Şərq ölkələrinə qapıları daha geniş açırıq, Qərbə tərəf nəfəsliyisə isə qapayırıq...

Həm də bir "harada olmaq" problemi var. Düzdür, artıq 80-ci illərin sonu, 90-cı illərin əvvəli deyil. Daha əvvəllər olduğu kimi indi partiyalar və siyasi fəallar platformaların preambulasında Qərbə və NATO-ya inteqrasiyanı önə çəkmirlər, daha əvvəlki eyforik münasibət yoxdur və bunun bir səbəbi də odur ki, Qərb və NATO keçmiş sovet ölkələrinin bir qismini hələ öz sıralarına tam hüquqlu üzv kimi qatmaq istəmir.

Amma israrlı siyasət yürüdülərsə böyük ehtimalla bunun gec-tez nəticəsi olacaq. Düzdür, bunu bir az gözləmək lazım gələcək, amma sonda müəyyən dividentlər tamam real görünür. Üstəlik, inteqrasiya və əməkdaşlıq bir sıra islahatların həyata keçirilməsini tələb edir ki, onların da böyük faydası var.

Amma nə etmək olar? Şanlı hakimiyyətimiz bizi tamam fərqli bir istiqamətə çəkir, biz getdikcə daha çox Şərq ölkəsinə çevrilməkdəyik və belə vəziyyət qətiyyən ürəyimizi açmır, çünki bir daha deyirik ki, Qərblə ardıcıl inteqrasiya kursunun saxlanılması ölkədə demokratiyanın və azadlığın təminatıdır. Belə hal cəmiyyəti elə də fəal olmayan və siyasi islahatlara barmaqarası baxan Azərbaycan üçün xüsusilə önəmlidir... Hakimiyyəti də qorxudan budur. Onlar da bilirlər ki, Qərb demokratiya və azadlıq deməkdir, şanlı hakimiyyətimiz isə bunları öz cəmiyyətinə çox görür...

Bilmirəm, bəlkə bizim azərbaycanlıların da çoxu Şərqə qarşı daha meyllidir? Axı "Əli və Nino" romanının baş qəhrəmanı çoxunda böyük simpatiya doğurur! Amma tarix də var. Biz azərbaycanlılar həmişə Qərb dəyərlərinə həssas olmuşuq. Düzdür, bunda Rusiya ilə təmaslarımız da az rol oynamayıb ki, bunu da etiraf etmək lazımdır. Rusiya vasitəsilə vaxtilə Qərb mədəniyyətinə çıxış əldə etdik. Artıq buna ehtiyac yoxdur, Rusiyanın yardımı olmadan da keçinə bilərik, çünki Qərb öz mədəniyyət qapılarını çoxdan bizə açıb. Nə edək? Həmin qapıları bağlayaqmı?..

# "50 min manata öyrəşmişdim, bu dəfə 100 min istədilər"

## "MTN çetesi"nin məhkəməsi davam edir; "Dedilər ki, gərək pul yazdırasan, MTN-ə kömək etməlisən"



Sübahir Qurbanov



Füzuli Əliyev

**Sabunçu Rayon Məhkəməsinin binasında Bakı Şəhər Hərbi Məhkəməsinin icraatında olan MTN-in sabiq baş idarə və idarə rəisləri Sübahir Qurbanov, Teymur Quliyev, Natəvan Mürvətova, həmin qurumun vəzifəli şəxsləri Füzuli Əliyev, Zaur Məmmədov, Natiq Alıyev, Fərhad Atayev, Anar Şirəliyev, Eşqin Əliyev, Elşad Əzizovun barəsində olan cinayət işi üzrə məhkəmə prosesi davam edir.**

Aprelin 12-də keçirilən iclasda beş zərərçəkmiş və iki şahid məhkəmə qarşısında ifadə verdi.

Zərərçəkmiş Ələddin İbadov ifadəsində bildirdi ki, "Nur Avto" MMC-nin direktorudur və vaxtilə avtomobil ehtiyatlarının təchizatı ilə məşğul olub. Ə.İbadovun sözlərinə görə, 2014-cü ilin dekabr ayında MTN-ə dəvət olunub və təqsirləndirilənlər Füzuli Əliyevlə Natiq Alıyevin müşayiəti ilə nazirliyin həyətindəki "Sultan" kafesinə aparılıb. Burada MTN əməkdaşları ondan 100 min manat ödənilməsini tələb ediblər.

"Məndən çox yerdən çox pul istəyiblər, sahibkar adamam. Hər dəfə də 50 min manat vermişəm və bu məbləğə öyrəşmişəm, amma bu dəfə tələb olunan məbləğ bir az çox oldu", - zərərçəkmiş deyib.

**Dövlət ittihamçısının "Bu pulu sizdən nəyə görə istədilər" sualına zərərçəkmiş belə cavab verdi:** "Dedilər ki, gərək pul yazdırasan, MTN-ə kömək etməlisən. İndiyə qədər niyə gəlməmisən?"

**Ə.İbadov ertəsi gün 127 min dollar xırdalayaraq, 100 min manat pulu gətirib MTN əməkdaşı Natiq Alıyevə verdiyini deyib. "Bu pulu kimdən və hansı müddətdə topladınız?" - prokurorun bu sualına zərərçəkmiş cavab verdi:** "Nə pul idi ki? Elə iki adamdan verdiyim malın pulunu aldım, gətirib verdim".

Vəkil Adil İsmayılovun zərərçəkmişə verdiyi suallardan və izahatdan məlum oldu ki, Ələddin İbadovun pulu verdiyini iddia etdiyi gün və vaxt, mobil operatorlardan alınmış arayışlara görə, təqsirləndirilən Natiq Aliyev, ümumiyyətlə, MTN ərazisində olmayıb. Bu məsələyə aydınlıq gətirən təqsirləndirilən Füzuli Əliyev əlavə etdi ki, həmin gün o özü də MTN-də işə gəlməyib və tamamilə başqa ərazidə olub. O, dediklərinin mobil operatorların verdiyi arayışla da təsdiqləndiyini dedi.

**Daha sonra Füzuli Əliyev söz alaraq zərərçəkmişə müraciət etdi:** "Vergilər Nazirliyi verdiyimiz sorğuya cavab olaraq bildirib ki, Ələddin İbadov adlı şəxs vergi ödəyicisi deyil və sahibkarlıq fəaliyyəti ilə məşğul olmayıb. Bunu necə izah edə bilərsiniz?"

Bu suala cavab olaraq zərərçəkmiş dedi ki, növbəti iclasa ödədiyi vergilər barədə arayışları gətirə bilər.

### Milandan gətirilən qızıl və iddiasız zərərçəkmiş

Zərərçəkmiş Yəhya Hüseynov ifadəsində bildirdi ki, 2014-cü ilin may ayında İtaliyadan qızıl-zinət əşyaları gətirdiyi vaxt hava limanında MTN əməkdaşları tərəfindən saxlanılıb.

Y.Hüseynov qeyd edib ki, təqsirləndirilən Füzuli Əliyevlə birlikdə MTN-ə gedib və bir müddətdən sonra sərbəst buraxılıb. Zərərçəkmiş təqsirləndirilənlərə qarşı heç bir iddiasının olmadığını əlavə etdi.

**Vəkil Adil İsmayılov zərərçəkmişə sual verib:** "Cinayət işinin materiallarında yazılır ki, MTN-də sizi qızıl əşyalarının qaçaqmalçılığında ittiham ediblər. Belə bir hal olub?"

"Xeyr, məni heç bir qeyri-qanuni əməldə ittiham etməyiblər, belə bir hal olmayıb", - Yəhya Hüseynov bildirib.

Zərərçəkmiş Zaur Abiyev ifadəsində bildirib ki, "Elnur-2" şirkətində direktor vəzifəsində çalışır. 2013-cü ilin dekabr ayının 19-da digər zərərçəkmiş Elton Cəfərli ilə birlikdə "Texnikabank"ın "Proqress" filialından 620 min manat pul götürüb çıxarkən MTN əməkdaşları tərəfindən saxlanılıblar.

Z.Abıyev əlavə edib ki, onları pul torbası ilə birlikdə MTN-ə aparıblar və bir müddət saxladıqdan sonra sərbəst buraxıblar. Zərərçəkmiş sərbəst buraxılarkən pulun üstündən 200 min manat məbləğin əskik olduğunu öyrənib.

Vəkillərin zərərçəkmişlə sorğu-sualından məlum oldu ki, "Elnur-2" şirkəti təmir-tikinti işləri ilə məşğul olur və müxtəlif tenderlərdə qalib gələrək müəyyən işləri görüb. Bu hadisələr baş verən vaxt Saatlı Olimpiya kompleksinin tikintisini həyata keçiriblər. Belə ki, "İntensiv-Servis" şirkətinin yerinə yetirdiyi işlər üçün "Elnur-2"nin təsisçisi öz vəsaiti hesabına tikinti materialları alıb, sonradan hesaba gələn pullar təchizatçıların hesablarına və əməkdaşların əməkhaqlarına xərclənib.

Vəkil Adil İsmayılov bildirdi ki, həmin gün bu bankda Zaur Abıyevin adına nağd pul verilməyib və həmin hesabda olan vəsait tamamilə başqa insanın adında olub. Bir qədər irəli gedərək qeyd edək ki, müdafiəçinin bu iddiası başqa şahid ifadələrində özünü doğrultdu.

Bu epizod üzrə ifadə verən digər zərərçəkmiş Elton Cəfərli "Elnur-2" şirkətində memar işlədiyini və həmin gün, sadəcə olaraq, avtomobili idarə etdiyini bildirib. Puldan xəbəri olmadığını deyib.

"Elnur-2" şirkətinin mühasibi Xuraman Əliyevanın şahid qismində verdiyi ifadə isə bəzi mətləblərə aydınlıq gətirdi.

Onun sözlərinə görə, həmin gün Zaur Abıyev banka gedərək, hesabda olan 620 min manat pulu təchizatçıların hesablarına köçürməli idi və nağd pulun bankdan çıxarılması ilə bağlı göstəriş olmayıb. Şahid əlavə edib ki, sözügedən gün şirkətin ofisinə 3 nəfər MTN əməkdaşı gəlib və o zamankı direktor Əlizadə Abduləliyevlə görüşüblər. Mühasib şirkətdə 40-50 nəfər əməkdaşın çalışdığını sözlərinə əlavə etdi.

Şahid Əlizadə Abduləliyev ifadəsində dedi ki, orta təhsilli olmasına baxmayaraq, 2005-ci ildən 2015-ci ilədək "Elnur-2" şirkətində direktor vəzifəsində çalışıb. Onun sözlərinə görə, şirkətdə 100 nəfərə yaxın əməkdaş işləyib və əməkhaqqı alıb. Yeri gəlmişkən, vəkil Adil İsmayılov sonradan sənədlərlə göstərdi ki, şirkətdə fəhlə kimi qeydiyyatda olan şəxslərin aylıq maaşı 90 manata bərabər olub. Ən yüksək maaş alan direktorun aylıq məvacibi isə 450 manat imiş.

Əlizadə Abduəliyevin sözlərinə görə, ofisə gələn MTN əməkdaşları arasında Zaur Məmmədovu xatırlayır və təqsirləndirilən vəsiqəsini göstərərək, özünü təqdim də edib.

Maraqlıdır ki, zərərçəkmiş Zaur Abiyev də iddia edir ki, həmin saatlarda MTN-də saxlanılıb və nazirlikdə olduğu bütün vaxt ərzində təqsirləndirilən Zaur Məmmədov onunla bir otaqda olub. İfadələrdəki bu uyğunsuzluğu "Elnur-2" şirkətinin əməkdaşları izah edə bilmədilər.

### "Mən 191 min 800 manat pulumu tələb edirəm"

Zərərçəkmiş Gündüz Əliyev məhkəmədə ifadə verərək bildirdi ki, Sumqayıtda mebel sexi var və fiziki şəxs kimi mebel istehsalı və mebel sexinin daxilindəki tikiş sexində uniformaların hazırlanması ilə məşğul olub.

G.Əliyev digər zərərçəkmiş Arif Kərimovun vasitəsilə tender qaliblərindən subpodrat sifarişlərini qəbul etdiyini və bunun müqabilində qazanılan pullardan 3%-ni vasitəçi kimi A.Kərimova ödədiyini deyib.

**2015-ci ildə yerinə yetirilmiş bir işin ödənişi kimi 191 min 800 manat məbləğdə pulu "Buta" çay evində Arif Kərimovdan aldığını deyən zərərçəkmiş sözlərinə davam edib:** "Kafedən çıxmaq istəyərkən bizə 3-4 nəfər yaxınlaşıb MTN-ə getmək lazım olduğunu bildirdilər. Mən Füzuli Əliyevlə bir maşında Bakıya - MTN-in binasına getdim. Orada bir müddət saxlanıldıqdan sonra pulumu əlimdən alıb, özümü sərbəst buraxdılar. İndi mən həmin 191 min 800 manat pulumu tələb edirəm. Məni talayıblar".

Vəkillərin sorğu-sualının gedişində təqsirləndirilən Sübahir Qurbanovun müdafiəçisi Adil İsmayılov cinayət işinin materiallarına daxil olan sənədə əsasən bildirib ki, əslində zərərçəkmiş heç bir məhsul istehsal etməyib və sifarişçiyə təchiz edilən mallar müxtəlif ölkələrdə istehsal edilmiş məhsullar olub. Bir fakt da üzə çıxdı ki, həmin malların təhvil-təslim aktı MTN əməkdaşları tərəfindən saxlanılmaya xeyli vaxt qalmış rəsmiləşdirilib.

Təqsirləndirilən Füzuli Əliyev yerindən replika ataraq, zərərçəkmiş Gündüz Əliyevin böyük məbləğdə vəsaitlərin nağdlaşdırılması üzrə "ixtisaslaşdığını" və bu barədə ifadəsində məlumat verəcəyini dedi.

Prosesə sədrlik edən hakim Həbib Həsənov növbəti məhkəmə iclasının aprelin 13-də keçiriləcəyini elan etdi.

❑ İlkin MURADOV

**Amerikada mühacirətdə yaşayan sabiq spiker Rəsul Quliyevlə Milli Şura sədri, tarixçi professor Cəmil Həsənli arasında yaranan və bir aydan artıqdır davam edən qarşıdurma yenidən qızışıb. Bu dəfə tərəfləri Milli Şuranın 8 aprel mitinqi üz-üzə gətirib. Eks-spikerin mitinqi sərt şəkildə tənqid etməsi əks düşərgə tərəfindən ciddi etiraz doğurub. Son olaraq, tarixçi professorun öz facebook səhifəsində 8 aprel mitinqini tənqid edənlərə həsr etdiyi sərt status narazılıqları daha da alovlandırıb.**

# Rəsul Quliyevlə Cəmil Həsənlinin davası yenidən qızışdı





## MŞ sədri: "Mitinqinizi keçirin, kim sizə mane olur?"
## Eks-spiker: "Bu adam ömrü boyu saxtakarlıqla məşğul olub"

**C.Həsənli statusunda yazıb ki, Milli Şuranın aksiyası uğurlu olub:** "...İndi bəzi "ideoloqlar" Milli Şuranın öz mitinqini elə bu təşkilatın əvvəlki mitinqləri ilə müqayisə edib, bizə "konseptual" istiqamətlər təklif edirlər. Birisi təhlükəsizlik xidmətinin ətraf binanın damından mitinqə hələ adamlar yeni gəlməyə başlayan vaxt çəkdiyi fotonu yayıb, tədbir haqqında mənfi təəssürat yaratmağa çalışır. Axı mitinq vaxtı bütün ətraf binaların giriş bloklarında ya təhlükəsizlik, ya da polis qüvvələrinin nəzarətçiləri dayanır. Görən hansı "azad" jurnalist öz peşə borcunu yerinə yetirmək üçün bu səddi aşıb həmin fotonu çəkə bilib? Bir də ki mitinq ilk dəqiqəsindən son dəqiqəsinə qədər azı 4 media qurumu tərəfindən canlı yayılıb və lentə alınıb. Axşamdan içki içən bəziləri tədbirimizi islamçı camiənin cümə xütbəsi ilə səhv salıb "ehtiram" göstərərək mitinqə gəlməyib. Aksiya vaxtı hakimiyyət televiziyaları təhlükəsizlik xidmətinin müəyyən etdiyi yerdə hazır dayanıb qara İslam bayrağının qaldırılmasını səbirsizliklə gözləyirdilər. Amma cəmisi 3 saniyə çəkiliş apara bildilər. İslama qayğı, islama "ehtiram" müxtəlif tərəflərdən olsa da, amma mahiyyət etibarı ilə eynidir...

Milli Şuranın öz mitinqinin keçirilməsi ideyasının da müəllifi mənəm. Bu istiqamətdə bütün məsuliyyət də Milli Şuranın və onun sədri kimi mənim üzərimdədir...

Deyirlər ki, bəs biz başqalarından önə keçmək naminə mitinq etmişik. Əvvəla, ictimai - siyasi mübarizənin gedişində kim bizdən öndədir ki, kəmfürsətlik edib ondan qabağa keçməyə çalışmışıq? Kim bizdən çox və bizdən daha kütləvi aksiya keçirib ki, biz indi onu qabaqlamağa çalışmışıq. Kim bizdən kəsərli söz deyib, kim bizdən daha konseptual sənədlər qoyub ortaya ki, indi biz onları önləmək istəyirik? Deyirlər ki, guya partiyalar və müxtəlif təşkilatlar Mehman Hüseynovun müdafiə komitəsi ilə birlikdə birgə mitinq keçirməyə hazırlaşdığı bir vaxt biz qəflətən mitinq keçirib onların işlərini pozmuşuq... Kimlərsə "Monarxiyaya yox" tələbi ilə aksiya keçirməyə özlərini hazır bilmirlərsə, buyurub Mehman bəyin müdafiəsi ilə bağlı kütləvi aksiya keçirsinlər... Çox demirəm, Milli Şuradan kənar hamı birlikdə 8 aprel mitinqinin üçdə biri səviyyəsində aksiya keçirəndən sonra bu düşərgədən kimsə bu mitinqi fiasko adlandıra bilər".

**R.Quliyev isə "Yeni Müsavat"a açıqlamasında Milli Şura sədrinin statusuna sərt cavab verərək, onu dırnaqarası professor adlandırıb:** "Milli Şura deyilən bir təşkilat 2013-cü ilin axırında artıq səhnədən yoxa çıxıb, çünki bu təşkilatı yaradan təsisçilərin 4-dən 3-ü bu təşkilatda təmsil olunmaqdan imtina etdilər. "Professorun" Milli Şura adlandırdığı qurum maksimum AXCP-nin Milli Şurası adlandırıla bilər. "Professor" heç bir xəcalət çəkmədən 2, 3... 5 min yox, mitinqdə 10 minə yaxın adamın iştirak etdiyini elan edir. Bu gülünc bəyanat məni çox da təəccübləndirmədi. Həyatı boyu bir dənə olsun xeyirxah iş görməyən bu adam ömrü boyu saxtakarlıqla məşğul olub. Tarixi faktları kobudcasına saxtalaşdıran sifarişlə yazılmış iki kitabın müəllifi cavan yaşlarından tarix elmi əvəzinə yalan danışma elmini dərindən mənimsəmişdi. Sovet İttifaqının diktatura siyasətini xüsusi ruh yüksəkliyi ilə televiziyada şərh edən bu şəxs gənc yaşlarından saxtakarlıqla məşğul olub. 2013-cü ildə "mən prezident seçkilərini 65 faizlə udmuşam" deyib, azı 3-4 ay çığır-bağır salanın və bəzilərinin ona cənab prezident deyib elə salmasını ciddi qəbul edən bu şəxsin indi "mitinqdə 10 minə yaxın adam iştirak edib" deməsi məni təəccübləndirə bilməzdi. 1 kvadrat metrdə ən azı 7-8 adamın dayandığı təqdirdə maksimum 15 min adamın yerləşə biləcəyi bu stadionda necə 10 minə yaxın adam iştirak edirdi demək olar? Yaxşı ki, 2013-cü ildə mən 65 faizlə udmuşam deyən şəxs, mitinqdə azı 30 min iştirak edirdi deməyib. Cənab "professor" özünü fotonun Meydan TV tərəfindən yayımlandığından, AzadliqRadiosu, "Yeni Müsavat" qəzeti və başqa informasiya vasitələrində təkrar yayılmasından xəbəri yoxmuş kimi aparır... Bu adam yazır ki, fotonu müxbirlər necə binanın yuxarısından çəkə bilərlər, polis o binalara yaxınlaşmağa heç kimi qoymurdu. Bu insan anlamır ki, o binaların 4 və 5-ci mərtəbələrində ən azı 30-40 adam yaşayır və müasir telefonu olan hər bir şəxs problemsiz belə bir foto çəkə bilər. Bundan əlavə, fotonun altında müəllif olaraq Rüstəmxanlı yazılıb. Ay ölkənin 65 faizlə qələbə çalmış prezidenti, belə elementar şeyləri bilməmək ayıb deyilmi? Siz "bu foto mitinq başlamamışdan əvvəl və ya əvvəlində çəkilmişdir" deməklə yalanınıza görə qızarmalısınız, çünki dediyiniz kimi, mitinq canlı yayımlanırdı və bu şəkil mitinq iştirakçılarının pik həddinə uyğundur. İslamçıları siz cənab "professor" mitinqə dəvət etmisiniz, "Azadlıq" qəzetində Taleh Bağırzadənin islamçılara müraciətini əsas səhifənizdə bir neçə gün saxlamısınız. Doğrudur, siz bunun da yalan olduğunu deyib, məsələn, məni şərləyə bilərsiniz, çünki bu sizin xislətinizdən irəli gəlir. Siz AXCP-nin sədrini müdafiə etməyə cəhd edirsiniz. Döşünüzə döyüb mitinqi sizin çağırdığınızı gözə soxmaq istəyirsiniz. Mən bir daha xatırlatmaq istəyirəm, siz klassik Milli Şuranın yox, AXCP-nin Milli Şurasının sədrisiniz. AXCP olmasa, sizin mitinqə heç 20 nəfər belə gəlməz, istəyirsiniz yoxlayın, 20 olsa, sizdən üzr istəyəcəyəm. AXCP-nin səhvi sizinlə əməkdaşlıq etməklərindədir. Son iki ildə siz bu partiyanın həm sədrini, həm də özünü kifayət qədər hörmətdən saldınız. 2008-2012-ci illərdə Medvedyev Rusiyanın prezidenti oldu, ancaq hamı, o cümlədən xarici ölkələr prezidentin Putin olduğunu bilirdi. Sizin Milli Şuranın sədri olmağınızı tez-tez təkrarlamağınızın heç bir əhəmiyyəti yoxdur. Sizin xidmətiniz (sizdən söhbət getmir, sizin heç vaxt hörmətiniz olmayıb ) nəticəsində bu qurum tam hörmətdən düşdü. Mən bu dediklərimi artıq 5 ildir deyirəm. Partiyaların 5, 2, 1 min və ya 500,100 nəfər mitinqə çıxarmasının hakimiyyətə təsir gücü yoxdur. Bakının 1.5 milyon seçicisinin ancaq 1000 nəfəri "Monarxiyaya yox" dedi. Stadionda min nəfərin dağınıq, miskin vəziyyəti hökumətin əlinə kozır verdi. Sizin xalqın monarxiya istədiyini sübut edən mitinqiniz hökumətə böyük hədiyyədir. Siz bu işi görməkdə ustalaşmısınız. 2000-2010-cu illərdə hansı işləri nə üçün gördünüz, məlumdur. 2013-14-cü illərdəki xidmətləriniz kifayət qədər qiymətləndirilmədi. Bu son mitinqlə isə hakimiyyətə xidmət etməyə həmişə hazır olduğunuzu bəyan etdiniz, Allah xeyir versin".

❑ **Cavanşir ABBASLI**

# Avropada da nadürüstlər var, amma şəraitləri yoxdur



**Samir SARI**

**Neçə vaxtdır bu mövzuda yazmağı düşünürdüm, amma dünən keçmiş əməkdaşımız Kamalın sosial şəbəkədə yazdığı status tərəddüdümü qırdı, dedim, qoy yazım, qalmasın.**

Hazırda Hollandiyada yaşayan Kamal Qasımov yazmışdı: "Deyəsən, Azərbaycanda yaşayanlar elə bilir ki, bütün avropalılar ali təhsillidir və vicdan dağarcığıdır".

Mən də ona belə bir cavab yazdım: "Yox, elə bilmirik, Avropada kifayət qədər vicdansız, yalaka, nadürüst var. Amma onların öz poteinsiallarından istifadə edə bilməməsi üçün baryerlər, institutlar var".

İndi bəlkə də bu yazı AzTV-nin xroniki şəkildə "Almaniya dağılır" rubrikasında gedən materiallara oxşayacaq, amma elə deyil. Nə Almaniya dağılır, nə Hollandiya. Heç kasıb Slovakiya, Sloveniya da bizdən pis durumda deyil. Bu, heç.

Amma başqalarını deyə bilmərəm, məndə avropalıların hamısının "ali savadlı" və "vicdan dağarcığı" olmaları haqqında illüziya yoxdur.

Ola bilər, onları gerçəkdən də elə hesab edənlər var. Varsa, yanlışdır. Avropalıları ellikcə pozğun, narkoman, cinsi azlıq hesab edənlər də yanılır. Elə də deyil.

Avropada, Amerikada kifayət qədər vicdansız, tənbəl, nadürüst, fırıldaqçı, yaltaq, beyni qara-qura işlərlə dolu adamlar var.

Məsələn, indiki gənclər bilməz, amma təxminən 20 il öncə Avropa Şurası Parlament Assambleyası sədrinin müavini vardı, ad-soyadı Ernest Müleman idi. Təəssüf ki, onun hansı ölkədən olduğunu unutmuşam, ancaq adamın ölkəmizə tez-tez gəlməsi, gəlib burda bizim dövlət başçısına yaltaqlanması yaxşı yadımdadır. Müleman prezidentə elə yaltaqlanırdı ki, ən yaltaq İH başçısı belə onun danışığını eşidəndə xəcalət çəkərdi. Bizdən nə işi aşırdı, bilmirəm, amma adam hər dəfə mədhiyyənin, türkün sözü, dozunu qaçırırdı.

Elə ondan sonrakıların çoxu da elə idi. ABŞ səfiri Stenli Eskudero yadınızdadırmı? Burda onun üzünə necə xoş baxmışdılarsa, səlahiyyət müddəti bitəndən sonra adam ölkəmizdən getmədi, qaxılıb qaldı, iş qurdu, torpaq aldı, yalan-gerçək, deyirdilər, YAP-a keçmək üçün ərizə verib. Bir az cavan olsa, arvadını boşayıb, sünnət olunub, yenidən evlənəcək, yeznəmiz olacaqdı.

Arada Avropadan gələnlərin içində prinsipial kişilər də çıxdı, amma sonra yenə kürüyeyənlər, rüşvət kürüyənlər, haqq-ədalət hərləməyənlər axışıb gəldi.

Məhz onda gördük ki, yox, bu qırışmalların heç də hamısı prinsipial, kristal deyillər, bunların da ağzı, cibləri, keysləri, iştahları var, bunlar da villa, bahalı maşın almaq, model məşuqə saxlamaq istəyirlər.

İntəhası, bu xüsusda savadlı adamların sözü olmasın, bir mühüm nüans var ki, məhz o, avropalı vicdansızlarla yerli vicdansızları fərqləndirir.

Məsələ ondadır ki, avropalı nadürüstlər korrupsiya və rüşvətxorluqla, müxtəlif maxinasiyalarla bizdəki kimi sərbəst, qorxu-ürküsüz və iri miqyasda məşğul ola bilmirlər, tez-tez ilişirlər, ilişəndə paçaları medianın və prokurorların əlində qalır. Məsələn, bu saat Fransada prezident olmaq istəyən siyasiləri şişə taxırlar, nə var, nə var, arvadlarına artıq maaş, qonorar yazdırıblar. Hələ gəl gör, onlar hansısa layihəyə dövlət büdcəsindən ayrılmış 1 milyard pulun yarısını mənimsəsəydilər, nələr olardı.

Başqa sözlə, avropalı nadürüstlər öz məkrli niyyətlərini həyata keçirmək istəyərkən önlərində baryerlər görürlər. Elə bir mexanizm var ki, çoxu istəsə də, yaramazlıq edə bilmir. O üzdən onlar daha dürüst adam kimi görünə bilirlər.

Təbii ki, uzun müddətdən bəri dürüst olmaq məcburiyyətində yaşamaları bir çox adamın beynində öz izini həkk edib və onlar anlayırlar ki, dürüst olmaq daha faydalıdır, nəinki nadürüst olub türmədə oturmaq.

Onlarda da əliəyrilik edərək milyonlar toplamaq, daha yüksək postlar tutmaq haqq-hesabı trend olsaydı, buna görə heç kəsi cəzalandırmasaydılar, yəqin ki, bizimkilər avropalıların yanında karnavala getməli olardılar.

Demək ki, əsas məsələ ayrıca götürülmüş bir qitədə yaşayan insanların təfəkküründə deyil, həmin qitədəki ictimai-siyasi mühitdədir.

Bizim mühitimiz pisdir, dostlar, özümüz elə də pis adamlar deyilik, mühitimiz zaydır. Bu mühiti də özümüz zay eləmişik və düzəldə bilmirik. Zay mühitdə yetişənlərin isə istər-istəməz xarabı çox olur.

YENİ MÜSAVAT
N 76 (6690) 13 aprel 2017

# MTN haqda pritça



Zamin HACI
zaminhaci@gmail.com

**MTN generallarının məhkəmə prosesi tək bir qurumun cinayətlərini açmır, ümumən sistemin mahiyyətinə işıq salır. Örnək üçün, avtomobil ehtiyat hissələri satan firmanın şefi istintaqda deyir: "2014-cü ildə MTN əməkdaşları məni nazirliyin həyətindəki "Sultan" kafesinə aparıb 100 min manat istədilər. Məndən çox yerdən çox pul istəyiblər, sahibkar adamam. Hər dəfə də 50 min manat vermişəm və bu məbləğə öyrəşmişəm, amma bu dəfə tələb olunan məbləğ bir az çox oldu". Sitatın sonu.**

Əladır, deyilmi? Adam açıq deyir ki, çox yerdən rüşvət alırdılar, dövlət əslində bir reket dəstəsi kimi boğazımıza çökmüşdür. Sadəcə, bu dəfə "bir az çox" alıblar. İndi məhkəmə o "çox yerləri" araşdıra bilərmi? Axı açıq deyib, korrupsiya faktı üzrə əlavə cinayət işi açmağın tam zamanıdır. Ancaq yox, bu ifadə uçub getdi havaya. Zəncirotu toxumu kimi, toz kimi, nə bilim, çürük yarpaq kimi. Çünki hələlik həmin "çox yerlərin" istintaqı üçün sifariş gəlməyibdir. Üstəlik, bu gün MTN generallarını istintaqa çəkənlər elə o "çox yerlərin" təmsilçisidirsə, neyləyəsən? Saqqız alıb çeynəyəsən - başqa heç zad.

MTN generalları da boş dayanmır, məhkəmədə "zapçast" satana deyirlər ki, bizdə sənəd var, sən vergiləri ödəmirsən. He-he. Lap "günahı olmayan daşı atsın" mövzusudur. Nə olsun biz səni soymuşuq, sən də xalqı soyurdun dolayısı ilə. Vergi vermirdin, tank ala bilmirdik, erməni qapıya gəlmişdi, pensiyaçı acından ölürdü, xalq artisti üzük oğurlayırdı və sairə. Araşdırsan, sənin günahın Çovdarovunkundan çoxdur. Vallah. Səsini azalt. Dəvə nə qədər ölü olsa, dərisi bir eşşəyin yüküdür.

Başqa bir zərərçəkən tikinti firmasının direktorudur. Bunu da bankdan 620 min manat çıxardanda MTN zəhmətkeşləri tutub soyublar. İnsaflı davranıblar - cəmi 200 minini alıblar. Direktor deyir guya bunu Saatlı olimpiya kompleksini tikən fəhlələrinə aparırmış. MTN generalları isə deyir qələt eləmə, bizdə kağız var, sən onlara cəmi 90 manat maaş vermisən. Çekistlərin soyduğu bu başabəla direktorun öz maaşı isə kağızda 450 manat göstərilibmiş. *(Aylıq 450 manatdan 200 min toplayıb rüşvət vermək üçün neçə il işləmək lazımdır - təklif edirəm Məleykə xanım bunu testə salsın).* Yəni deyirlər sən də vergidən yayınmısan, kimin inəyi mövüldəsə, sən quyruğunu tərpətmə, mövüldəmək cəhənnəm.

Bəlkə yalan deyirlər? Yox. Düzdür. Hər tərəf burda haqlıdır. Mollanın lətifəsindəki kimi: "Sən də haqlısan, o da, elə mən də". Bunu araşdırmaq çətin deyil, Saatlı Olimpiya Kompleksinin tikintisi, dövlət rəhbərliyinin onun lentini kəsməsi və sairə haqda informasiyalar hazırda internetdə durur, orada isə həmin bu tikinti firmasının ümumiyyətlə adı, izi-tozu yoxdur! Tamamilə, necə deyərlər, dibindən "qara mühasibatlıq", "gizli iqtisadiyyat" üsulu ilə çalışıblar. Oğrudan oğruya halal idisə, indi istintaq aparanlara niyə halal olmasın? Bizim ölkəmizdə halallıq birinci, vacib məsələdir. Halallığını al, adamın ağzını... cır. Araşdır, bütün generallarımız Həccə gedibdir. Elə rəis var 5 dəfə gedib, deputat var 27 dəfə. Hətta bəzi dükanlarda halal qaban əti satılır. Bunlar hamısı ölkəmizin haqqın yolunu tapdığını, haqq yolunda olduğunu göstərir.

Yazını elə bu temada bir pritça ilə (müdrik əhvalat) bitirmək istəyirəm.

Biri var idi, biri yox idi, bir balaca quş var idi, isti ölkələrə uçmaq istəyirdi. Hava elə soyuq idi ki, o, uçduğu göydəcə dondu, çölə düşdü. Çöldən bu vaxt inək keçirdi, inək onun üstünə peyinini tökdü. Peyinin istiliyindən quşcuğaz oyandı. Mal peyini onu həyata qaytarmışdı! Quş sevindiyindən oxumağa başladı, yaxınlıqdan keçən pişik səsi eşitdi, gəlib peyini eşələdi, quşu tapıb yedi.

Əhvalatdan çıxan nəticələr:

Üstünüzü "batıran" hər kəs düşmən deyil.

Sizi peyindən çıxaran hər kəs dost deyil.

Əgər siz nəcisin içinə düşmüsünüzsə, yaxşısı budur ağzınızı yumun.



# Azərbaycan İsraildən yeni silahlar alacaq - İrəvana pis müjdə

## İşğalçı ölkə və erməni lobbisinin səylərinə rəğmən, Bakı nə yəhudi dövləti, nə də digər ölkələrlə hərbi anlaşmaları dayandırmayacaq; **əcnəbi ekspert:** "Azərbaycanın İsraillə silah sövdələşmələrini yalnız ABŞ durdura bilər, o da..."; "Stratfor" Patruşevin Bakı səfərindəki əsas məqsəddən yazdı...

**İsrailin Ermənistanda yeni səfiri Eliyaxu Yeruşalminin erməni KİV-lərdən birinə verdiyi son müsahibə haqda yazmışdıq. Diplomata ünvanlanan qərəzli suallardan bir daha aydın görünür ki, erməni tərəf yəhudi dövləti ilə Azərbaycan arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlığı heç cür həzm edə bilmir, bundan ciddi narahatlıq keçirir.**

Lakin məlumdur ki, səfir bu qəbildən suallara kifayət qədər təmkinli, eyn zamanda ermənilərı məyus edəcək cavablar verib. "Biz bu məsələni şərh etmirik", deməklə faktiki olaraq, Azərbaycana silah satışının davam edəcəyinə işarə vurub.

**Sitat:** "Biz regionda sülh istəyirik. Bizim siyasətimiz ondan ibarətdir ki, sizin öz aranızda, qonşularınızın arasında sülh Minsk prosesinə əsaslanmalıdır. Siz öz xalqlarınızın rifahı naminə nəyi qəbul etsəniz, biz də onu məqbul sayacağıq. Ən əsası odur ki, bölgədə dinclik bərqərar olsun və Ermənistan sülh şəraitində yaşasın. İsrailin Azərbaycana silah satmasına gəlincə, təbii ki, biz bu məsələni şərh eləmirik. Bu məsələ mənim İrəvandakı görüşlərimdə də qaldırılmışdı və ehtimal ki, gələcək məsləhətləşmələrdə də qaldırılacaq".

***

Şübhə yox ki, Azərbaycanla hərbi və hərbi-texniki sahədə əməkdaşlıqla İsrail ilk növbədə öz milli maraqlarını güdür. O ki qaldı konkret olaraq silah ticarətinə, bu istiqamətdə Ermənistan amilinə görə hansısa ləngimə və ya zəifləmə gözlənilmir. İsrailin güc strukturlarından birindəki etibarlı mənbənin haqqin.az saytına bildirdiyinə görə, əksinə, "Azərbaycanla əməkdaşlıq silah tədarükü də daxil, bütün sferalar üzrə davam etdiriləcək".

**Musvat.com-un məlumatına görə, qaynaq bildirib ki, İsrailin Azərbaycana silah satmasına yeganə əngəl ola biləcək qüvvə ABŞ ola bilər.** "Ancaq indiyədək Vaşinqton iki dövlət arasında silah anlaşmalarına heç bir etiraz sərgiləməyib", - deyə o qeyd edib.

**Bu fikirlə Yaxın Şərq üzrə ekspert Vasili Papava da razıdır. Onun qənaətincə, SSRİ-nin çöküşü Azərbaycanla İsrail arasında diplomatik əlaqələrin qurulmasına kömək olub:** "O vaxtdan mürəkkəb geosiyasi arealda yerləşən iki dövlət arasında əməkdaşlıq müxtəlif istiqamətləri - hərbi, iqtisadi və siyasi sferaları əhatə edir".

**Ekspertin fikrincə, Azərbaycanın İsraillə əməkdaşlığında bir neçə mühüm strateji məqam var:** "Birincisi, Bakı və Təl-Əviv regional təhlükəsizliyə artan hədələrlə üz-üzədir. İkincisi, yəhudi dövləti ilə əməkdaşlıqla Azərbaycanın siyasi elitası erməni diasporunun, ələlxüsus da ABŞ və Avropadakı erməni lobbisinin anti-Azərbaycan fəallığını balanslaşdırmağa cəhd edir. Və üçüncüsü, İsrailin dəstəyi ilə Azərbaycan özünün silahlı qüvvələrini və təhlükəsizlik orqanlarını modernləşdirməyə səy edir".

**Analitikə görə, Yaxın Şərqdən sonra İsrailin regional siyasətdə prioritet verdiyi əsas istiqamət Qafqaz bölgəsidir:** "Qafqaza maraq İsrailin enerjidaşıyıcılarının diversifikasiyası, İranın bölgədə artan təsirini cilovlamaq və Azərbaycandakı çoxsaylı yəhudi icmaları ilə bağlıdır. Belə ki, Azərbaycan İsrail üçün o azsaylı müsəlman dövlətlərindəndir ki, ona xoş münasibətdədir. Hər iki tərəf hazırda təhlükəsizlik sahəsində də *(informasiyalar mübadiləsi, operativ məlumatların analizi və s.)* qarşılıqlı faydalı əməkdaşlığa malikdir".

**Ekspertin sözlərinə görə, yəhudi dövləti ilə yaxın əlaqələr Azərbaycana imkan verir ki, öz ordusunu müasir silah sistemləri ilə təchiz eləsin:** "Hansı sistemləri ki, Bakı Qərb ölkələri və ABŞ-la əməkdaşlıq etməklə ala bilməzdi. Qeyd eləməyə dəyər ki, iki dövlət arasında hərbi-texniki əməkdaşlığın həcmi 1 milyarda dolları ötür ki, bu da Qərb ölkələri ilə analoji əməkdaşlıqdan on dəfələrlə böyükdür. Regionda qeyri-sabitliyin, Yaxın Şərqdə və Avropa ölkələrində terror təhlükəsinin artması fonunda Azərbaycanla İsrail arasında hərbi və təhlükəsizlik sferalarında əməkdaşlıq yalnız inkişaf edəcək ki, bu da onların strateji maraqlarına tamamilə cavab verir".

***

Terror təhlükəsindən söz düşmüşkən, bu arada ABŞ-ın "kölgə kəşfiyyatı" sayılan "Stratfor" Analitik Ofisi özünün son hesabat- məqaləsində Sankt-Peterburq metrosundakı terror hücumundan sonra Rusiyanın da təhlükəsizlik sahəsində "Yaxın xaric" ölkələri ilə, o cümlədən də Azərbaycanla əməkdaşlığı daha da gücləndirmək xətti götürdüyünü qeyd edir. Musavat.com-un məlumatına görə, "Beyin mərkəzi" Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin təzəcə başa çatan Bakı səfərinə ən əvvəl bu rakursdan qiymət verib.

"Azərbaycan o cümlədən təhlükəsizlik məsələlərindən söhbət gedəndə ənənəvi olaraq, neytral mövqe tutur. Rusiyanın müttəfiqi, öz ərazisində rus bazasına yer vermiş Ermənistandan fərqli olaraq, Azərbaycan həmişə öz neytrallığını saxlayıb. O sırada Rusiya ilə əlaqələrdə uzun illər ərzində bu mövqeyini qoruyub saxlayıb və eyni zamanda Türkiyə ilə sıx hərbi əməkdaşlıq qurub. Ancaq işğal altındakı Dağlıq Qarabağa görə Azərbaycanın Ermənistanla olan konfliktinə Rusiyanın çevik yanaşmaları Moskva ilə Bakı arasında təhlükəsizlik və hərbi sahələrdə əməkdaşlığın möhkəmlənməsinə rəvac verib. Azərbaycan Rusiyadan silah tədarükünü artırıb, noyabrda iki ölkə hərbi-texniki əməkdaşlığı genişləndirmək barədə razılığa gəliblər *(Rusiya baş nazirinin müavini Dmitri Roqozinin Bakı səfəri nəzərdə tutulur - red.)* Beləliklə də, regionda siyasi qeyri-sabitlik Moskvaya imkan verib ki, bir çox qonşu ölkədə öz təsirini gücləndirsin - xüsusən də söhbət təhlükəsizlik sahəsində əməkdaşlıqdan gedirsə" - hesabatda vurğulanır.

***

Şübhəsiz ki, Azərbaycanın Ermənistandan bir mühüm üstünlüyü də onun silahlanma yarışında diversifikasiya imkanına malik olmasıdır. Yəni Bakı İsrail və Türkiyədən başqa istənilən digər dövlətdən də müasir hərbi və HHQ sistemləri, döyüş maşınları almaq, onların bəzilərinin istehsalını hətta öz ərazisində qurmaq imkanına malikdir. Bu xüsusda müdafiə sənayesi naziri Yavər Camalovun yeni kamikadze dronların - "Zərbə" KH-lərin istehsalına başlanması ilə bağlı son açıqlaması diqqət çəkir.

Son illər ölkəmizlə yeganə nüvə müttəfiqimiz - dost Pakistan arasında dərinləşən əlaqələri isə məxsusi qeyd eləmək lazım gəlir. Bütün bunlar, üstəgəl, iqtisadi-maliyyə imkanları Azərbaycana işğalçı ölkə üzərində əzici hərbi üstünlük əldə eləmək üçün yaxşı fürsətlər deməkdir.

❑ **Siyasət şöbəsi**

# Qərbdən ölkəmizə "yaşıl işıq" planı

**Ötən ay Gürcüstanla Avropa Birliyi (AB) ölkələri arasında viza rejiminin ləğvindən sonra Azərbaycanda bu məsələnin aktiv müzakirəsi başlanıb. Hətta parlament və ən müxtəlif ekspertlər səviyyəsində AB-nin Azərbaycanla da viza rejiminin ləğvinə çağırışlar edilir.**

**Məlumdur ki, Azərbaycan AB ilə "Şərq Tərəfdaşlığı" layihəsi çərçivəsində assosiasiya sazişindən imtina eləsə də, Brüsselə qarşılıqlı maraqlara əsaslanan üstün tərəfdaşlıq razılaşmasının imzalanmasını təklif edib. Rəsmi Brüssel bu təklifə əvvəl etiraz etdi, amma ötən ilin ortalarından Azərbaycanla ikitərəfli tərəfdaşlıq sazişinə dair danışıqlar başlayıb. Ötən ilin fevralında Azərbaycan prezidenti İlham Əliyevin Brüsselə rəsmi səfərində ilk dəfə açıqlandı ki, artıq AB ilə Azərbaycan arasında strateji sənəd üzərində iş gedir. Məlumatlara görə, hər iki tərəfdən yaradılmış işçi qruplar artıq sənədlər üzərində işlərini tamamlayıblar.**




# Avropa Birliyi Azərbaycana viza rejimini ləğv edir - sensasion gəlişmə

## İddialar var ki, AB-nin miqrasiya və qaçqınlarla məşğul olan qurumları məhz Azərbaycan kimi ölkələrdən olan axını yönləndirmək, daha dəqiqi, nəzarət etmək, miqrasiya qərarı verənlərdən isə səmərəli işçi qüvvəsi kimi istifadə etmək üçün viza rejimi şərtlərini xeyli yumşaltmaq niyyətindədir

Avropa Birliyi ölkələri ilə Azərbaycan arasında enerji əməkdaşlığı ən yüksək səviyyədə genişləndirilir, ticarət dövriyyəsində də problemlər yoxdur. Məsələn, Statistika Komitəsinin aprelin 12-də açıqladığı rəsmi məlumata görə, bu ilin ilk iki ayında Avropa Birliyi ilə ticarət dövriyyəsi 42,9 faizi təşkil edib. Doğrudur, bu rəqəmdə qismən azalma olsa da, AB yenə də ticarət dövriyyəsində (11,2 faizi MDB üzvü dövlətlərin, 45,9 faizi isə dünyanın digər ölkələrinin payına düşür) öncül statusdadır.

AB-nin hər bir Azərbaycan vətəndaşının marağında olan viza rejiminin ləğvi üçün həm demokratiya, həm qanunvericilik bazasının yaradılması üçün şərtləri var. AB Azərbaycanda siyasi islahatların dərinləşdirilməsini və ölkəmizin Ümumdünya Ticarət Təşkilatına üzvlüyünü istəyir. Bu şərtlər qəbul olunarsa, Azərbaycan vətəndaşları da gürcülər kimi Avropa ölkələrinə vizasız gedib-gələ bilərlər. Yeri gəlmişkən, Azərbaycanla AB arasında ilyarım əvvəl viza rejiminin sadələşdirilməsi və readmissiya barədə iki saziş imzalayıb. Hələ o zaman belə xəbərlər vardı ki, AB və Azərbaycan arasında vizasız rejimin icra olunmasının növbəti mərhələsi viza rejiminin sadələşdirilməsindən sonra aradan qalxa bilər.

Milli Məclisin ötən həftə keçirilən iclasında deputat Zahid Oruc da bu məsələyə toxunaraq bildirib ki, AB Azərbaycan vətəndaşlarına da vizasız səyahət imkanı yaratmalıdır: **"Azərbaycan ötən illər ərzində Avropanın ən yaxın siyasi, hüquqi tərəfdaşı olub. Amma bunun əvəzində Azərbaycan vətəndaşları Şengen ərazisinə daxil olmaq üçün çox sərt rejimdən keçməli olur. Qərb təşkilatlarının, Avropa Birliyinin istəyi varsa ki, Azərbaycan vətəndaşları ona tərəf üz çevirsin, o zaman öz qapılarını bu insanların üzünə açmalıdır. Yəni Avropa Birliyi Azərbaycan vətəndaşlarına da vizasız səyahət imkanı yaratmalıdır".**

Hazırda AB çətin dövrünü yaşayır. Qaçqın axını Avropa ölkələri üçün hələ də ciddi problem kimi qalmaqdadır. Qurumu daha çox narahat edən isə miqrant axını fonunda bir sıra Avropa ölkələrində artıq milliyyətçilik və anti-İslamçı mövqedə duran siyasi partiyaların təsirinin artmasıdır. Radikal antimiqrasiya və antimüsəlman partiyaları AB-nin əsas ölkələrində, o cümlədən Hollandiyada, Fransada, Danimarkada, Finlandiyada, İsveçdə güclənir. Bu isə AB üçün ciddi təhlükədir.

İddialar var ki, AB hazırda bir sıra ölkələrlə viza rejiminin ləğvi üçün tətbiq etdiyi ön şərtləri yumşaltmağı müzakirə edir. Çünki onsuz da bir sıra ölkələrdən gələn miqrant axınının qarşısını almaq mümkünsüzdür. Amma bu yumşalmalar qaynar nöqtələrə aid deyil, söhbət AB üçün daha önəmli ölkələrə tətbiq edilən ön şərtlərin yumşalmasından gedir. Bu sırada isə MDB ölkələri sırasında Azərbaycanın da olduğu deyilir. Diplomatik kanallarla bu məsələnin hazırda rəsmi Bakı ilə müzakirə edilməsi barədə də xəbərlər var. Məlumdur ki, bu gün viza rejimi mövcud olsa da, Azərbaycan da daxil, istənilən şəxs rahatlıqla ölkəsindən çıxa, AB ölkələrinə gedə bilir. Yəni xüsusilə xaricə sığınmaq istəyənlər üçün viza rejiminin mövcudluğu əslində ciddi problem kimi görünmür. İddialar var ki, rəsmi Bakı ehtiyat edir ki, viza rejiminin aradan qaldırılması Avropaya güclü axın yarada bilər. Narahatlıq həm də ondan ibarətdir ki, bütün dünyada işsizlik problemi də yaşanır ki, miqrantların bir hissəsi siyasi səbəblərdən deyil, həm də yaxşı həyat və təminatlı iş üçün ölkələrini tərk etmək məcburiyyətindədirlər.

AB viza rejimi üçün tələb etdiyi şərtləri yumşaltmaqla əslində indi yaranmış iki ciddi problemin həllinə nail olmaq istəyir. Təhlillər göstərir ki, viza rejiminin ləğv olunduğu ölkələrdən Avropaya miqrant axını əvvəlki illərə nisbətdə xeyli azalır. Viza tətbiqi "qadağan olunmuş alma daha şirindir" effekti yaratmaqla bərabər, rahat həyat arxasınca gedənləri işləməyə deyil, daha çox sosial yardımlarla dolanmağa həvəsləndirir. Həmin ölkələrdə isə gərginliklər məhz miqrantların "müftə yedirdilməsindən" yaranır. Böyük Britaniyanın qurumu tərk etməsi qərarından sonra AB maliyyə məsələlərinə daha ciddi diqqət ayırmağa məcburdur. AB maraqlıdır ki, ölkəsinə gələnlər cəmiyyətdən ayrı deyil, onun bir parçası olsun, millətçilik və anti-İslam əhval-ruhiyyəsi ölkələri təhdid etməsin. İkinci bir tərəfdən, Avropanın işçi miqrantlara da ehtiyacı var.

Heç kimə o da sirr deyil ki, hazırda AB ölkələrinin qaçqın düşərgələrində Azərbaycandan da olan "siyasi qaçqın"lar var. Onların əksəriyyəti siyasi fəallar deyil, heç Azərbaycan müxalifətinin liderlərinin adını belə doğru-dürüst bilmirlər. Bakıdakı səfirliklərdən viza alaraq Avropaya üz tutanlar seçdikləri ölkəyə çatan kimi vizalarını unudub özlərini "siyasi əzabkeş" kimi göstərirlər. Azərbaycan Suriya və ya Seneqal deyil, əksinə, bir sıra Avropa ölkələrindən belə stabil və təhlükəsiz ölkədir. Amma "vizanı rahat həyata bilet" hesab edənlər AB ölkələrinin qaçqın düşərgəsində aylarla oturum almaq növbəsi gözləyirlər.

İddialar var ki, AB miqrasiya və qaçqınlarla məşğul olan qurumları məhz Azərbaycan kimi ölkələrdən olan axını yönləndirmək, daha dəqiqi, nəzarət etmək, miqrasiya qərarı verənlərdən isə səmərəli işçi qüvvəsi kimi istifadə etmək üçün viza rejimi şərtlərini xeyli yumşaltmaq niyyətindədir. Əslində bu da rəsmi Bakının xeyrinə işləyə bilər. Çünki AB ölkələrinə üz tutanlar sonra beynəlxalq təşkilatlarda Azərbaycanın "üz qarası"na, başağrısına çevrilir, ölkənin nüfuzuna xələl gətirir...

❑ **"YM"**

# ÜAK-ın ləğv olunması iddiası ilə bağlı yeni gəlişmələr

## Elçin Mirzəbəyli: "Rusiyanın iddiaları böyüdükcə xarici siyasəti cılızlaşır"



**Rusiya Ədliyyə Nazirliyinin iddiası ilə Ümumrusiya Azərbaycan Konqresinin (ÜAK) ləğvi ilə bağlı Ali Məhkəmədə keçiriləcək məhkəmə prosesinin təxirə salınması bir sıra müzakirələrə yol açıb.**

Azərbaycan tərəfdən göstərilən ciddi təpkinin səmərə verdiyi bildirilir. Xüsusilə ölkə parlamentinin son iclasında bu məsələnin geniş müzakirə olunmasının müsbət nəticələr verdiyi, Rusiya tərəfin geri çəkildiyi barədə fikirlər yer almağa başlayıb.

**Politoloq Elçin Mirzəbəyli** hesab edir ki, Rusiya Ədliyyə Nazirliyinin iddiasının məhkəmə tərəfindən təmin olunmaması ilə bağlı kifayət qədər əsaslar var: "Bildiyiniz kimi, Rusiya Ədliyyə Nazirliyinin ÜAK-ın ləğvi ilə bağlı iddia ərizəsinə baxılması iddiaçı tərəf məhkəməyə gəlmədiyinə görə təxirə salınıb. Rusiya İnzibati Prosessual Məcəlləsinə əsasən, əgər iddiaçı üzürsüz səbəbdən 2 dəfə məhkəmənin iclasına qatılmazsa, o zaman iddiaya baxılmasından imtina oluna bilər. Rusiyada fəaliyyət göstərən qeyri-kommersiya təşkilatları Ədliyyə Nazirliyində qeydiyyatdan keçir və dövlət reyestrinə salınırlar. Onların fəaliyyətinin qanuniliyinə də Ədliyyə Nazirliyi nəzarət edir. Rusiya qanunvericiliyinə görə, əgər hər hansı qeyri-kommersiya təşkilatının sənədlərində və fəaliyyətində, eləcə də onların müvafiq dövlət qurumlarına, o cümlədən Vergilər Nazirliyinə təqdim etdikləri hesabatlarda hüquq pozuntuları aşkarlanıbsa, bununla bağlı onlara rəsmi xəbərdarlıq olunmalı və bu pozuntuların aradan qaldırılması üçün vaxt verilməlidir. Bildiyim qədər Ədliyyə Nazirliyi bu proseduranı həyata keçirmədən məhkəməyə müraciət edib. Bu isə iddianın təmin olunmaması üçün kifayət qədər ciddi əsasdır. Hər halda, məhkəmənin növbəti iclasında bu məsələlərə aydınlıq gətiriləcək. Yalnız o zaman mənzərəni obyektiv dəyərləndirmək mümkün olacaq. Əslində Rusiya kimi bir ölkə üçün belə məsələlərdən təzyiq vasitəsi kimi istifadə etmək utancverici bir görüntü yaradır. Təəssüf ki, Rusiyanın iddiaları böyüdükcə xarici siyasəti cılızlaşır. Əslində belə məsələlərdən siyasi təzyiq vasitəsi kimi istifadə olunması Rusiyanın öz maraqlarına uyğun deyil. İndi Rusiya postsovet məkanında inteqrasiyaya nail olmaq istəyir. Kreml Avrasiya İqtisadi İttifaqına, KTMT-yə "gəl-gəl" deyir, amma bu qurumların nə iqtisadi, nə də siyasi cazibədarlığını artıra bilmir. Digər tərəfdən, postsovet ölkələrini nəzarətində saxlamaq üçün münaqişələrdən istifadə edən Rusiyadan hansı ölkə öz təhlükəsizliyinə təminat ala bilər?"

**Politoloq Azərbaycan parlamentinin son iclasında verilən mesajlara da toxundu:** "Parlamentin toplantısında səslənən fikirlər kifayət qədər arqumentləşdirilmişdi və ola bilsin ki, bu, məhkəmənin iclasının təxirə salınmasında bu və ya digər şəkildə rol oynayıb. Parlamentdə də qeyd olundu ki, Azərbaycandakı rus icmasının sənədlərində də kifayət qədər problemlər var. Bu isə o demək idi ki, Azərbaycanda nəyin baş verdiyinin fərqindədirlər və məsələyə hüquqi don geyindirmək mümkün olmayacaq. Parlamentdəki çıxışlar önəmli mesaj kimi qəbul olunmalıdır. Çünki açıq şəkildə qeyd olundu ki, hər hansı yanlış qərar siyasi münasibətlərə də ciddi təsir göstərəcək. Bu məsələ siyasi məsələdir. Söhbət böyük və güclü bir diaspora təşkilatından gedir. Ermənilərin təsiri də bir yerə qədər ola bilər. O da Rusiyanın müvafiq qurumları bunu istəyərlərsə... Ermənistan və ermənilər Rusiyanın dövlət maraqları ilə bağlı məsələlərə təsir etmək gücündə deyillər. Rusiyanın Ədliyyə Nazirliyinin hansısa ermənin istək və arzusu ilə azərbaycanlıların diaspor təşkilatının ləğv edilməsi üçün məhkəməyə müraciət etməsini düşünmək belə gülüncdür".

**E.Mirzəbəyli sənədləşmə məsələsinin bəhanə olduğu qənaətindədir:** "Bu, bəhanədir. Belə problemlər Ədliyyə Nazirliyinin müraciəti ilə aradan qaldırıla bilər. Digər tərəfdən, mən ÜAK-ın qurultayında qurumun ləğvinə əsas verəcək hüquq pozuntusuna yol verildiyini də düşünmürəm. Hansısa kiçik problemlər var və axtarsan bu problemləri Rusiyada fəaliyyət göstərən bütün qurumların fəaliyyətində tapmaq olar. Ola bilsin ki, bu bəhanəni elə Rusiyanın müvafiq qurumları, yaxud onların idarə etdiyi şəbəkənin nümayəndələri sonradan istifadə etmək üçün məqsədyönlü şəkildə yaradıblar. Düşünürəm ki, bu fakt Azərbaycana həm də diaspora qurumlarının fəaliyyəti ilə bağlı ciddi araşdırma aparmağa və müəyyən nəticələrə gəlməyə də imkan verir. Baş verənlər həm də həyəcan siqnalı kimi qəbul olunmalıdır".

Qeyd edək ki, ÜAK-ın növbəti məhkəməsi aprelin 25-də keçiriləcək.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 76 (6690) 13 aprel 2017

# "Bütün bunlar dəhşətli bir yuxu idi..." - ABŞ həbsxanasına düşən azərbaycanlı

## Amerika türməsində 25 gün cəza çəkən azərbaycanlı Samir Kazımov yaşadıqlarını danışır: "Mən bir erməni tərcüməçinin qəsdən yanlış tərcüməsinin qurbanı oldum"

**Xarici ölkələr heç də hər zaman turistlər üçün şirin röya olmur. Yeni ölkə, yeni insanlar, kəşf ediləsi məkanlar... Bura qədər hər şey gözəl olsa da, bəzi təhlükələri də yaddan çıxarmamaq lazımdır.**

*"Yeni Müsavat"ın bu yaxınlarda yekunlaşan Amerika yazılar seriyası oxucuların diqqətini cəlb edib. Redaksiyaya zəng edib, Amerika səfəri gerçəkləşdirmək üçün məsləhət istəyənlər, orada yaşamağın yollarını axtaranlar bəs deyincədir... Amma qanunları tam bilməmək, kiçicik bir texniki yanlışlıq belə sizə Amerikanın o biri üzünü göstərə bilər. Mart ayında San Fransiskoya səfər edən musiqiçi Samir Kazımovun nümunəsində olduğu kimi. Kiçicik bir texniki xəta onun yolunu Amerika türməsinə salıb. Özü də nə az, nə çox, düz 25 gün....*

*25 günlük Amerika məhbəs həyatından sonra Azərbaycana qayıdan S.Kazımovla yaşadıqları barədə danışdıq.*

***- Samir bəy, Amerikaya üçüncü səfəriniz olsa da, sonuncusunda Amerika sizi gülərüzlə qarşılamadı. Həbsinizin səbəbi nə idi?***

- Səbəb miqrasiya haqqında qanunları dəqiqliyi ilə bilməməyim idi. Mənim viza tipim turist viza tipi idi. Gömrükdə sual olundu ki, buraya gəlişinizin məqsədi nədir. Yanlışlıqla dedim ki, konsertə gəlmişəm, çıxış edəcəyəm. İzah etdim ki, Novruz bayramı ilə bağlı bizim milli adət-ənənələrimizdən irəli gələn qutlama tədbirlərində çıxış etmək üçün bura gəlmişəm. O zaman dedilər ki, demək, siz bura pul qazanmaq üçün gəlmisiz. Burda əsas məsələ maddiyyatdır. Mən dedim ki, bizim cəmiyyətin təşkil etdiyi konsertlərdə bu günə qədər maddiyyat olmadığı üçün bu günə qədərki heç bir konsertdən mən gəlir əldə etməmişəm. Müğənnilər, musiqiçilər hətta kiçik bir məbləğdə də olsa, qonorar əldə etməyib. Sadəcə, yol və qalmaq xərcləri ödənilib. Bunu desəm də, gördüm ki, Amerika milli-mənəvi dəyərlərə yox, qanunlara söykənən ölkədir. Onları belə bir tədbirdə sırf milli təəssübkeşlik məqamlarına görə, qonorarsız iştirak etdiyinə inandıra, anlada bilmirsən. Sual verirlər ki, sən necə 20 saat uçuşda olursan, 13 min kilometr məsafə qət edirsən, təyyarə ilə gəlib çıxırsan Amerikaya və heç bir maddi umacağın da yoxdur? Bunu sıravi bir amerikana anlada bilərsən ki, biz xalqımızın milli adət-ənənələrini yaşatmaq üçün qonorarsız bir tədbirdə iştirak etmək istəyirik. Amma qanunlar qarşısında bu məsələ bir qədər inandırıcı görünmür və şübhələrə səbəb olur. Qanunları qoruyan güc strukturları, gömrük xidməti əməkdaşlarına bunu anlatmaq mümkün olmadı.

***- Siz sənətçisiz və San Fransiskoya da Kaliforniya Azərbaycan Mədəniyyət Cəmiyyətinin təşkilatçılığı ilə keçirilən Novruz bayramı tədbirlərinə qatılmaq üçün dəvət olunmuşduz...***

- Mənim turist vizam vardı. Məni ora dəvət edənlər də bunu bilirdilər. Mənim vizam açıqdır və gəlişim üçün problem yoxdur deyə bilirdilər. Sonradan mənə orda başa saldılar ki, musiqiçilər, müğənnilər üçün başqa viza növü var. Mənim açıq turist vizam olsa belə, səfərimin məqsədi dəyişirsə, ABŞ-ın Azərbaycandakı səfirliyinə müraciət etməliyəm və bildirməliyəm ki, 2 dəfə Amerikaya turist kimi getmişəm, bu dəfə musiqiçi kimi getməliyəm. P1, P2 və P3 tipli viza növləri var. Viza tipi dəyişsə idi, bütün bu problemlər yaşanmazdı.

***- Proses necə davam etdi, mərhələ-mərhələ anlada bilərsizmi?***

- Gömrüyə yaxınlaşanda suallar yarandı. Çünki mənim qayıdış biletim mayın 31-nə idi. Mənsə burdan martın 11-də uçmuşam. Sual olundu ki, nə üçün qayıdış biletinizi bu qədər uzun müddətə almısız? Dedim ki, mən qayıdış biletimi Nyu-Yorkdan almışam. Çünki məqsədim Nyu-Yorku da gəzmək, dolaşmaqdır. Bu qədər vaxt da mənə gəzinti üçün lazımdır. Orda birinci xətt və ikinci xətt deyilən yerlər var. Birinci xətdə məndən soruşdular ki, siz Amerikadan nə vaxt çıxmısız axırıncı dəfə? Amerikadan çıxış möhürü vurulmur pasportda. Girişdə baxırlar ki, 1 illik vizan var. İki-üç sual verirlər, əgər cavabların qane edirsə, pasportuna 6 aylıq möhür vurulur. Qalmaq imkanı verir sənə. Əgər hansısa bir Azərbaycan vətəndaşı fikirləşirsə ki, mən ikinci dəfə də gedib, o yarım ildən istifadə edim, bu, yanlışdır. Hökmən orda 6 ay qalmaq lazım deyil. Bu, gələcəkdə Amerikaya qayıdışda sənə problem yarada bilər. Çünki adama sual edirlər ki, axı sən girişdə biletini göstərmisən ki, 20 gün sonra qayıdırsan. Nə üçün 6 ay qalırsan? Girişdə səndən soruşulsa ki, üstündə nə qədər pul var və sən bu suala "2 min dollar" deyə cavab verib, 6 ay qalmaq istədiyini desən, onlarda avtomatik olaraq şübhə yaranır ki, sənin burda işləmək və qazanc əldə etmək fikrin var. Çünki iş icazən olmayanda sən qeyri-leqal şəkildə işləyirsən, vergidən də yayınırsan. Bu isə cinayətdir.

***- Və beləcə sizə sərhəddə bu sualı verdilər. Cavabınız şübhə doğurdu. Ardınca nə baş verdi?***

- Soruşuldu ki, sonuncu dəfə Amerikada nə zaman olmusuz və nə zaman qayıtmısız? Cavab verdim ki, sentyabrın 28-də gəldim, yanvarın 13-də çıxmışam. Mənə dedilər ki, sistem bunu göstərmir. İzah etdim ki, bu, belədir. Mən başqa hardan gələ bilərəm ki? Dedilər ki, gömrükdəki ikinci xəttə keçim. Uzaq yol gələnlər bilirlər ki, 20 saat boyunca təyyarə səfəri edən adamın sonda durumu necə olur. Bu 20 saatlıq səfərdən sonra da 6 saat boyunca sorğu-sual başlandı. Bu müddət ərzində pasportum, əşyalarım gətirildi. Sonra başqa bir əməkdaş tərəfindən sorğu-suala tutuldum. Bir qadın tərcüməçi təyin etdilər. Qadın dedi ki, mən özüm Bakıdanam. Sonra soruşdu ki, nə səbəbdən gəlmisiz? Bildirdim ki, San Oze şəhərində konsertdə çıxış edəcəm. Onları da qonorarsız çıxış edəcəyimə inandıra bilmədim. Sonra niyə sürücülük vəsiqəm olduğunu soruşdular. Dedim ki, piyada gəzməyi xoşlamıram. Amerikada da ictimai nəqliyyatdan istifadə çətindir. Bir dayanacağa getmək üçün 20-25 dəqiqəlik yol qət etməlisən. Üstəlik, maşın kirayə edəndə Amerikadaxili səyahət də edə bilirsən. Los Ancelesə, Hollivuda getmək imkanın da olur. Sonra soruşdular ki, niyə tibbi sığortanız var? Bildirdim ki, səhhətimdə problem var. Daha öncə Amerikada olanda bir dəfə səhhətimdə yaranan problemə görə 14 min dollar ödədim. Cəmi bir gecəlik xəstəxanada qalmağıma görə. Mən də bunu ödəyə bilmədiyim üçün sosial müdafiəyə müraciət etdim və səhiyyə sığortası təyin etdilər.

Dedilər ki, sizin burda qalmaq fikriniz olduğu üçün bütün bunları etmisiz. Mən də dedim ki, qalmaq fikrim olsaydı, birinci və ya ikinci dəfə gələndə burda qalardım. Ölkəmdə, şükür Allaha, qazancım var, yaşayıram. Mənim ölkəm mənim üçün yaxşıdır.

***- Sorğu-sual 6 saat davam etdi deyirsiz...***

- Mən saata baxanda artıq məlum oldu ki, 10 saatdır ki, aeroportdayam. Tərcüməçi vasitəsilə onlara dedim ki, mən bu ölkəyə turist olaraq gəlmişəm, başqaları kimi qaçqın olaraq gəlməmişəm. Mən artıq həbs olunandan sonra bu intervünün mətni mənə təqdim olunanda gördüm ki, dediklərimi tam tərsinə yazıblar. Guya mən bunlara demişəm ki, mən sizdən qaçqınlıq istəyirəm. Sonrakı mərhələdə mənə tutulan vəkil sübut etdi ki, ortada tərcümə xətası olub və mənim ana dilim rus yox, Azərbaycan dilidir. Sonra tərcüməçinin adına baxdım. Gördüm ki, Ladadır. Bu isə yüz faiz onun erməni olduğunu sübut edir. Məndən öncə də musiqiçilər olub ki, gömrükdə çalışan ermənilər onlara qarşı bu cür davranış sərgiləyiblər. Aeroportun baqaj yerində çalışan ermənilər çoxdur. Bir musiqiçinin alətini qəsdən sındırmışdılar. O insan yenidən gəlib burda musiqi aləti aldı. Mənim situasiyamda da əminəm ki, bu məsələ erməni tərcüməçinin qəsdən, bilərəkdən yanlış tərcüməsinə görə bu hala düşdü.

***- 10 saatlıq sorğu-sual nəticəsində siz öz durumunuzu heç kimə izah edə bilmədiz. Bunun ardınca dərhal sizi həbs etdilər?***

- İki nəfər polis əməkdaşı gəldi. Sonra qoluma qandal vuruldu və tanımadığım yerə gətirildim. Sonradan məlum oldu ki, Martines deyilən yerə gətirilmişəm. Orada məhbusları müvəqqəti saxlayırlar və ordan bölüşdürülür. Bir gün orda qaldım, yenidən gecə ilə San Fransiskoya qaytardılar. Həmin vaxt mənim səhhətimdə də ciddi problemlər yarandı. Miqrasiya xidmətinin ofisindəki müvəqqəti saxlanma təcridxanasında saxlananda ürəkgetməm olub. Bu, epilepsiya ilə bağlı idi. Mənim daha öncə də bu problemim vardı. Amma səbəbini başqa cür bilirdim, Amerikada öyrəndim ki, səbəb başqa imiş. Ayıldım gördüm ki, xəstəxanadayam. 1 gün qaldım. Bütün müayinələr aparıldı, beyin tomoqrafiyası olundu. Həmin vaxt özümdə olmamışam. Amerikada insanı ölməyə qoymurlar. Məni ordan xəstəxanadan çıxardılar. Soruşdum ki, hara gedirik? Dedilər, Yuba şəhərindəki türməyə. San Fransiskodan 3 saatlıq məsafədə idi. Orda qəbul etmədilər. Dedilər ki, səhhəti ilə bağlı xəstəxanaya aparın, durumunu düzəldin, sonra gətirin. Yubaya gətirildim, paltarlarımı aldılar əlimdən.

***- 25 gün bu həbsxanada qaldız?***

- Bəli.

***- Biz Amerika türmələrini filmlərdən görmüşük. Bəs real mənzərə necədir? Türmə şərtləri, orda verilən yeməklər, saxlanma şəraiti necə idi?***

- Amerikanın özünəməxsus mətbəxi yoxdur. Fast-fooddur onlarda əsasən. Orda iki tip türmələr var. Mən yerləşdirildiyim blokda miqrasiya qanunlarını pozmuş insanlar saxlanırdı. Mənim qaldığım türmədə bir günlük cəza iki gün sayılırdı. Burda gün üzü görmürsən. Başqa türmələr var ki, orda açıq hava var, məhbuslar çıxıb hava alır, top oynayırlar. Burda isə həkim nəzarəti altındasan, istənilən vaxt sənə müdaxilə edirlər. Bu hadisədən sonra mən iki dəfə ürəktutması keçirdim. Amma məhbusa hər hansı şiddət yoxdur.

***- Təkadamlıq kamerada idiz?***

-Yox, 50 nəfərlik. Hərənin öz yatağı var, ikimərtəbəli yataqlar.

***- Daha çox hansı millətdən məhbuslar var idi?***

- İki nəfər pakistanlı idi, bir nəfər eston vardı, bir nəfər də rus. Qalanları hamısı meksikalı idi. Onların içində insanlar vardı ki, Green Kardları olsa da, ölkədə hansısa cinayət edir. Cəza müddətləri bitən kimi miqrasiya xidməti tərəfindən götürülür türmədən və başqa bir türməyə göndərilir. Yəni sən artıq arzuolunmaz şəxssən. Vətəndaş olsa, cəzasını çəkəndən sonra evinə qayıdar. Ordan da o insanlar vəkil tutur, məhkəmələrə müraciət edirlər.

***- Bəs gündəlik rejim necə idi?***

- Səhər saat 6-nın yarısında dururduq. Səhər yeməyi verirdilər.

***- Nə olurdu menyuda?***

- İri bir padnos, içində də 2-3 çeşiddə yemək olurdu. Sup, Meksika yeməyi olan burito, lavaşa bükülü ət, desert üçün pudinq, ya keks. Yanında sok gətirirdilər. Təbii şoklardan deyildi. "Paraşok" soku idi. Gündə 3 dəfə yemək verirdilər. Amma orda yemək haqda düşünmürsən.

***- Məhbusun başqa hansı hüquqları olur? Telefonla zəng etmək, hamamdan istifadə...?***

- Telefonla zəng etmək hüququn var. Sənin zəng etdiyin insan öz kartından balansına pul qoyur. Sən zəng edə bilirsən, dünyanın istənilən ölkəsinə. Həftədə iki dəfə sənin öz balansında pul varsa, siyahıya müvafiq olaraq özünə ərzaq sifariş edə bilirsən. Kakao, peçenye, kofe... Komissariat bunu sənə gətirir.

***- Öz balansınızda pul olması üçün Azərbaycandakı yaxınlarınız pul köçürməli idi, ya necə?***

- Xeyr, həbs olunan zaman mənim üzərimdəki pulu əlimdən alıb, hesabıma yatırdılar. O puldan istifadə edərək, içəridə sifariş verdiyim ərzaqları ala bildim. Amma telefonla danışmaq üçün iki nəfər dostum mütəmadi olaraq balansa pul qoyurdular ki, danışa bilək. Çünki bütün yaxınlarım məndən narahat idi.

- Açıq havanı heçmi görmədiz?

- O 25 gün ərzində mən iki dəfə açıq havaya çıxdım. Əslinə qalsa, həftədə 3 dəfə məhbusları çıxarmalıdılar. Bəlkə də onlar məhbusları çıxaranda mən yatılı olmuşam, deyə bilmərəm. Amma açıq havaya çıxmaq necə idi? Uzun bir hasar idi, ancaq göyü görə bilirsən. Açıq hava şəraiti deyə bilməzsən buna. O da cəmi bir saat-saat yarım.

***- Məhbus geyiminiz necə idi?***

- Qırmızı rəngdə şalvar. Narıncı rəngdə geyinənlər seçilirdilər. Onları şüşənin o biri tərəfindən görürdük. Onlar Amerika vətəndaşları idi və yüngül-ağır cinayətlər törətmişlər idi. Amma nə məhbuslar, nə nəzarətçilər tərəfindən şiddət görmədik. Yeganə problem düşdüyün situasiyanın səbəbini anlamırsan. Orda cəmi bir rus məhbus vardı ki, o olmasaydı, yəqin mən dəli olardım. Adam nə qədər divarla danışar ki? Şok bir həftə davam etdi. Bir həftə sonra məhbuslar yaxınlaşdı və təsəlli verdilər ki, ən azı 1 aya çıxacaqsan. Burdasansa şahmat oyna, tennis oyna, başını qat.

***- Bəs azadlığa çıxma prosesiniz nə zaman başladı?***

- 17 gün sonra vəkilin köməyi ilə miqrasiya xidmətinin əməkdaşı tərəfindən sorğuya gətirildim. Məndən üzr istənildi, hüquqlarım mənə izah edildi ki, siz bizdən belə şikayət edə bilərsiz. Çünki qanunsuz saxlanmısız. 48 saatdan sonra sizinlə görüşülməli idi, amma olmayıb. Mənə suallar oldu ki, burda qalmaq istəyirsizmi? Dedim ki, ölkəmə qayıtmaq istəyirəm. 5-6 dəfə mənə bunu təklif etdilər ki, qalmaq istəyirsizsə, nəzərə ala bilərik. Dedim, ölkəmdə heç bir problem yoxdur. Lap olsa belə, istəmərəm ki, ölkəmdən kənarda başqasına bu haqda şikayət edəsən. Bu gün dünyada yaşanılan hadisələri görəndə bir daha əmin olursan ki, Azərbaycandan gözəl, təhlükəsiz, sağ-salamat yer yoxdur.

***- Yaşadıqlarınızı bir Amerika gündəliyi kimi qələmə almaq, kitab halında nəşr etmək istəyərsizmi?***

-Yuba həbsxanasının tarixində orda qalan ilk azərbaycanlı mən olmuşam. Bütün yaşadıqlarımı.... yaza bilərəm....



❑ **Sevinc TELMANQIZI**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT

N 76 (6690) 13 aprel 2017




# ATƏT-in "tufanqabağı sakitlik" öncəsi yaydığı Qarabağ hesabatı nəyi dəyişəcək?

## Münaqişənin həlli ilə bağlı "5 qəpiklik" iş görməyən ATƏT-ə 45 408 avroluq yardım etmişik; Ermənistanın təcavüzkar siyasətinə, sülh danışıqlarından imtina etməsinə beynəlxalq qurumdan ciddi reaksiyanın olmaması suallar yaradır; Qarabağın həll prosesi "ölü qurum"dan alınıb BMT-yə həvalə oluna bilərmi?

**Ermənistandakı parlament seçkilərindən sonra Qarabağ danışıqlarında hansısa irəliləyişlərin olacağı barədə bəzi müşahidəçilərin gözləntiləri hələ ki reallaşmayıb. Belə görünür ki, ölkədəki seçki prosesindən bəhanə olaraq yararlanaraq danışıqlardan yayınan İrəvan "status-kvo"nun saxlanması üçün maksimal surətdə əlindən gələni edir.**




Əslində Ermənistan parlamentinin müharibə tərəfdarlarından, daha da konkretləşdirsək, Qarabağda separatçılığın yayılmasında, sonrakı mərhələdə başlanan müharibədə törədilən cinayətlərdə iştirak etmiş ünsürlərdən təşkil olunması, Levon Ter-Petrosyanın şəxsində güzəştli sülh tərəfdarlarının kənarda saxlanması birmənalı qarşılanmır. Xüsusilə də 2018-ci ilin aprelində Serj Sərkisyanın səlahiyyətlərinin başa çatacağına işarə edən müşahidəçilər işğalı ölkədə yeni hakimiyyətin formalaşmasının danışıqların daha bir neçə il uzanması fürsəti yaradacağını güman edirlər. Ona görə də hesab olunur ki, Sərkisyanın rəhbərlik etdiyi Respublikaçılar Partiyasının formalaşdıracağı hökumət Azərbaycana daha çox sərf edir, nəinki yeni hansısa qüvvə. Yəni artıq Sərkisyan hakimiyyəti bütün iç üzünü ortaya qoyub, onunla danışmaq, bu alınmasa, danışıqlardan imtinanı əsas gətirib torpaqların hərb yolu ilə azad olunmasına qərar vermək daha məqbul yol sayılır.

Düzdür, hələ ki Levon Ter-Petrosyan 2 aprel seçkilərinin nəticələri ilə barışmaq niyyətində deyil və Konstitusiya Məhkəməsinə də şikayət etməyi düşünür. Lakin Ermənistanı gecikmədən sülh imzalamağa çağıran eks-prezidentin ölkədə vəziyyəti dəyişmək imkanlarının olmadığını hər kəs gördü. Eks-prezident Robert Köçəryanın dediyi kimi, kasıb erməni seçicisi öz səsini 8 dollara Sərkisyan rejiminə satdı.

Ancaq bu, erməni xalqının problemidir və bundan sonra Qarabağ ətrafında baş verəcək hadisələr Azərbaycanı daha çox maraqlandırır. Hər halda, Bakının prinsipial mövqeyində hər hansı dəyişiklik yoxdur və bunu Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarovun Polşada estoniyalı həmkarı Sven Mikserlə görüşü zamanı dedikləri bir daha təsdiqləyir. "Dağlıq Qarabağ münaqişəsinin həlli və regional əməkdaşlıq mühitinin yaradılması üçün Ermənistan qoşunları Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalıdır" - nazir bəyan edib. E.Məmmədyarov qeyd edib ki, Avropa İttifaqı tərəfindən dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyinə hörmət məsələsində vahid yanaşmanın tətbiq edilməsi vacibdir. Ermənistanın davranışları isə ondan xəbər verir ki, işğalçı geri çəkilmək niyyətində deyil.

**Bu arada Avropa Parlamentinin sabiq prezidenti və alman sosial-demokratların lideri, qarşıdakı Bundestaq seçkilərində indiki kansler Angela Merkelin əsas rəqibi sayılan Martin Şultsun Qarabağ məsələsinin həllinə də ciddi təsir edə biləcək ideyası diqqəti özünə cəlb edib.** "Mən hesab edirəm ki, alman xarici siyasəti Avropa Birliyinin siyasəti çərçivəsində böhranların önlənməsinə, inkişaf sahəsində daha sıx əməkdaşlığa və beynəlxalq institutların gücləndirməsinə stavka eləməlidir. Bu xüsusda bizim prinsipimiz ondan ibarətdir ki, bütün beynəlxalq konfliktlər BMT rəhbərliyinə qaytarılmalıdır", - deyə alman siyasətçi vurğulayıb. Uzun illərdir "ölü quruma" çevrilən ATƏT-in Minsk Qrupunun həmsədrlərinin fəaliyyətsizliyi, prosesin sonsuzluğa qədər uzadılması fonunda səsləndirilən BMT ideyası çox cəlbedicidir.

**Politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a aşıqlamasında dedi ki, Dağlıq Qarabağ münaqişəsinin həllinin BMT çərçivəsində müzakirəsi Azərbaycanın maraqlarına cavab verir:** "Çünki bu təşkilatın torpaqlarımızın azad olunması ilə bağlı 4 qətnaməsi var və onlar yerinə yetirilmir. BMT-də müzakirələr başlayarsa və ya münaqişənin həllinə bu təşkilat məsul olarsa, Azərbaycanın haqqını tələb etmək imkanı yaranacaq. Ancaq təəssüf ki, müzakirələrin ATƏT müstəvisindən BMT müstəvisinə keçməsi mümkün deyil. Bunun iki səbəbi var. Birinci səbəb odur ki, Minsk Qrupu ATƏT-ə bağlıdır və bu formatı bir başqasıyla əvəz etmək çətindir. İkincisi, BMT-nin özü Dağlıq Qarabağla məşğul olmaq istəmir, topu ATƏT-ə atır. Ermənistanda Qarabağ müzakirələri genişlənib. Bu bizim xeyrimizədir. Bu müzakirələrin başlanmasında aprel döyüşlərinin və işğalçı ölkənin verdiyi çoxsaylı itkilərin də təsiri var. Çünki Ermənistan vətəndaşları ölkə hüdudlarından kənarda nə xidmət etmək, nə də ölüm təhlükəsi ilə üzləşmək istəyir. Ona görə də Ermənistanın siyasi dairələrində və cəmiyyətində Qarabağla bağlı diskussiyalar genişlənir. Anlamağa başlayıblar ki, Azərbaycan və Türkiyə ilə əbədiyyətə qədər düşmənçilik Ermənistanı uçuruma aparır. Nə qədər Ermənistan Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmayıb, bu ölkənin səfalətdən qurtulması mümkün deyil. Doğrudur, hakimiyyət hələ ki bu diskussiyaların genişlənməsində maraqlı deyil. Ancaq bu mövzunu başqaları qaldırır və hakimiyyət reaksiya vermək məcburiyyətindədir".

Bu arada ATƏT növbəti, 2016-cı il üçün illik hesabatında Qarabağ məsələsinə yer ayırıb və mövqeyində ənənəvilikdən irəli gedə bilməyib. "Ötən il Dağlıq Qarabağda cəbhə xəttindəki gərginliyə və ümumilikdə danışıqlar prosesində irəliləyişin az olmasına baxmayaraq, ATƏT münaqişələrin sülh yolu ilə davamlı həllinə səy göstərməkdə davam edir" - sənəddə deyilir. Hesabatda həmçinin bildirilir ki, 2016-cı ildə Azərbaycanın ATƏT-ə yardımı 45 408 avro təşkil edib.

Əslində Azərbaycan quruma, sadəcə, artıq pul verib. Çünki bu təşkilat münaqişənin həlli naminə 5 qəpiklik belə iş görə bilməyib, yaxud görməyib. Keçən ilin hesabatında Ermənistanın işğalçı siyasəti, təxribatları, Şuşada saxlanılan girov vətəndaşlarımız, mülki əhalinin hədəfə alınması və digər faktlar əksini tapmayıb, işğalçı ilə işğala məruz qalan arasında bərabərlik işarəsi qoyulub. Belə çıxır ki, bu qurum, sadəcə, öz varlığının nümayişi üçün çalışır və ənənəvi bəyanatı, hesabatı, bölgəyə səfərləri də yalnız buna xidmət edir.

Politoloq E.Şahinoğlu da hesab edir ki, ATƏT-in Minsk Qrupu tükənib. "Poblemi həll etmək üçün fəaliyyət göstərmir, yeganə dərdi atəşkəsin uzanması və nə vaxtsa münaqişənin həllinə nail olmaqdır. Bu isə bizim maraqlarla daban-dabana ziddir" - ekpert bildirdi.

**Politoloq Elçin Mirzəbəyli isə qəzetimizə dedi ki, Ermənistanda keçirilən seçkilərin Qarabağ məsələsinə təsir edəcəyi barədə hər hansı bir gözləntisi olmayıb:** "Seçkidən öncə bunu sizinlə söhbətimizdə də qeyd etmişdim və bildirmişdim ki, Ermənistan yaranmış vəziyyətdən danışıqlar prosesinin uzadılması və mövcud status-kvonun qorunub-saxlanılması üçün istifadə edəcək. Ermənistanda konfliktin həlli müstəvisində üzə çıxan ziddiyyətləri isə iki aspektdən dəyərləndirmək olar: bunlardan biri süni şəkildə yaradılmış ziddiyyətlərdir ki, Sərkisyan və onun peyk partiyaları və təşkilatları tərəfindən həyata keçirilir. Bu həm ölkə daxilində mövcud olan real ziddiyyətlərin kölgədə qalmasına və real təşəbbüsə çevrilməsinin qarşısının alınmasına xidmət edir, həm də Ermənistan hakimiyyətinə ictimai rəyə istinad etməklə manipulyativ davranışlar sərgiləməyə imkan yaradır".

**Siyasi şərhçinin sözlərinə görə, Dağlıq Qarabağ məsələsində Ermənistan hakimiyyəti ilə gerçəkdən fikirləri haçalanan və əks mövqedən çıxış edən qüvvələr isə real güc sahibləri deyillər:** "Diqqət yetirsəniz, seçkiyə "Yaxın qonşuluq və sülh" şüarı ilə qatılan yeganə siyasi qüvvə - Erməni Milli Konqresi və onun lideri Levon Ter-Petrosyan seçki zamanı baş verən saxtakarlıqlara demək olar ki, heç bir reaksiya vermədi. Hətta hakim partiyadan başqa parlamentə düşən digər siyasi partiyalar seçkilərin total şəkildə saxtalaşdırıldığını bəyan etdilər, amma Ter-Petrosyan yeni seçilən parlamentin üzvlərini təbrik etməklə kifayətləndi və dolayısıyla məğlubiyyətini etiraf etdi. Bu həm də "Yaxın qonşuluq və sülh" şüarının iflasa uğradığının etirafı kimi də dəyərləndirilə bilər. Ehtimal oluna bilər ki, bu, öncədən və məqsədyönlü şəkildə düşünülmüş bir strategiya olub. İndi bu barədə dəqiq fikir söyləmək çox çətindir. Problem ondadır ki, işğal prosesinə son qoyulmasının və sülhün tərəfində olanlar real siyasi gücə malik deyillər. Amma məsələnin digər tərəfi də var: bir müddət öncə Ermənistanda torpaqların Azərbaycana qaytarılmasından danışmaq belə mümkün deyildi. Bu barədə danışanlara ən yaxşı halda "xəyanətkar" damğası vurulurdu. Amma Ter-Petrosyan başda olmaqla, Erməni Milli Konqresi bu barədə danışdı və linç olunmadı. Bu isə öz növbəsində Ermənistanda mövcud olan və rejimin sərt ideoloji təbliğatı əsasında formalaşmış tabuları sıradan çıxardı".

**E.Mirzəbəyli mövcud vəziyyətdə düşmən ölkədəki durumun aşağıdakından ibarət olduğunu vurğuladı:** "Deməli, bundan sonra Ermənistanda sülhdən və işğala son qoyulmasından danışılması üçün manea qalmayıb və rejimin öz rəqiblərini ləkələmək üçün istifadə etdiyi ən kəskin silahı kəsərdən düşüb. Ermənistanda baş verən proseslərin içərisində bizim maraqlarımıza, qlobal anlamda isə həm də erməni xalqının maraqlarına uyğun gələn yeganə məqam budur".

**Politoloq əmindir ki, Sərkisyanın səlahiyyətlərinin bitməsi və davam etməsi heç nəyi dəyişməyəcək:** "İndi real hakimiyyət parlamentdədir. Parlamentdə isə üstünlüyü Sərkisyanın Respublika Partiyası təşkil edir. Qaqik Çarukyanın "Çiçəklənən Ermənistan" Partiyası isə 27 deputatla parlamentdə 2-ci sıradadır. Çarukyan eyni zamanda sabiq prezident Robert Köçəryanla birlikdə Rusiya ilə sıx biznes əlaqələri olan iş adamıdır. Bu isə o deməkdir ki, Respublika Partiyası kimi Çarukyan bloku və "Çiçəklənən Ermənistan" Partiyası da Kreml texnoloqlarının işarələrinə uyğun hərəkət edəcəklər".

Bu ərəfədə "Zərbə KH" pilotsuz uçuş aparatı barədə müdafiə sənayesi naziri Yavər Camalovun açıqlaması Ermənistanda ciddi qorxu yaradıb. İstiPress-in məlumatına görə, erməni hərbi ekspertlər bu açıqlamalara dərhal cavab verərək qorxuya düşmüş erməni ictimaiyyətini sakitləşdirməyə çalışıblar. Y.Camalov hökumətin son iclasında "Zərbə KH" (kumulyativ başlıqlı) pilotsuz uçuş aparatının düşmənin canlı qüvvəsini, hərbi texnikasını və hərbi obyektlərini 100 kilometr məsafədə tam müəyyən etmək və məhv etmək iqtidarında olduğunu bildirmişdi. İşğalçı həm qorxur, hay-küy qaldırır, həm də sülh danışıqlarına qayıtmamaq üçün süni bəhanələr uydurur. Hər halda, şübhə yox ki, sükut çox çəkməyəcək.

Adətən "tufanqabağı sakitlik" olur və ardınca heç kəsin proqnozlaşdırmadığı fəlakətlər yaşanır. Keçən ilin aprel döyüşlərindən qabaq da təmas xəttində bir müddət sakitlik hökm sürmüşdü...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 76 (6690) 13 aprel 2017



# Piter terrorunda satanist izi - Ukraynadan yayılan mesajın sirri

**Aprelin 3-də Sankt-Peterburq metrosunun “Texnoloqiçeskiy institut-2" və ”Sennaya ploşad" stansiyaları arasında baş verən partlayış hələ də dünya mediasının gündəmindən düşmür. Rusiya mətbuatında bununla bağlı maraqlı araşdırmalar aparılıb. Biz həmin araşdırmalardan bəzi seçmələri Azərbaycan oxucusu üçün hazırlamağı qərara aldıq. Beləliklə...**

***

Partlayışın Qırğızıstan əsilli Əkbərcan Cəlilov tərəfindən törədildiyi məlum olduqdan sonra, nəzərlər yenidən Orta Asiya respublikalarına dikildi. Çünki bundan öncə də bir neçə səs-küylü terror aksiyalarını bu ölkələrdən olan şəxslər törədib.

***

Terror aktının vəhşiliyi, qurbanları arasında soydaşlarımızın mövcudluğu, düzü, lap əvvəlcədən məni də xeyli sarsıtdı. Özümdən ixtiyarsız FB profilimə bax bu statusumu yazdım: “Peterburqdakı partlayış Avrasiya ideyasının Bakıda təqdimat günü baş verib. O gün baş avrasiyaçı Nazarbayev Bakıdaydı. O gün Avrasya ideyasının qatı düşməni Bjezinski barmağını havada titrədərək Avrasiya ideyasını təhlükəli adlandırmışdı. Partlayış xüsusi məkrlə, gizli işarələrlə müşayiət olunub. Bu, çox ciddi məxfi mesajdır. Həmin gün Putinin Piterdə olmağı və s.i. də təsadüfi deyil. Deyilənə görə FTX Putinə hadisə yerinə getməyi məsləhət görməyib. Qurbanların arasında əksər Avrasiya ölkələri (Qırğızıstan, Qazaxıstan) vətəndaşlarının olmağı, habelə bu siyahıda Azərbaycan vətəndaşı Dilbarə Əliyevanın mövcudluğu, məncə ciddi xəbərdarlıq mahiyyətlidir.

***

Ancaq indi, faciə üzərindən 10 gün keçdikdən sonra mən bu partlayış barəsində tam fərqli, daha orijinal, həm də daha inandırıcı bir konspiroloji nəticə irəli sürürəm. Kələfin bir ucunu, deyəsən, heç də düşündüyümüz kimi, Orta Asiyada deyil, tam tərs istiqamətdə - Ukraynada axtarmaq lazım gələcək bu dəfə. Yəni Orta Asiya, Qırğızıstan, İŞİD, Əkbərcan Cəlilov mövzusu bu çox qəliz, irəlicədən proqramlaşdırılmış terror aktında bir aldadıcı iz, əslində dezinformasiya nümunəsidir, vəssalam. Nəyə əsaslanıram bunları söylərkən? Heç nə... çox dəqiq, təsdiqlənmiş bir informasiya qaynağına.

Vəziyyət belədir.

3 aprel günü partlayışdan düz 6 saat əvvəl Kiyev qeydiyyatlı İnstagram istifadəçisi Katya Rubanova öz səhifəsində qəribə bir xəbər paylaşıb. Sanki 6 saat sonra Sankt-Peterburqda baş verəcək terror aktının anonsunu verib: “Çoxdandı terror aktları baş vermir... Bu gün isə olacaq. Gözləyin”.

Qorxulu xəbərdarlıq, müəmmalı bir fotoşəkillə müşayiət olunub. Fotoya diqqətlə baxsan, qarşındakı müəmmalı əşyanı avtomobilçi dəbilqəsinə oxşadarsan əvvəlcə. Dəbilqə karton qutunun içindədir. Böyründə, bükülü qəzet səhifəsi gözə dəyir. Ancaq mənzərə həddən artıq aldadıcıdır. Fotoya bir az da diqqətlə baxsanız, onu əlvan qazan qapağına da oxşatmaq mümkündü.

Məlumatın Kiyevdən, “Lukyanovski İstintaq təcridxanası” adlanan coğrafi nöqtədən göndərilməsi faktı da suallar doğurur məndə. Niyə məhz bu ünvandan? Niyə?

Hazırda bu səhifə İnstagramdan pozulsa belə, məlumatın skrinşotu qalır.

Məlumatın müəllifi Katya Rubanova “Neqodovaniye” nikindən istifadə edib bu zaman. “666mələk999, insanları sevmək lazımdı” haşdekləri ilə müşayiət olunan bu məlumatlar bir müddət İnstagram istifadəçilərinə göz verib işıq verməyib. Aləm dəyib bir-birinə.

***

Dövrü mətbuat hələ ki bu məlumata çox da ciddi münasibət sərgiləmir. Mövzunun müzakirəsini sosial şəbəkələrin öhdəsinə buraxır. Bəziləri iddia edir ki, İnstagramda getmiş bu xəbər redaktəyə məruz qalıb. Yəni Katya Rubanova - məlumatın müəllifi, İnstagramdakı bir avara statusunu, fotosunu partlayışdan sonra redaktə edib. Statusunu saxtalaşdırıb bir növ. Ətrafında yanlış mənzərə yaradıb ki, guya partlayış tarixi ona əvvəlcədən çox yaxşı məlum imiş.

“VKONTAKTE” sosial şəbəkəsindəki bir başqa profildən həmin Katya Rubanova barədə əlavə məlumatlar əldə etmək mümkündü. Bəlli olur ki, bəs bu qız şeytanpərəst satanistlər şəbəkəsinə daxildi. Cəmi 18 yaşı var. 2016-cı ildə Kiyevdəki 101 saylı məktəbi bitirmiş bu qızın sosial şəbəkələrdə bir sıra ürəkbulandıran fotoları aşkarlanıb. Bir fotoşəkildə onun alnına şeytanı çağıran pentoqramma həkk edilib. Digər fotoda Katyanın yanağında faşist simvolları-"ziq" runası görünür.

***

Ukraynadakı son siyasi hadisələr zamanı Amerika hərbi kəşfiyyatı “Defense Intelligence Agency” oxşar satanist, psixopat, aşırı millətçi şəbəkələrdən öz məqsədləri üçün istifadə etməsəydi, mən bu satanist Katya Rubanova izinə o qədər də ciddi əhəmiyyət verməzdim. Ancaq bu cür marginal şəbəkələrdən Ukraynada, Rusiyada öz gizli əməliyyatlarını quran ABŞ kəşfiyyatı indi geniş istifadə edir. Satanistlərdən sonra məxfi əməliyyatlara cəlb edilən digər oxşar şəbəkə “doqhanter” adlanır.

***

“Doqhanterlər” bir Amerika brendidir. İrqçiləri, hər cür sado-mazaxistləri, aşırı millətçiləri, müxtəlif psixopatları öz sıralarında birləşdirən bu hərəkat Rusiyaya Ukraynadan gəlib sızıb. Kiyevdəki son narıncı inqilabın, meydan hadisələrinin fəal iştirakçısı kimi tanınan “doqhanter”lər Rusiyada elə ilk günlərdən ciddi müqavimətlə qarşılaşıblar. “Doqhanter”lər zahirdə guya şəhər küçələrindəki kimsəsiz, sələm itlərin ovuyla məşğuldurlar. Qəfil, turp kimi yerdən pıtlayıb çıxır, gördükləri itləri amansızcasına, fərq qoymadan ucdantutma qırırlar. Bir nəfər də onlara irad tuta bilmir, “gözünüz üstə qaşınız var” demir. Əslinə qalarsa...

Əslinə qalarsa, bu ssenari, bu brend arxasında Ukraynada, Rusiyada silahlı müxalifət dəstələri yaratmaq cəhdi gizlənir, biləsiz. Kiyevdə bu məxfi qurumlar söhbəti düşəndə, jurnalistlər adətən bir-birilərinin qulaqlarına Aleksey Vedulun, Aleksandr Svyataqorun, İrina Kremenskayanın adlarını pıçıldayırlar həmişə.

***

Həmin bədnam doqhanterlərin Rusiyadakı ən ciddi əleyhdarı indi bax bu bizim ekstrasens Ziraddin Rzayevdi. Müsahibələrinin birində o, bu hərəkatla İŞİD arasında ciddi paralellər aparıb. İddia edib, bəs bu hər iki hərəkatın sponsorları, mənşəyi eynidir. Hardan götürüb o bu müqayisəni, niyə bunu Rusiya mətbuatında ilk dəfə səsləndirib? Həəə, bax, bu çox dolaşıq düyünü açsaq, kələfin bir ucu bizi götürüb gətirəcək Rusiya Federal Təhlükəsizlik Xidmətinin (FTX) Lyubankadakı məlum ünvanına. Orda başımızı əyib, qulağımıza pıçıldayacaqlar ki, bəs “doqhanter projesi” əslində bir təxribat layihəsidir. Məqsədi nədi? Heç nə, cəmiyyətdəki sado-mazaxist, irqçi, aşırı millətçiləri bir araya toplayıb təşkilatlandırmaq. Sonra silahlandırıb şəhər küçələrinə salmaq. Əvvəlcə ilk təcrübəni kimsəsiz itlər üzərində sınaqdan çıxarmaq. Sonra isə...

***

Sonra isə bütün bu tör-töküntünü, Kiyevdəki kimi, meydanlara çıxarıb son anda onu siyasiləşdirməyə cəhd göstərmək. Silahları bu dəfə itlərə qarşı deyil, cəmiyyətə qarşı çevirmək.

1944-cü ilin 23 fevralında Stalinin xüsusi əmri ilə Şimali Qafqaz xalqları öz doğma yurdlarından zorla ayrılaraq uzaq Sibirə sürgün olunublar. Hadisənin ildönümündə - 2017-ci ilin 23 fevralında Mahaçqalada itlərin gəmirib öldürdüyü bir qız cəsədi tapılır. Yerli doqhanterlər, əslinə qalsa, gizli vəhhabilər, bunu bəhanə edib əllərində silah küçələrə çıxırlar. Başlayırlar əvvəlcə kimsəsiz itlərin kütləvi qırğınına...

Sonra işə FTX qatılır. Şəhərdə kütləvi həbslər start götürüb, növbəti vəhhabi şəbəkəsinin darmadağın edilməsi ilə nəticələnir.

***

Sankt-Peterburqdakı son terror aktları barədə fərqli bir fikir söyləyib, başqa bir iddia irəli sürməyin indi tam vaxtıdır. Bu cinayətin Orta Asiya, türk mənşəyi barədə deyilənlərə gəlin indi çox da qulaq asmayaq. İpucu burda tam fərqli bir ünvana - Kiyevə, burdakı doqhanter, satanist, pank şəbəkələrinə gedib çıxır, vallah.









Son zamanlar xarici kəşfiyyat qurumları Ukraynadakı bu şəbəkələrdən Rusiyada, Qafqazda öz məqsədləri üçün geniş istifadə etməyə başlayıb. “Ana arı” burda Ukrayna doqhanterləri, satanistləri, panklarıdır. Sonuncular, Rusiyada, Qafqazda öz şöbələrini açır, sonra bu əlaqə kanallarını yadelli qüvvələrin istifadəsinə verirlər.

Sonra...

Sonra isə metro qatarlarında, digər ictimai yerlərdə partlayışlar baş verir.

Əkbərcan Cəlilovdan xəbərsiz onun çantasına partlayıcı qurğunu satanistlər qoya bilərmi? İlk baxışdan bu, fantastik ideya kimi görünə bilər. Təbii. Amma gözardı ediləsi məqam da deyil. İndiyədək təcrübədə belə hallar çox olub.

Ola bilsin, iz azdırmaq üçün məlum terrordan sonra mətbuatda Orta Asiya, türk izini şişirtməyə girişiblər.

Əslinə qalarsa, Piter metro stansiyasında bu gün gələcək Avrasya İttifaqının bir növ maketi partladılıb. Maketləri isə Axundovun “Dərviş Məsətli şah” pyesində olduğu kimi, həmişə qara maqlar, qara dərvişlər, satanistlər partladır. Terrorçulardan kim indi bu cür mistik ayinlərə aludədir? Bax bunu öyrənmək lazımdı hazırda.

❑ **Həmid HERİSÇİ**

**Azərbaycanda siqaret və digər tütün məmulatlarından istifadənin qadağan olunması məsələsi yenidən gündəmə gəlib. Belə ki, "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanun layihəsinin son variantı qəbul olunarsa, Bakıda bir çox yerlərdə siqaret çəkilməsi mümkün olmayacaq.**

# Azərbaycanda siqaret qadağası, nəhayət, tətbiq olunacaqmı?

## Fazil Mustafa: "Qanun layihəsi müzakirəyə çıxarılırsa, qəbul olunma ehtimalı böyükdür"

Layihənin 10-cu ("Tütün çəkilməsinə icazə verilməyən yerlər") maddəsinə görə, təhsil və tərbiyə müəssisələri, onların əraziləri, səhiyyə, reabilitasiya və sanatoriya-kurort müəssisələri, onların əraziləri (açıq məkanlar və xüsusi ayrılmış qapalı yerlər istisna olmaqla); mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatlar, iş yerləri (açıq məkanlar və xüsusi ayrılmış qapalı yerlər istisna olmaqla); idman yarışları və başqa kütləvi tədbirlərin keçirildiyi zallar; restoranlar, kafelər, barlar daxil olmaqla, ictimai-iaşə obyektləri (açıq məkanlar və xüsusi ayrılmış qapalı yerlər istisna olmaqla) ticarət, məişət obyektlərində siqaret çəkmək mümkün olmayacaq. Bütün bunlardan başqa siqaretin qadağan olunduğu yerlərə sosial xidmət müəssisələri, yerləşdirmə vasitələri (tütün çəkənlər üçün mehmanxanalarda otaqlar və xüsusi yerlər ayrılmasına icazə verilir); teatr və kinoteatrlar, sirk binaları, sərgi və nümayiş salonları, oxu zalları, kitabxanalar, muzeylər, habelə digər mədəniyyət obyektləri, yerüstü qapalı və yeraltı piyada keçidləri də daxildir. Eyni zamanda bir sıra bu kimi yerlərdə də siqaretin çəkilməsi qadağan olunacaq.

Maddədə o da göstərilir ki, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, bütün müəssisə, idarə və təşkilat rəhbərləri tütün çəkmək üçün xüsusi yerlər ayrılmasını, bu yerlərdən kənarda tütün çəkilməsinin qadağan olunmasını yuxarıda sadalanan qadağan olunmuş yerlərdə "Tütün çəkmək qadağandır!" yazısının və ya işarəsinin olmasını təmin etməlidir. Tütün çəkmək üçün ayrılmış yerlər sanitar-gigiyenik normaların tələblərinə cavab verən şəkildə təchiz edilməlidir.

Layihə uzun müddət müzakirə olunduqdan sonra Milli Məclisin plenar iclasına tövsiyə olunub və aprelin 14-də müzakirəyə çıxarılacaq. Onu da qeyd edək ki, bir sıra xarici ölkələrdə də siqareti harda gəldi çəkmək mümkün deyil. Elə qardaş Türkiyədə siqaretlə bağlı sərt qadağalar mövcuddur. Belə ki, Türkiyədə uşaqların istifadə etdiyi bütün açıq sahələr, piyada yolları, idman sahələrində siqaret çəkilməsinə icazə verilmir. Eyni zamanda aeroportlar, avtobus terminalı, qatar vağzalı, alış-veriş mərkəzi, kinozal, teatr, tibb mərkəzləri və digər ictimai yerlərin giriş qapısına beş metrə qədər siqaret çəkilməyinə yasaq qoyulub.




Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan da ölkədə siqaret çəkilməsinə qarşı sərt mübarizə aparır. Bununla bağlı bir neçə maraqlı faktlar da var. Misal üçün, Ərdoğan bu ilin fevral ayında 13-cü İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) sammitində iştirak etmək üçün Pakistanın paytaxtı İslamabada gedərkən onu çoxlu sayda mətbuat mənsubu təqib edib. Ərdoğanın təyyarəsində yer alan jurnalistlər arasında Star Tv "Ana Xəbər" proqramının aparıcısı Nazlı Çelik də olub. Nazlı Çeliyin üzərində siqaret paketi olduğunu görən Ərdoğan ilk öncə ondan paketi özünə verməsini xahiş edib. Prezident daha sonra aparıcıdan siqareti tərgitməsini istəyib. Nazlı Çelik yazılı formada siqaretini tərk etdiyinə dair Ərdoğana söz verib.

**Azərbaycanda necə, Milli Məclis siqaretlə bağlı qadağanı özündə əks etdirən qanunu qəbul edəcəkmi? Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan deputat Fazil Mustafa bildirib ki, qanun layihəsi müzakirəyə çıxarılırsa, qəbul olunma ehtimalı da böyükdür:** "Sadəcə olaraq, bu qanuna əməl etmək lazımdır. Azərbaycan cəmiyyətində o qədər üzgörəlik var ki, insanlar bəzən öz faydalarına olan məsələdə belə doğru qərar verməkdə çətinlik çəkirlər. Nəticədə isə müəyyən dərəcədə ümumi işin faydasına olan məsələləri diqqətdən kənarda saxlayırlar. Əsas problemli məsələ budur. Qanun layihəsi birbaşa insan orqanizmini zəhərləyən, pis vərdişlə bağlıdır. Ən azı insanlar özlərini zəhərləsələr də başqalarına zərər yetirməsinlər deyə, belə bir qanun layihəsi qəbul olunur. Ümid edirəm ki, insanlar bunu anlayışla qarşılayıb, qanunun müddəalarına əməl olunmasına çalışacaqlar".

**Qanun mexanizminin işləməsi üçün hansı tədbirlərin görülməli olduğu barədə deputat aşağıdakıları bildirdi:** "İşləmə mexanizmi belədir ki, buna nəzarət edən orqanlar cəriməni olduğu kimi tətbiq etsələr, problem olmayacaq. Məcburuq ki, hər protokol tərtib edənə 25 faiz məsələsini nəzərdə tutaq. Yəni protokol tərtib edən şəxsə də cərimənin 25 faizi çatsın. Belə olarsa, yəqin ki, bu işdə çox böyük aktivlik olacaq. Bu qanunun qəbul olunması heç də insanların hüquqlarının pozulması demək deyil. Çünki burada başqa vətəndaşların səhhətinin qorunması, ictimai tələblə bağlı məsələ var. Ona görə də bu addım atılmalıdır. Özün siqaret, qəlyan çəkirsənsə, bu sənin öz işindir. Ancaq bununla başqasına zərər vurursansa, bu artıq sənin işin deyil. Bu, cəmiyyətin, ictimaiyyətin maraqlandığı məsələdir və onun mənafeyinə vurulan zərbədir. Belə halın qarşısını almaq üçün də ictimaiyyət ümumiləşdirilmiş qanun qəbul edir".

❑ Əli RAİS

# Ölmüş eşşəkləri kolbasa şəklində satanlar tutuldu

## Bəs istehsalçılar və sifarişçilər niyə cəzalandırılmır?

**Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları təhlükəli cinayətkarları saxlayıblar. Bu barədə DİN mətbuat xidmətindən məlumat verilib. Məlumata əsasən, həyata keçirilmiş növbəti uğurlu əməliyyat nəticəsində vaxtı ötmüş qida məhsullarının satışının qarşısı alınıb və beləliklə, qida təhlükəsizliyi təmin olunub. Belə ki, paytaxtın Binəqədi rayonunda əməliyyatçılar 2 nəfər kolbasa satanı-Nicat Babaşi və Vüqar Səlimovu saxlayıblar.**



Onlara məxsus anbarda vaxtı keçmiş külli miqdarda məhsul aşkar olunaraq müsadirə edilib. Müsadirə olunmuş məhsullar Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinə göndərilib. Ekspertiza bu məhsulların qida üçün yararsız olması barədə rəy verib. Məhsulların tərkibi haqda məlumat verilməsə də, belə ehtimallar var ki, kolbasalar leş ətlərdən hazırlanıb. Yəni həmin kolbasaların hazırlanması zamanı at, it, eşşək, ölmüş xəstə mal-qara, hətta caynaqlı heyvanların ətlərindən istifadə edildiyi istisna deyil.

Kənd Təsərrüfatı Nazirliyinin (KTN) açıqladığı rəsmi rəqəmlərə görə, 2016-cı ildə dövriyyədən 70 tona yaxın murdar və mənşəyi bəlli olmayan ət çıxarılıb. Amma bu 70 ton böyük ət bazarında balaca bir damladır. Dövriyyədə tonlarla xəstə heyvanın əti bu gün də var. Restoranlarda lülə kabab, basdırma şəklində süfrəyə çıxan belə ətlərin satılmasının qarşısını almaqda dövlət qurumları aciz görünür. Əslində isə dövlət qurumlarının əhalinin qida təhlükəsizliyinə birbaşa təhdid olan ət və ət məhsullarını dövriyyədən çıxarmaq, dövriyyəyə girməsinin qarşısını almaq üçün kifayət qədər səlahiyyətləri var. Hər dəfə bu məsələ gündəmə gələndə müvafiq sahəyə nəzarət etməli qurumların hərəkətsizliyi məsələsi də gündəmə gəlir. "Bu hərəkətsizliyi şərtləndirən hansı amillərdir" sualı haqda iddialar var. Belə iddialar sırasında yer alan və ölkəmizin reallıqları baxımından daha uyğun olan rüşvət amilinin rol oynadığı istisna deyil. Halbuki həmin murdar ətlərdən rüşvəti alıb bazara buraxanların özləri, yaxınları da dada, ictimai iaşə obyektlərində qida şəklində qəbul edə bilərlər. Məsələn, dövlət qurumunda çalışan və murdar ətlərin bazara buraxılmasının qarşısını almalı olan məmurun övladı, yaxın qohumunun övladı dönərxanalarda mənşəyi bilinməyən ətdən hazırlanan dönər alıb yeyə bilər. Mümkündür ki, həmin ətdə olan xəstəliklər buketi onun orqanizminə ziyan vursun. Təəssüf ki, bunu düşünən yoxdur.

Bu yaxınlarda Dövlət Statistika Komitəsi ölkədə olan eşşəklərin sayının azaldığını açıqlayıb. Məlumata görə, 2015-ci ildə Azərbaycanda 40 min eşşək var idisə, 2016-cı ildə bu rəqəm 35.8 min baş təşkil edib. Ümumilikdə 2008-ci ildə Azərbaycanda eşşəklərin sayı 47 min 800 baş olub. Hazırda bu rəqəmdə 10 minə yaxın azalma qeydə alınıb. Bu, rəsmi statistikadır. Qeyri-rəsmi isə ölkədə təkdırnaqlı məlun heyvanların sayı qat-qat çox olub. Və hazırda azalma rəsmi göstərilən rəqəmdən qat-qat artıqdır.

**İtən eşşəklər, yoxa çıxan atlar hara gedir?**

Bu sualın cavabı ortadadır. Elə Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi əməkdaşlarının Binəqədi rayonunda keçirdiyi əməliyyat zamanı üzə çıxan faktlar konkret durumu ortaya qoyur. İtən at və eşşək, heyvan leşləri həmin o bərbəzəkli qablaşdırmada kolbasa və sosiska şəklində süfrələrə qayıdır.

Növbəti əməliyyatın belə ətlərin satıldığı və ya kolbasa şəklinə salındığı sexlərdə keçirilməsi də vacibdir. Bəlkə "leşyığanlar mafiyası"nın, murdar ət ticarətçilərinin qarşısını bu şəkildə alınar.

❑ E.MƏMMƏDƏLİYEV



# Avstriyadan Azərbaycana göndərilən 170 000 avroluq dərman Ukraynada yoxa çıxıb

**Azərbaycanın "Epidbiomed" tibbi şirkətinə məxsus dərman və digər tibbi ləvazimatlarla yüklü 20 tonluq avtomobil Ukraynada naməlum şəxslər tərəfindən oğurlanıb.**



Şirkətin baş direktoru Surxay Mustafayev APA-ya bildirib ki, sürücüsü ilə birlikdə yoxa çıxan avtomobildə 170 000 avroluq yük olub.

Avstriyadan Bakıya yola salınan yükün olduğu avtomobil Ukrayna ərazisinə girdikdən sonra sürücü ilə əlaqənin itdiyini bildirən S. Mustafayevin sözlərinə görə, yükü çatdırmağa Ukrayna şirkəti məsul olub: "Yükün çatdırılmasını "Rodnev" şirkəti üzərinə götürüb. Rəsmi müqavilə bağlamışıq. Dərman və digər tibbi ləvazimatlardan ibarət yük Avstriyadan alınıb, Ukraynaya qədər problemsiz gəlib. Ukrayna ərazisində isə sürücü Taras Revayla əlaqə kəsilib. Maşın yoxa çıxdığdan sonra "Rodnev" şirkəti də bizimlə əlaqəni müəmmalı şəkildə kəsib. Xeyli müddət əlaqə yarada bilmədik, sonradan öyrəndik ki, yük naməlum şəkildə oğurlanıb. Ukraynanın bir sıra rəsmi qurumlarına müraciət etsək də, cavab və nəticə yoxdur".

S.Mustafayev onu da əlavə edib ki, yükün yoxa çıxmasında "Rodnev" şirkətinin əli olduğunu ehtimal edirlər.

Qeyd edək ki, son bir neçə ay ərzində Azərbaycan şirkətlərinə məxsus yüklərin olduğu 18 ağır tonnajlı yük maşını Ukraynada oğurlanıb.

YENİ MÜSAVAT
N 76 (6690) 13 aprel 2017

# Bakıda istirahət mərkəzində tikili uçdu - 2 nəfər öldü, 4 nəfər yaralandı

**Paytaxtın Səbayel rayon Şıx qəsəbəsində, "Green City" istirahət mərkəzində tikilməkdə olan binada uçqun baş verib.**

Uçqun hadisəsi nəticəsində ölən və yaralananların sayı və adları açıqlanıb. APA-nın əldə etdiyi məlumata görə, hadisə nəticəsində ölənlər 1983-cü təvəllüdlü Yolçuyev Ramal Layiq oğlu və 1973-cü il təvəllüdlü İbrahimov Rövşən İsmayıl oğludur.

"Bakı şəhəri, Səbayel rayonunun Şıx qəsəbəsində baş verən uçqun hadisəsi tikinti normalarının pozulması nəticəsində olub".

"Report" xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında hadisə yerində olan Səbayel Rayon İcra Hakimiyyəti başçısının müavini Abit Əliyev deyib.



Səhiyyə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Liya Bayramova APA -ya bildirib ki, ilkin məlumata görə, hadisə yerində 6 nəfər olub. Onlardan 1 nəfərə yerində yardım göstərilib, 3 nəfər Klinik Tibbi Mərkəzinə aparılıb. 2 nəfər isə hadisə yerində dünyasını dəyişib.



## Gəncə univermağının sahibi beynəlxalq axtarışa verildi




**Gəncə şəhərindəki mərkəzi univermağın sahibi Məzahir Bədirbəyli beynəlxalq axtarışa verilib. Lent.az xəbər verir ki, onun barəsində dövlətlərarası axtarış elan edilib. M.Bədirbəyli xuliqanlıq (silah və ya silah qismindəki əşya ilə törədildikdə) maddəsi ilə təqsirli bilinir və məhkəmə ölkədən qaçdığı üçün onun barəsində İnterpol xətti ilə axtarış elan edib. Onun Azərbaycan dili ilə yanaşı, rus dilini bildiyi qeyd edilib. Həmçinin iş adamının digər xarakterik əlamətləri barəsində açılmış bülletenə daxil edilib.**

Qeyd edək ki, Daxili İşlər Nazirliyi M.Bədirbəylini ölkədaxili axtarışa verib və onun dövlət sərhədlərindən kənarda olması dəqiqləşdikdən sonra İnterpol-a müraciət edilib.

Onu da qeyd edək ki, M.Bədirbəyli 1963-cü ildə Gəncədə anadan olub. Bir müddət Rusiyada fəaliyyət göstərən iş adamı daha sonra Gəncəyə gələrək univermağı özəlləşdirib. Azərbaycandan çıxdıqdan sonra onun yerinə yaxın qohumu ticarət mərkəzinə rəhbərlik edir.



## Dayısı oğlunu namus üstündə ürəyindən vuran gəncin məhkəməsi başladı

**Dayısı oğlunu öldürməkdə təqsirləndirilən şəxsin məhkəməsi başlayıb. Musavat.com xəbər verir ki, bacısını qaçırdığı üçün dayısı oğlunu öldürməkdə təqsirləndirilən 1995-ci il təvəllüdlü Nurlan Quliyevin cinayət işi üzrə məhkəmə prosesi başlayıb.**

Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Mirzə Xankişiyevin sədrliyi ilə keçirilən hazırlıq iclasında N.Quliyevin anket məlumatları dəqiqləşdirilib.

Məhkəmənin baxış iclası aprelin 18-nə təyin edilib.

Qətl hadisəsi ötən il sentaybrın 26-da Sabunçu rayonu Pirşağı qəsəbəsində baş verib.

Nurlan Quliyev dayısı oğlu Mahir Quliyevi bacısını qaçırdığı üçün qəsəbədə yerləşən körpünün yaxınlığına çağırıb. M.Quliyev hadisədən bir həftə əvvəl evlənmək məqsədilə N.Quliyevin bacısını qaçırıb.

Hadisənin təfərrüatı haqda bildirilir ki, N.Quliyev körpünün üzərində dayısı oğlu ilə əvvəlcə mübahisə edib. Daha sonra o, M.Quliyevin ürək nahiyəsindən bıçaqla zərbə vurub və onu körpünün üzərindən aşağı atıb. M.Quliyev hadisə yerində dünyasını dəyişib.

Hüquq-mühafizə orqanları tərəfindən Nurlan Quliyev tutulub. Ona Cinayət Məcəlləsinin 120.2.4-cü (xüsusi amansızlıqla adam öldürmə) maddəsi ilə ittiham verilib.

❑ **İ.MURADOV**

## Abşeron sakinini döyüb öldürənlər tutuldu

**Abşeron sakininin döyülərək öldürülməsi hadisəsinə görə 3 nəfər tutulub. "Report"un xəbərinə görə, bu barədə Daxili İşlər Nazirliyi məlumat yayıb. Məlumata görə, aprelin 10-da Abşeron rayonunun "28 May" qəsəbəsi ərazisindən qəsəbə sakini Tapdıq Məmliyev döyülmə xarakterli xəsarətlə xəstəxanaya aparılarkən yolda ölüb. Abşeron Rayon Polis İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində qətli törətməkdə şübhəli bilinən Salyan rayon sakinləri Səftər Hacıyev, qardaşı Bəxtiyar və əmisi oğlu Şahmar Hacıyev tutulublar.**

## Azərbaycanda dərman satışı ilə bağlı yeni cərimələr tətbiq olunacaq

**Azərbaycanda normativ hüquqi aktların, o cümlədən texniki normativ hüquqi aktların tələblərinə cavab verməyən, keyfiyyətsiz, mənşəyi məlum olmayan, yararlılıq müddəti bitmiş dərman vasitələrinin satışı, satış məqsədi ilə saxlanması və ya idxalı qadağan ediləcək.**

"Report" xəbər verir ki, bununla bağlı məsələ Milli Məclisin Səhiyyə komitəsinin dünən keçirilən iclasında müzakirəyə çıxarılıb.

Komitə sədri Əhliman Əmiraslanov deyib ki, yeni əlavə "Dərman vasitələri haqqında" Qanuna təklif edilib. Onun sözlərinə görə, layihə parlamentə prezident İlham Əliyevin imzası ilə daxil olub.

İclasda həmçinin İnzibati Xətalar Məcəlləsinə də dəyişiklik layihəsi müzakirə olunub. Təklif olunan dəyişikliyə əsasən, üzərində və onların istifadəsi təlimatlarında (içlik vərəqələrində) "dərman vasitəsi deyildir" sözləri yazılmayan bioloji fəallığa malik qida əlavələrinin istehsalına, idxalına və ya satışına görə vəzifəli şəxslər beş yüz manatdan səkkiz yüz manatadək məbləğdə, hüquqi şəxslər min beş yüz manatdan iki min manatadək cərimə ediləcək.

Bundan başqa, bioloji fəallığa malik qida əlavələrinin həkim reseptinə yazılmasına görə vəzifəli şəxslər əlli manatdan yüz manatadək məbləğdə, hüquqi şəxslər yüz əlli manatdan iki yüz manatadək cərimə ediləcək.

## Şimşək çaxacaq, yağış yağacaq

**Aprelin 13-də Bakı və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Bəzi yerlərdə duman olacaq. Axşam yarımadanın bəzi yerlərində yağış yağacağı ehtimalı var.**

Cənub küləyi əsəcək, gündüz arabir güclənəcək

ETSN-dən APA-ya verilən məlumata görə, havanın temperaturunun gecə 7-10° isti, gündüz 12-17° isti, Bakıda gecə 8-10° isti, gündüz 14-16° isti olacağı gözlənilir.

Atmosfer təzyiqi 765 mm civə sütunundan 757 mm civə sütununa enəcək. Nisbi rütubət 75-85 % təşkil edəcək.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz qərb rayonlarından başlayaraq şimşək çaxacağı, arabir yağış gözlənilir. Qərb küləyi əsəcək.

Havanın temperaturunun gecə 3-8° isti, gündüz 18-23° isti, dağlarda gecə 0-5° isti, gündüz 7-12° isti olacağı gözlənilir.

**İZRAİL ƏNƏNƏSİ ƏSASINDA ÖZƏL TİBBİ SAHƏDƏ 20 İLLİK TƏCRÜBƏ!**
**Xəstəlikdən əzab çəkən insanlara Əsasən Kişilərə!**
**Diqqət!!! Axırıncı Şans!!!**

**Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, doktor VAİZ SƏMƏDOV şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi müayinə və müalicə edə bilər.**

- Diaqnozu bilinməyən ağır hallar;
- Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər;
- Cinsi zəiflikdən impotensiyadək, marağın və aktların azalması;
- Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)
- Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)
- Sidikdə və spermada qan;
- Spermanın azalması, itməsi;
- Kişi cinsi orqanının birdən əyilməsi, balacalması;
- Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) yaşa görə balaca olması;
- Ailədə olan hormonal və infeksion səbəbli sonsuzluq;
- Tala-tala və hərtərəfli saçların tökülməsi;
- Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları;
- Baş-boyunda, onurğa-qılçaqlarda, qollar-ayaqlarda, qasıq-xayalarda ağrılar;
- Psixo-nevroloji gərginlik, yuxusuzluq, qorxu, yaddaşın azalması və digər qəribə olan şikayətlər.
- Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək, **(050) 213-88-05** nömrəsinə, **d-r Vaiz Səmədova** zəng etmək olar.*

Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.

**Elan**

**Mərkəzdə, "Gənclik" metrosunun çıxışında kupçalı tam 3 otaqlı daş ev, 5/4 orta blok. Su, qaz, işıq daimi. Nərimanov prokurorluğunun həyətində öz evimdir, orta təmirli. Qiyməti razılaşma ilə. Maklerlər narahat etməsin.**

**Əlaqə telefonu: (070) 399-01-00; (050) 234-64-67**










# Bakı iki böyük yarışa ev sahibliyinə hazırlaşır

## Paytaxtda yarışlarla bağlı hazırlıqlar sürətlənib; biletlər plana uyğun şəkildə satılır...

**Bakı iki böyük yarışa ev sahibliyi etməyə hazırlaşır. Belə ki, mayın 12-dən 22-nə qədər Bakıda IV İslam Həmrəyliyi Oyunları, iyunun 23-dən 25-dək isə paytaxtda ikinci dəfə "Formula 1" Azərbaycan Qran Prisi keçiriləcək.**

Hazırda IV İslam Həmrəyliyi Oyunlarının proqramına daxil edilmiş idman növlərinin məktəblilər arasında təbliğinə həsr olunmuş kütləvi idman tədbirləri çərçivəsində zona yarışları keçirilir. Təhsil Nazirliyinin yaydığı məlumatda bildirilib ki, 900-dək məktəbli idmançının qatıldığı yarışların qalibləri diplom, medal və hədiyyələrlə mükafatlandırılıblar.

**Kütləvi idman tədbirlərinin keçirilməsinin məqsədi IV İslam Həmrəyliyi Oyunlarının proqramına daxil olan idman növlərini məktəblilər arasında təbliğ etmək, onların idmana marağını artırmaq, məktəbliləri sağlam həyat tərzinə cəlb etməkdir. İslam Həmrəyliyi Oyunlarının Koordinasiya Komissiyasının V toplantısında çıxış edən nazir Azad Rəhimov bu tədbirin bütün İslam dünyasını Azərbaycanda birləşdirəcəyinə əminlik ifadə edib:** "Əldə etdiyimiz inkişafdan çox məmnunuq. Biletlər plana uyğun şəkildə satılır. Biletlərin satışı gözləntilərimizə uyğun davam edir. Mən könüllülərin bu oyunlara göstərdiyi maraq və diqqəti yüksək qiymətləndirirəm. Son ay ərzində könüllülər üçün təlim proqramı hazırlamışıq. Bu proqram 8000 könüllümüzü lazımi bilik və bacarıqlarla təmin edir".

Eyni zamanda "Formula 1" yarışlarına da hazırlıqlar davam etdirilir. Azərbaycanda "Formula 1" yarışının təşkilatçısı olan Bakı Şəhər Halqası Əməliyyat Şirkəti (BŞH) Kommersiya şöbəsinin rəhbəri Bülənt Özərdim mətbuata açıqlamasında bildirib ki, artıq "Azneft" dairəsinin qarşısında yerləşən Filarmoniya tribunasında bütün yerlər tamamilə satılıb. Bu, yarışa olan yüksək marağın nəticəsi kimi izah edilib.

Rəsmi məlumata görə, "Formula 1" Azərbaycan Qran Prisində tamaşaçılar üçün müxtəlif biletlər, o cümlədən bir, iki və dördgünlük biletlər təklif olunur. Dördgünlük biletlərin ümumi qiyməti tribunadan asılı olaraq 250-690 AZN arasında dəyişir. Azyaşlılar üçün bütün tribunalara təklif olunan dördgünlük biletlər 175-480 AZN-dir.

Məlumata görə, indiyədək Azərbaycan da daxil olmaqla, Bakıda keçirilən növbəti "Formula 1" yarışına ümumilikdə 48 ölkədən bilet alınıb. Satılan biletlərin 34 %-i Azərbaycanın payına düşür. Qalan 66 %-lik hissə isə xaricdən alınıb. İlk onluğa daxil olan ölkələr bunlardır: Rusiya, Böyük Britaniya, Ukrayna, Gürcüstan, Avstriya, Finlandiya, Birləşmiş Ərəb Əmirlikləri, Qazaxıstan, ABŞ və Almaniya. Satılan biletlərdə fərdi müştərilərlə yanaşı korporativ müştərilər də böyük paya sahibdirlər.

"Yeni Müsavat"ın əməkdaşı olaraq, oyunlarla bağlı Bakıda aparılan işlərlə də tanış olduq. Müşahidə etdik ki, artıq paytaxtın bir sıra əsas küçələrində "Formula 1" yarışları üçün nəzərdə tutulan beton sədlər çəkilib. İstiqlaliyyət prospektində "Qoşa qala" qapısının qarşısında, Bülbül prospektində artıq beton sədlər quraşdırılıb.

Bu ərazidə çalışanlardan öyrəndik ki, yaxın günlərdə digər küçələrdə də beton sədlər quraşdırılacaq. İşlərin hissə-hissə aparıldığını söylədilər. Eyni zamanda işçilər bildirdilər ki, bu il "Formula 1" yarışları ilə bağlı hazırlıq işlərinə ötən il olduğu qədər maliyyə vəsaiti xərclənmir. Çünki ötən ildən bütün lazımi infrastruktur hazırlandığı üçün əlavə vəsaitə gərək qalmır. Beton sədlər quraşdırılsa da, hələ ki dəmir sədlərin quraşdırılmasına başlanılmayıb.

Bu günlər ərzində Bakıya axın edən turistlərin alış-veriş etmələri üçün xüsusi kampaniyalar da başladılıb ki, onların da elan lövhələrinə şəhərin mərkəzi yerlərində rast gəlmək mümkündür. Bundan əlavə, Sabir bağında xüsusi yerlər qurularaq, milli mətbəximizə aid yeməklər, tariximizi özündə əks etdirən suvenirlər, müxtəlif milli geyimlərimiz satılır. Turistlər bu yerlərə də maraq göstərirlər.

Söhbət etdiyimiz satıcılar bildirdilər ki, daha çox ərəblər və iranlılar buradan alış-veriş edirlər. Lakin Avropa ölkələrindən Azərbaycana gələnlərin də bu kimi yerlərə marağının az olmadığı söylənildi. Elə biz də orada olduğumuz zaman söylənilənlərin canlı şahidi olduq. Turistlərin əksəriyyəti Bakını çox sevdiklərini bildirdilər.

❑ **Əli RAİS**
**Fotolar müəllifindir**

# 4 min il tarixi olan manikür...

## Qədim zamanlar yalnız qadınlar deyil, kişilər də dırnaqlarını uzadırdı və bu, rifahın simvolu sayılırdı, indi isə...

**Manikür və pedikür-əksər xanımlar buna xüsusi diqqət yetirir, kimisi salonlara gedib məhz əl və ayaq dırnaqlarının daha baxımlı olması üçün pullar tökür, kimisi isə bunu ev şəraitində etməyə çalışır. İlk baxışdan adi görünən manikür və pedikür vaxtı ilə insanları təbəqələrə bölürmüş. Hətta indi istədiyimiz rəngdə sürtdüyümüz dırnaq boyalarının rəngi belə o zamanlar soyluluğu, yuxarı təbəqəni və qulları ayırd etməyə imkan verirmiş.**

Manikür və pedikürün əslində tarixi çox qədimlərə gedib çıxır. İnsanlar 4 min ildir ki, manikür və pedikür edir. Babilin güneyində yuxarı təbəqə insanlar manikür və pedikür edərkən qızıl alətlərdən istifadə edirmiş. Bu dövrdə yaşayan kölələr üçün qəti qadağan olan manikür, onları digər insanlardan asanlıqla seçməyə kömək edirdi. Mənbələrə görə, dırnaq boyası e.ə. 3000-ci ildə Çində meydana gəlib. O zamanlar dırnaq boyasının rəngi insanın sosial statusuna işarə edirdi. İndi istifadə etdiyimiz qara və qırmızı rəngdən o zamanlar yalnız yuxarı təbəqə insanlar istifadə edirdi. O zamanlar yalnız qadınlar deyil, kişilər də dırnaqlarını uzadırdı və bu, rifahın simvolu sayılırdı. Dırnaqları nə qədər uzundursa, o qədər zənginsən demək idi. Uzun dırnaqlar əllə edilən işləri qeyri-mümkün hala gətirdiyindən uzun dırnaqlı insanların daha çox xidmətçiyə ehtiyacı yaranırdı. Dırnaqlar nə qədər uzundursa, xidmətçi sayı o qədər çox olurdu ki, bu da o insanın hansı dərəcədə zəngin olduğunu göstərirdi.

İşçi və kəndli sinfi da əl-ayaq baxımı mövzusunda çox istəkli olsa da, onlara yalnız şəffaf və parlaq olmayan təbii rənglərdən istifadəyə icazə verilirmiş və bu sinfə mənsub olan insanlara dırnaqlarını uzatmağa icazə verilmirdi. O dövrdəki dırnaq boyası günümüzdə istifadə etdiyimiz dırnaq boyalarından deyildi və tamamilə fərqlənirdi. O zamanlar çinlilər çiçəklərin tac yarpaqlarını bal mumu və yumurta ağı kimi başqa materiallarla qarışdıraraq dırnaq boyası əldə edirdilər. Qədim Misirdə ən üst sinifdən olan həm kişilərin, həm də qadınların dırnaqları diqqət çəkəcək şəkildə qırmızı olurdu.

19-cu əsrin sonlarında isə dırnaqlara daha yaxşı baxım üçün yağlar və mazlar yarandı. Bunlar dırnağa yüngül bir qırmızılıq verməklə yanaşı, eyni zamanda dırnağı cilalamış olurdu. 19-cu yüzilliyin əvvəllərində manikür setlərinin içindəki aksesuarların inkişafı və şəkil dəyişdirməsi 1830-cu ildə həkim Sits tərəfindən reallaşıb. Həkimin xəstələri üzərində ilk dəfə portağal ağacı qabığından etdiyi dırnaq cilası qısa müddətdə Amerikaya, sonra isə dünyanın hər yerinə yayılıb.



İlk dırnaq boyası 1916-cı ildə amerikalı kimyaçı və sahibkar Nortem Uorren tərəfindən hazırlanıb və bu gün də hər bir qadının gözəllik atributlarından biri olaraq qalır. İnanmaq bir qədər çətin olsa da, dırnaq boyaları ilə avtomobillərin oxşar cəhətləri var. Belə ki, dırnaqlar üçün boya maşın boyaları əsasında hazırlanıb. Amerikalı kimyaçı alim Nortem Uorren avtomobil boyasını yeni tərzdə işlətməyi qərara alıb və onu mükəmməlləşdirərək, dırnaq boyasına çevirib.

Nyu-Yorkda manikür salonları ötən əsrin əvvəllərindən mövcud olsa da, bu salonlarda dırnaqlar yalnız tutulur və xüsusi alətlərlə hamarlaşdırılırdı. Bu səbəbdən 1916-cı ildə Uorrenin hazırladığı dırnaq boyası əsl inqilab oldu. İlk dırnaq boyası zərif çəhrayı rəngdə olub. Və bir neçə il boyanın tərkibində heç bir dəyişiklik edilməyib. 1940-cı illərdən etibarən Parisdə dırnaq boyası satışı başladı və zamanla bütün dünyaya yayıldı.

100 il keçməsinə baxmayaraq, dırnaq boyaları indi də qadın gözəlliyinin əsas atributlarından biri olaraq qalır. 1980-ci illərdə isə qadınlar dırnaq boyaları ilə kifayətlənmədi və taxma dırnaqlar meydana gəldi. Bu gün də istifadə etdiyimiz taxma dırnaqlar ilk olaraq "French" adlı üstü ağ, altı şəffaf boyama tərzi ilə məşhur olub. İndi də bu cür dırnaqlar satışda mövcuddur və gözəllik salonlarında istifadə edilir. Elə xanımlar var ki dırnaq boyasından ayda-ildə bir dəfə, elə xanımlar da var ki, hər gün bir rəng dırnaq boyasından istifadə edir. Dermatoloqlar dırnaq boyasının xanımların əllərini incə zərif göstərsə də, fəsadları olduğunu da deyirlər. Çünki dırnaq boyası tərkib etibarilə ən çox toksinə malik olan bir məhsuldur. Dermatoloq xüsusən bildirir ki, dırnaq boyalarının istifadəsindən öncə dırnaqqoruyucu maye istifadə olunmalıdır. Boya çəkildikdən sonra dəridə qalan artıqlar asetonla təmizlənərsə, dırnaq tamamilə quruduqdan sonra əllər yuyulub nəmləndirilməlidir. Dırnaq xəstəliklərinə yoluxma və ondan müalicə ilə qurtulma əziyyətli bir proses olduğu üçün mümkün qədər bu xəstəliklərə yoluxmamaq lazımdır. Buna görə də dermatoloqlar dırnaq boyasından mümkün qədər az istifadə etməyi tövsiyə edir.

Onu da əlavə edək ki, hazırda dünyanın ən bahalı dırnaq boyasının dəyəri 250 min dollardır. Onun tərkibində qara brilyantın olduğu bildirilir. Ölkəmizdə isə müxtəlif rəngdə, müxtəlif firmalara məxsus dırnaq boyaları var. Onların qiyməti isə 1 manat 20 qəpikdən başlayıb 50 manatadək yüksəlir.

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT

Son səhifə

N 76 (6690) 13 aprel 2017



# 80 yaşlı ər-arvad səhər 5-ə qədər gecə klubunda əylənib

Varşavadan Londona səyahətə gələn 80 yaşlı ər-arvad səhər saat 5-ə qədər gecə klubunda rəqs edib. "The Evening Standard"in yazdığına görə, adı açıqlanmayan ər-arvad Polşa qəzetində Londonla bağlı maraqlı şəkillər görüb həvəsləniblər. Britaniyanın paytaxtında yaşayan qızlarına qonaq gələndə isə klublardan birinə baş çəkməyə qərar veriblər. WetYourSelf gecə klubuna bilet alan ər-arvad saat 22.00-da içəri daxil olublar, səhər 5-də isə çıxıblar. Gecə klubunun diceyi Ceykob Hansen düşünüb ki, qoca qonaqlar bura təsadüfən gəliblər. Onun sözlərinə görə, cütlük ingilis dilində çətinliklə danışırmış: "Sonra mən düşündüm ki, onlar burdakılardan birinin qohumlarıdır. Amma girişdəki mühafizəçi dedi ki, onlar içəri girəndə bilet təqim ediblər".

Hansen içəridə polşa dilində danışan bir qonaq tapıb və onun vasitəsilə yaşlı cütlüyün axşam üçün biletləri internetdən aldığını öyrənib. Yaşlı turistlərin hekayəsindən təsirlənən dicey onları pulsuz taksi ilə evə yola salıb. Eyni zamanda bara və vip sahəyə pulsuz giriş bileti verib. Onun sözlərinə görə, yaşlı təqaüdçülər gecə boyunca digər qonaqlarla birgə şənləniblər, rəqs ediblər.

# Türklər günün 162 dəqiqəsini yeyir

Dünya xalqları barədə aparılan araşdırmalarda ilginc həqiqətlər üzə çıxıb. Onlardan biri də osmanlı türkləri ilə bağlıdır. Məlum olub ki, türklər digər xalqlarla müqayisədə yemək yeməyə ən çox vaxt ayıran xalqdır. Araşdırmalara görə, türk insanı gününün 162 dəqiqəsini yemək-içməkdə keçirir. Onlar bütün iş söhbətlərini, ailə toplantılarını yemək masası arxasında keçirməyə çalışır. Yemək, ondan sonra meyvə, ardınca qəhvə mərasimi yemək saatlarını maksimum həddə çatdırır. Araşdırmaçılar hesab edir ki, bu, bir xalq üçün heç də mənfi hal deyil. Əksinə, yemək masası arxasında keçirilən vaxt insanları bir-birinə yaxınlaşdırır. Amerikanlar isə iş gününün sonunda bara gedib, içki içməklə günün stresini atır. Onlar da həftədə 17 saat içkiyə sərf edir.



# Artıq ər-arvadlar bir-birinə "gecən xeyrə" qalsın demir

Amerikada bir internet saytı 2 min nəfər arasında maraqlı bir sorğu keçirib. Bu, insanların yuxuya getməzdən əvvəl həyat yoldaşlarına münasibətini göstərir. 100 cütdən 80-i artıq yatmamışdan qabaq "gecən xeyrə" öpüşündən "istifadə etmir". 90 faiz isə "səni sevirəm" sözünü çoxdan ixtisar ediblər. 100 cütdən 25-i həyat yoldaşının yatmazdan əvvəl ona toxunmasına nifrət etdiyini deyib. Böyük əksəriyyət artıq "gecən xeyrə" sözünü də ixtisar edib. Onların fikrincə, bu, gərəksizdir və özündə yaxınlığa çağırışı ehtiva edir. Rəyi soruşulanlar arasında evli cütlüklər (vətəndaş yox, rəsmi nikahda olanlar) üstünlük təşkil edib. Sorğunun nəticələrini təhlil edən amerikalı psixoloqlar müəyyənləşdirib ki, artıq insanların bir-birinə dözümü qalmayıb. Onlar hətta nəzakət xatirinə bəzi sözləri demək, etiket qaydalarına riayət etmək istəmir.





# Parislilərə kim mədəni olmağı öyrədəcək?

Parisdə turistlərlə davranış qaydaları barədə dərslik dərc edilib. Məqsəd yerli ofisiantların, taksi sürücüləri və hotel əməkdaşlarının turistlərlə kobud, normadankənar davranışlarının qarşısını almaqdır. Lenta.ru "Reuters" agentliyinə istinadən xəbər verir ki, Fransanın paytaxtında hər şey gözəl olsa da, turistlərə münasibət arzuedilməz səviyyədədir. Dərslikdə qeyd edilib ki, britaniyalılar öz adları ilə çağırılmaqdan xoşlanırlar, italyanlarla əllə görüşmək lazımdır, amerikanlara isə hər hansı xidmətin haqqını dəqiq demək lazımdır. Daha çox alış-verişə meylli olan çinliləri isə sadəcə gülüş və öz dillərində salamlama məmnun edir.

Maraqlıdır ki, parisliləri mədəni olmağa öyrətmək cəhdləri daha öncə də olub. 2007-ci ildə şəhərin turizm departamenti taksi sürücüləri, ofisiantlar üçün buna bənzər broşürlar dərc etsə də, bu, nəticə verməyib.




**QOÇ** - Yalnız saat 12-14 arası gərgin keçə bilər. Qalan saatlarda iştirakçısı olduğunuz bütün proseslər zövqünüzlə vəhdət təşkil edəcək. Axşama yaxın sevindirici xəbərlər eşidəcəksiniz.

**BUĞA** - Göy qübbəsi şəxsi işlərinizdə böyük dönüş yaranacağından xəbər verir. Perspektivlərinizi reallaşdırmağa can atın. Yalançı həmkarlarınızdan uzaqlaşmağa çalışın.

**ƏKİZLƏR** - Fəaliyyət sahəsində müəyyən irəliləyişlərə nail olmaq üçün ulduzlar sizə şans yaradacaq. İkitərəfli sövdələşmələrin uğurlu olacağını nəzərə alıb aktivliyinizi artırın.

**XƏRÇƏNG** - Saat 13-ə qədər vaxtınızı qalmaqalsız başa vura bilsəniz, sonrakı müddətdə hər hansı probleminiz olmayacaq. Şəxsi büdcənizi artırmaq üçün münbit şəraitdən bəhrələnin.

**ŞİR** - Təəssüf ki, bu təqvim bürcünüz üçün hansısa uğur vəd etmir. Bu səbəbdən də əsas diqqətinizi səhhət və mənzillə bağlı problemlərin həllinə yönəltməlisiniz. Qeybət və yalandan uzaq olun.

**QIZ** - Maliyyə məsələlərində çətinliyiniz olsa da, qarşılıqlı münasibətlər zəminində işləriniz qaydasında gedəcək. Ailə-sevgi münasibətləri isə daha romantik müstəviyə keçəcək. Yalan vədlər verməyin.

**TƏRƏZİ** - Sizə qarşı qərəzli çıxışlar gözlənilir. Əgər bədxah adamlarla baş-başa gəlmək arzusunda deyilsinizsə, onda belələrindən vaxtında uzaqlaşın. İmkan olsa, nahardan sonra uzaq səfərə çıxın.

**ƏQRƏB** - Maraqlı hadisələrin iştirakçısı olacaqsınız. Bu enerjini xeyirxah işlərə yönəltməyə çalışın. Çünki indi savab qazanmaq qarşınızda bağlı qalan qapıların açılmasına zəmin yaradacaq.

**OXATAN** - Neçə müddətdən bəri ləng inkişaf edən maliyyə işləriniz bu gündən başlayaraq qaydasına düşəcək. Bu istiqamətdə sizə kənardan da dəstək olacaq. Axşam qonaq getməyə dəyər.

**OĞLAQ** - Günün əsas hissəsini maraqlı tərzdə başa vuracaqsınız. Amma yaxşı olar ki, nahardan sonra işə ara verib bir qədər istirahətə aludə olasınız. Spirtli içkidən, duzlu qidadan uzaq olun.

**SUTÖKƏN** - Bir neçə amillə rastlaşacaqsınız ki, bu da saat 15-ə qədər ovqatınızda mənfi çalarlar yaradacaq. Odur ki, maksimal səbr nümayiş etdirməlisiniz. Bu gün çox pul xərcləməyin.

**BALIQLAR** - Ulduzlar yeni və sevindirici hadisələrin iştirakçısına çevriləcəyinizdən xəbər verir. Bu siyahıya işgüzar əlaqələr və tanışlıqlar da aiddir. Amma riskdən uzaq olmalısınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# 9 yaşlı uşaq yata bilmir



9 yaşlı Çeril Dinqs yata bilmir. Həkimlərin dediklərinə görə, FFİ adlı sindroma tutulmuş Dinqsin xəstəliyi çox ağırdır. Hazırda dünyada yalnız 40 nəfərdə belə genetik xəstəlik var. Dinqs də ailəsində xəstəlik ucbatından anasını, babasını və əmisini itirib. FFİ xəstəsi olan insanlar yata bilmədikləri üçün bir müddət sonra qarabasmalar, hallüsinasiyalar görməyə başlayırlar. Xəstəliyin son mərhələsində isə onlar ağıllarını itirirlər. Ata və anadan birində FFİ sindromu varsa, övladda bu xəstəliyin yaranma ehtimalı 50 faizdir.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100